***XƏZƏRİN GÖZ YAŞLARI***
***ƏZİZƏ CƏFƏRZADƏ***
*BAKI – 2002*

*Tears of the Caspian*
*by Aziza Jafarzade*
*Baku – 2002*




*Mənbə: AZERİ.org, 2003*
*Veb üçün hazırlayanlar: Arzu Ağayeva, Gülnar Aydəmirova*
*Veb master: Ülviyyə Məmmədova*



***XƏZƏRİN GÖZ YAŞLARI***
***ƏZİZƏ CƏFƏRZADƏ***

**OXUCUM!**

Oxucum, təəccüb eləmə, 1938-ci ildən danışmağıma heyrət etmə! Bu da tarixdi! Həm də millətimin başına gətirilən bəlaların ən qanlısı, ən haqsızı, ən zülümlüsüdü. Dünyada tayı-bərabəri, analoqu varmı, yoxmu - bilmirəm. Bizdən bədbəxt, bizdən çox bölgülərə, köçürmələrə, qovulmalara, didərginliyə, təhqirlərə məruz qalan ikinci bir millət varmı dünyada? Bilmirəm. Bizdən başqa hər dəfə ən çox üzdə olanları, qabaqda gedənləri, başbilənləri, gözə görünənləri, dil açıb, səs qaldırıb, söz demək istəyənləri zaman-zaman boğulan, boğazlanan, güllələnən, zindanlarda çürüyən ağıl-kamal, ziya sahibləri məhv edilən millət varmı dünyada? Bilmirəm.

Bəşəriyyətə Füzuli kimi, Sabir kimi şəxsiyyətlər verən millətin şairləri, alimləri, sənət adamları diyarbədiyar düşən, şah-sultan saraylarının bəzəyi olan şəxsiyyətlərimizin (Xaqani, Qiyasəddin, Şükrüllah təbibi-sultan və onlar, yüzlərlə… yenəmi sayım?) sorağı İran, Ərəb ölkələri, Türkiyə, hətta Qərbi Afrika kitabxanalarında əsərləri saxlanan, çoxu it-bata düşən, erməni bəlalarından yanan evlərdə məhv olan qeyri bir millət varmı yer üzündə? Bilmirəm.

Əlindəki kitab həm tarixdir, həm də müasir, oxucum! Tarixdir - çünki artıq 38-ci il özü də tarixə keçib. Müasirdir - çünki hələ də o vaxt bir-birini itirən ata-bala… bacı-qardaş… qohum-əqrəba axtarır… tapır da … tapmasa ümidini də itirmir…

Elə bu dərdlər deşir sinəmi. Elə bu bəlalar dağ kimi çökür beynimə. Elə bu zavallar dilləndirir, - de, danış 38-ci il faciəsindən, - deyir mənə.

-Ay köpək qızdarı, ay azanı fit, süfrəsi qəzet köpək qızdarı. Allah bilib elə, sizin başınıza bu oyunları gətirib gəlib. Nə orucuvuz var, nə namazuvuz var, nə bayramuvuz var, nə aşurovuz var. Allah sizi bundan da yaman günə qoysun.

Nanə xanım da qışqırırdı:
-Ağzundan çıxan qoynuva girsin. Həmşəri köpək qızı özünsən.

-Kafirsüz, müsəlman döyülsüz. Nə istəyirsiz bizdən siz həmşərilər, yığılırsız üçdə-beşdə bir hücum çəkirsiz Bakının üstünə? Bakı sizinçün çörəy ağacıdı? Nə istəyirsiz bu camaatın yaxasından? Allah sən ağılda döyül ki, qarğışın mənə düşsün. Özüvə düşər, özüvə.

Qonşular bir-birindən soruşurdular:
-Az, noolub, nə xəbərdi, niyə bunlar qarışıblar bir-birinə?
-Nə olacaq? Nanə xanım çörəy oçerinda Şərəbanını itələyib, yıxıb; qoymayıb girsin bezoçer.
-Şərəbanı nöş bezoçer girirdi? Görmür camaat dalbadal durub?
-Az, bilir ki, buranın qayda-qanunun?
-Lap yaxşı bilir, nöş bilmir? Bilmir ki, sıraynan camaat dayanıblar?
-Orda sıra var, ay bədbaxtın qızı? Kim qabağa keçdi. O alır da, çörəyini. Almayan, çörək kinişkəsi əlində, ağlaya-ağlaya qayıdıb gələcək, çörək qurtaracaq. Sən elə bilirsən elə...
-Nə deyim vallah...

O üzdə yenə səs-səsə idilər, o üzdə yenə də aləm bir-birinə dəymişdi:
-Bura bax ey, ağzuvı təmiz saxla ha!.. Vallahi-billahi bir söz deyərəm özüvə, qırx-əllisin qızuva, qırx puff vuraram sənin o tay gözüvə, hələ çırta-pırtından başqa.

Cavabında Ziba arvadın səsi gəldi:
-Aaz, bəsdi sən Allah, mən bu gəlin köpək qızına neynirəm?

Mən bu eşşək qızının, bu qancıq qızının atasını söymürəm, anasını söymürəm. Mən bu gəlin qan qusmuşa qarğış eləmirəm, qoşa qardaşların qabağuva döşənsin demirəm, əmilərüvün, dayılaruvun xəbəri sorağı Sibirdən gəlsün demirəm, xalalaruvun, bibilərüvün qarasın geyəsən demirəm. Mən bu gəlin qara geymişə qucun oğlan qundağına həsrət qalsın demirəm. Mən neynirəm bu gəlin canı yanmışa? Gəlin gəldi nazan gəldi, növrağımı pozan gəldi, gecə döşək mollası, gündüz qəbrim qazan gəldi... Mən deməmişəm, el deyib – eyyy, el.

Qonşular qəh-qəhə çəkib gülürdülər.

Vur-çatlasının içində yeni bir səs çıxdı:
-Soli, soli.

Bu, duz satan qadın idi. Rus qadın idi. Gedib Masazırdan göldən duz götürür, onu təhər-töhürə salır, sonra da ağ, təmiz torbalara doldurub çiyninə alır, gətirib «soli, soli» qışqıra-qışqıra qapı-qapı gəzib satırdı. Əlbəttə dindar xanımlar urusdan duz almağı rəva bilmirdilər, pak deyil. Bazardan nə təhər qara-qurası da olsa, eybi yoxdu, pakdı. Amma o müasir xanımlar - təzə xanımlar bu solidən alır, elə adını da «soli» çağırırdılar:
-Az, Soli, gəl bir az duz verginən mənə, - deyib çəkdirib alırdılar. Çox vaxt stəkanla satırdı duzu.

Bundan sonra eşşəkçi kişinin sədası aləmə yayılırdı. Bu, qadınların sabun tapılmadığı dövrdə sabuna xüsusilə ehtiyacı olanlara yarayan Hökmalı kəndindən gələn kişi idi. Üç növ gilabi satırdı: ağ, sarı, göy.

Göy gilabi kasıblar üçündü, kasıb fəndi şey. Arvadlar bunu axşamdan isladırdılar. Səhər hamama gedəndə islaq qabını aparıb orada başlarını göy gilabi ilə yuyurdular.

İkincisi sarı gilabi idi. Bunu da bir az hallı ailələrin xanımları alıb, axşamdan isladıb, aparıb hamamda başını yuyurdu sarı gilabıynan.

Ağ gilabi ağ paltarlar, mələfələr üçündü. Elə kişinin səsi eşidilən kimi:

-Ağ gilabiyan, ağ gilabiyan, ağ, sarı gilabiyan!

Elə bu qışqırığı küçədən eşidən kimi arvadlar doluşurdular kişinin başına, dalanların ağzına.
-Əmi, mənə ağ gilabi, əmi, mənə göy gilabi.

Kişi də iki balaca çanaqdan deşiklər açıb düzəltdiyi əl tərəzisində özü bildiyi çay daşından bir gözünə qoyur, o bir gözünə gilabi yığıb satırdı arvadlara.

Bax, elə bu eşşəkçinin səsi qonşu həyətdəki davanın səsini kəsdi.
-Ağ gilabiyan, - səsini eşidən kimi arvadlar cumdular:
-Aaaz, bəsdirün siz Allah, qoyun iş-gücümüzü görək, kişinin səsini batırdız.

Eşşəkçi:
-Toqquş, toqquş, - deyib eşşəyini saxladı. Haraladardansa - Hökmalının hansı tərəfindənsə toplayıb gətirdiyi gilabını müştərilərinə satmaq üçün hazırlıq görməyə başladı. Balaca bir boz, çirkli torbanı eşşəyin başına keçirtdi ki, ordakı navalanı yeyib yerindən tərpənməsin. Eşşəyin dalındakı köhnə xurcununun gözündən əvvəlcə daş-tərəzisini, sonra da gilabiləri yığdığı dağarı çıxardı, işinə - ticarətinə başladı.

Davaçılar da gəlib covğaya qoşuldu. Şərəbanı da, İnsaf da, hamısı bu gilabıdan almalı idi. Hamamın zənənə işləyən günü yaxınlaşırdı. Arvadlar sübh obaşdan hamama gedir, əvvəl uşaqları çimizdirib yola salır, sonra apardıqları boxçalarla dolu paltarları yuyur, sonra özləri çimib çıxırdılar.

Eşşək torbadakı navalandan narazı idi deyəsən. Çünki tez-tez fınxırır, başını yellədir və hər dəfə yerimək, getmək istəyirdi. Kişi:
-Toqquş, toqquş, - deyə eşşəyi saxlayırdı. Nəhayət saxlaya bilməyib eşşəyin noxtasını yaxındakı şalbana - tirə bərkitdi və arvadlarla alverini davam elətdirdi.
-Bu nədi, əyşi, bu nə gilabıdı?
-Nə olacaq, ay bacı, göy gilabıdı, dayna.
-Ay «dayna» sənə qənim olsun, bu göy gilabidi? Əyşi, bu şirədi ey, bizim tərəflərdə bunuynan divar şirəliyərlər, evlərin divarlarını, döşəməni şirəliyərlər.
-Ay bacı, Allahın olsun, bu, o şirədən döyül. Mən bunu gilabılıqdan özüm gedib yığıb gətirib gəlmişəm.
-Amma ağ gilabısını da söz yoxdu ya, elə sarısı da yaxşıdı. - Dedi birisi. O biri əlavə etdi:
-Göyü mən tanımıram, amma ağ gilabiynən sarını tanıyıram, yaxşıdı hər ikisi.
-Allah kəssin onu; elə də baha verir ki...
-Ay bacı, baha nədi? Gedəsən dağa, bu havada, qazasan, çıxardasan, gətirəsən kəndə. Sonra qablaşdırıb gətirəsən Bakıyacan. Elə bilirsən ki, Hökmalıdan Bakıya gəlmək asandı, bir içim sudu?
-Əvəzində qazanırsan da...
-Eh... Qazanca bax ey... Bacı, o səni-məni yaradan Allah haqqı, o qazancnan bir çətən külfət dolandırıram, qazanca, bax!..
-Hə...

Bir az aralıda uşaqlar naqqulu oynayırdılar, şumaqədər. Sən demə Hökmalılının nəvəsi də bu dəfə onunla gəlibmiş. Qoşulub bu uşaqlara, -"naqquluuuu" - deyə-deyə qışqırıb məhəllə uşaqlarıyla oyundadı. Kişi - baba hövsələdən çıxdı, qışqırmağa başladı:
-Adə, ay itin küçüyü, Sonqulu, Sonqulu… Adə, supa oğlu, supa, dəvəcən böyümüsən, köşəkcən gücün yoxdu. Eşşəkcən yekəlmisən, qoduğcan ağlın yoxdu. Bəs sən nə vaxt adam olacaqsan? Mən səni bura naqqulu oynamağa gətirmişəm, ya mənə kömək eləməyə gətirmişəm?

Oğlan uşaqlardan istəksiz, narazı şəkildə ayrıldı, babasına tərəf dilləndi:
-Ay baba, supadan, köşəkdən, qoduqdan, küçükdən haçan adam olub ki, indi mən olam?

Bayaqdan kişinin yarlı-yaraşıqlı sözlərinin ahənginə heyrət qarışıq bir maraqla qulaq asan məhəllə camaatından bir qəhqəhə qopdu ha… Divar dibində oturub arvadların gilabı ticarətinə tamaşa edə-edə papiros çəkən kişilər aralıdan deyirdilər:
-Ay dedi ha, dədəsinin oğludu bu, mən ölüm.

Arvadlar da gülüşürdü, amma heç birisi məhəllə kişilərinin yanında yad eşşəkçiyə, gilabi satan Hökmalılıya sataşmağı ağıllarına da gətirmirdilər.

Oğlan gəlib tərəzini babasının əlindən aldı, yavaşcadan xurcundan çıxartdığı gilabiləri tərəzinin bir gözünə qoyub, o birisi gözünə də çaydaşı qoyur və arvadların hərəsinə istədikləri qədər gilabi çəkib verirdi.

Nəhayət küsülülər də, savaşanlar da gilabı alıb dağılışdılar. Hərə deyinə-deyinə, ya maraq içində bir-birilə söhbət eləyə-eləyə evlərinə sarı yollandılar. Kişi tirdən eşəyin noxtasını açıb qoluna keçirtdi, o da yükü yüngülləşmiş nəvəsini danlayaraq heyvanı bizləyə-bizləyə Hökmalıya sarı yollandı.

Heç eşşəkçi Hökmalı gilabısatanın eşəyinin quyruğu tini burulub gözdən itməmiş sağ tərəfdən dəvə böyürüstü və dəvəçinin səsi eşidildi:
-Qəbələəəə, Qəbələ almasııı... Şahpalıt... qooozzz, fındıq...

Səsi eşidib qayıdan arvadların arasına gülüşmə düşdü. Süneyvaz rəfiqəsi Xumardan soruşdu:
-Bir şey alaceysən?
-Nöşün alım, ağəz, indi Ruzgar xalaya çanağnan pay verəceylər... O da paylıyecey qonum-qonşuya.
-Əh, ətüvi Allah töksün sənün. Bəlkəm heç arvadın tanışı döyül. Yağmadı yağış, bitmədi qamış...
-Birinci dəfədü? Kişinin cırcırama səsini eşidəndə öfkəm ağzıma gəlir.
-Gələr dəəə. Hər iki-üç aydan bir eşidirsən...
-Deyirəm Ruzgar xalanı hardan tanıyır bu dövəçilər?
-Bobasının kətçiləridü. Minbir dilnən dindirir xalayığı, görmürsən?
-Onlar da bir «bibi» deyirlər ona, biri də ağızlarından düşür.

Xumar güldü:
-Bəxtəvər qardaşoğlundan boldu, tarı bəxtəvəridü.
-Amma gətirdiklərini qapı-qapı paylayır. Sən az tıxmısan? Niyə dilə-dişə salırsan fağırı?

Xumar cuşa gəldi:
-Ağəz, Ruzgar xala fağırdı? Yeddi kişiyə do gələr. Çaya susuz aparar, susuz da qaytarıb gətirər. Allah ona bir hünər, qiryət verib ki...
-Elə ona görə dişəyirsən, ya gözün götürmür?
-Elə demə, vallah, lap ürəkdən paxıllığım tutur. Deyirəm ay Allah, noleydi o tarı bəxtəvərinə verdiyün hünərdən, bacarığdan mənə də vereydün.

Süneybaz dedi:
-Yaxşı ki, verməyib. Yoxsa Allah dəvəyə qanad versəydi, uçurtmamış dam-daş qoymazdı qala. Lap o haxçıx Narxanımı da keçərdün.

Bu sözlər yandırdı Xumarı:
-Nə? - deyib çığırdı - məni o erməni kafir köpək qızına oxşadırsan? O, insiz-imansız Nora səninçün də Narxanım olub?
-Elə demə, günahdı. Deyir indi İslama gəlib, Allah bəndəsi olub. Oruc tutur, namaz qılır.
-Həriya, sərfövi sərin saxla. Onun orucu da, namazı da başına dəysin yalansa. O, gözlərdən pərdə asır. Süneyvaz, sən ölmiyəsən Nora özü ölsün, təzə vaxtlarında, o lənətlik Əbi onu bura gətirəndə, şirin düşmüşdün olarçun. Gəldi bir gün yanıma ki, «Xumar, o musurman olan söz var ha, onu de yazım, dönəcəm, öyrənirəm ki, Əbi məni molla yanına aparanda düz deyim əvvəldən əzbərlədiyimi.» Əlində də kağız, qələm. Düzü inandım da, inanmadım da. Nə bilim. Dedim yaz: Əşhədü ənla ilahə illəllah. Yazdı. Dedim, hə, indi əvvəl yazdığuvu oxu, görüm necə yazmısan.

Xumar haxçıx Noranı yamsılaya-yamsılaya, sözünə gülə-gülə davam etdi:
-Eşxedi enla ilaxa illallax...

Süneyvaz da Noranın məharətlə təqlid edilən səsini eşidincə qəşş edərcəsinə güldü. Xumar isə deyirdi:
-Elə ki bu «ilaxa illallax»ı eşitdim, dedim, get, Nora, sənin dinün lax çıxdı. Sənnən müsəlman olmaz.

Süneyvaz ciddiləşərək söyləndi:
-Bir tərəfə baxanda o ötən il nə qədər adamı, məhəllənin ən yaxşılarını elə o verib güdaza...

Xumar da ciddiləşdi:
-O quru kəllənin sözü olmasın, Allah bundan da betərindən saxlasın.
-Amin.

Ruzigar bayaqdan balkonda dayanıb gah pilləkənin üstünə çıxır, gah içəri girirdi. Noranın bazardan qayıtmağını gözləyirdi. Elə Nora darvazanın ağzında görünən təki Ruzigar xanım barıt kimi partladı:
-Ağəz, ay səni Allah yox eləsin. Əbini Allah yox eləyəydi səni bura gətirən yerdə. Ağəz, o nədi getmisən o qaragünnü Məşəmmədi şpionnamısan?

Nora əlindəki zənbili yerə qoyub, guya üzündə bir təəccüb göstərərək mırıldadı:
-Neynəmişəm mən? Nə düşmüsən üstümə yenə, Ruzigar?
-Sənin üstüvə dağlar uçsun, dərdlər düşsün! A köpək oğlunun qızı, o nədi, getmisən Məşəmmədi şpionnamısan? Qaragün Zərəxanım oturub ağlayır.
-Kimə şpionnamışam? Nə demişəm?
-Necə nə demisən? Qaragünnünün axırıncı bir dənə tövlədə qoyunu qalmışdı; kəsib onun ətini satıb ruzi qazanırdı özünə. Elə şpionnamısan, elə yerli-yataqlı xəbərrəmisən ki, gəldilər, götürdülər əti çıxıb getdilər; qaldı qaragün Məşəmməd əli boş zənbilnən.
-Mən neyniyim? Mən nöş şpionnamışam? Hardan bilirsən ki, mənəm? Kim deyib sənə? Bəlkəm ayrı adam...
-Guya məhəllənin camaatı tanımır ki, bu məhəllədə xəbərçi kimdi? Zelyonnıya xəbər verən sən, otdeleniyə gedib, ikinci otdeleniyə gedib Qara Ələsgərə xəbər verən sən. Hamımız tanıyırıq da səni. 37 uzaqda döyül ki. Bircə-bircə dənnətdün məhəllənin bacarıqlılarını, yaxşılarını, əsl xalq dostu olanlarını.

Nora çığırdı:
-Siz elə həmişə məni günahkar eləyirsiz. Mənim nə xəbərim var? Guya mən...

Nora deyinə-deyinə cibindən açarını çıxardıb, qapısını açmağa başladı. Şeylərini içəri daşıdıqca, Ruzigar xanıma da cavab verməyi unutmurdu.
-Siz elə hamınız xaçpərəstliyin düşmənisiz, erməninin də, urusun da. Bir şey olan kimi qoyursuz biz qaragünnünün üstünə.
-Yaman qaragünnüsən, yaman qaragünnüsən. Sənin dilinə qara yara çıxsın, yalansa. Bəyəm bilmirik ki, 37-də necə dənnətdirdin?

Bu sözlərlə Ruzigar xanım ağzına gələni Noranın üstünə tökməyə başladı. Qonşu qapıdan arvadlar, həyətin o başındakı qonşu qapıdan ağlar gözləri şişib, qıpqıpmızı qızarmış Zərəxanım çıxdı:
-Ay Ruzigar, ay Ruzigar bacı, sən Allah, bəsdi. Sonra özünü də işə salarsan, başqaların da. Lazım döyil. Eliyib-eliyib, eləmiyib-eləmiyib. Nə bilim ey? Tutulmayan oğruyam, xandan-bəydən doğruyam. Sən ona necə sübut eləyərsən ki, gedib o, deyib?
-Necə, necə sübut eləyərəm? Sənin balkonunla, dəhlizinlə onun dəhlizinin arasında bircə dənə nazik faner taxta divar var, arasından adam keçən deşiklər var. Deşikdən görüb ki, əti hara qoymusan. Odur ki, milisəner içəri girən kimi heç yerə baxmadı. Birbaşa getdi çarpayının altına, gözümnən gördüm, dalıycan gəlirdim ki... gözümnən gördüm. Əyildi, çarpayının altından çıxartdı. Ha düşdük üstünə: «Ay qardaş, dəymə, yazıqdılar, axırıncı tikələrini, çörəklərini əllərindən alma!»

Dedi, - biz niyə alırıq? Özünüzdən xəbər verən olub. Biz nə bilirdik, sizin çarpayının altında nə var?

Bu qara geymiş, bu qaragünnü, əclaf, sağolmamış gedib xəbər verib, yeriynən deyib. Görünür ki, o, aralardan görüb, gedib deyib, yerli-yurddu. Odur ki, gəldilər, süpürlədilər, götürüb apardılar. Allah onu ruzisiz qoysun.

Nora da aşağıdan deyirdi:
-Allah məni niyə ruzusuz qoyur? Allah elə sizi ruzusuz qoyur. Məniynən Allahın nə işi var? Allah sizə qənim olsun.
-Yox, Nora, Allah bizə özü qənim olmur. Sənin kimi alçağın, sənin kimi satqının, işpionun, xainin əliynən çəkirik biz cəzanı. Görünür ki, Allah yanında, doğrudan da günahımız, nəsillərimizin günahı var imiş ki, tuği-lənət olub keçmisən boğazımıza. Əbinin yolu yumrulaydı, Xanlara gedib, milis nəçəlniyi olub, səni ordan götürüb, bura gətirən yerdə. Bizə bəla gətirdi səni. Vicdansız...

Nora daha cavab verməyi lazım görməyib otağına keçdi, güzgünün qabağında dayandı. Daxili bir sevinclə özünün ağ-çağ, koppuş sifətinə, məhəllədə «pampuşka» adlanıdıran bəzi cavanların dediyi «koppuş-bulki» bədəninə güzgüdə bir xeyli baxdı. Arıqlıqdan ayaq üstə güclə dayanan Zərəxanımı, Ruzigarı gözünün qabağına gətirdi:
-Öləcəysüz elə, - düşündü, - dayanın, hələ başuvuzda çox şey var. Xəbərüvüz yoxdu xəbərdən, mən bilirəm.

Gözünün qabağına Qriqoryan gəldi. Qrişa Qriqoryan dünən ona bu dəfəki görüş vaxtında çox şey tapşırmışdı. Demişdi:
-Bircə-bircə adlı-sanlı olanları nişanla, xəbər tut həmşəriləri, pasportu olmayanları öyrən! - demişdi. Əlaltıycan mənə xəbər ver!

«Görünür ki, dalın demədi Qrişa, görünür ki, bu həmşəriləri basacaqlar gedəcək harasa, ya Sibirə, ya Narginə. Allah bilir.» - düşünürdü Nora.

Doğrudan da Qriqoryan Noranın vasitəsilə məhəllədəki bütün hadisələrdən, söz-sovdan xəbərdar idi. Bir kəlmə artıq-əskik danışan, bir ayağını balaca çəp qoyan kim var idisə, Nora onların hamısını Qriqoryanın ovcuna yazırdı. Əvəzində Qrişa onun koppuş bədənini tərifləyir, tez-tez ağuşunda sıxdığı bu xanımı əzizləyir, ona qiymətli hədiyyələr alır, arabir xərclikdən-zaddan da qoyurdu cibinə. Nora isə məhəllədəki bütün hadisələri yaxşı bilirdi. Çünki onların içərisində yaşayırdı. Həmşərisini də tanıyırdı, dağlısını da tanıyırdı, bakılısını da tanıyırdı. Noraya deməsə də, Qriqoryan vəziyyətin nə yerdə olduğunu yaxşı bilirdi. İran pasportu olanların başı üstündə qara buludlar yığışırdı, qara buludlar.

Nora güzgünün qabağında xeyli nazlandı. Bazardan gələndə bir qədər tərləmişdi. Paltarını çıxartdı. Yaş dəsmalla boynunu, qollarının altını, döşlərinin altını sildi. Yeni paltar geydi. Onu bu yaxınlarda Qrişa onunçün tanış alverçidən xüsusi almışdı. Yenidən güzgünün qabağına keçdi. Sıx, qıvrım saçlarını darayıb, arxada «priçoska» dedikləri bir şəkildə yumurlayıb bərkitdi sancaqlarla. Ürəyində bircə-bircə məhəllədə yaşayan və məhəllədən aralıda tanıdığı həmşəriləri - iranlıları saymağa başladı:
-Görəsən Qrişanın nəyinə lazımdı? Eh, hər nəyinə lazımdı, mənə nə dəxli var? Mənim işim ona təhvil verməkdi. İ vsyo! Yazacağam, verəcəyəm, əvəzində beləsinə qalsa, haqqımı alacağam. Cəhənnəm olsunlar bunlar. Nə qonşubazlıqdı? Nə görmüşəm onlardan? Ona bax, gör bir mənə nə deyir? Deyir ki, «müsürmanın çörəyini yeyirsən». Müsürmanın çörəyini hardan görürəm? Nə iş görür, nə gətirir mənə Əbdül. Qrişa olmasa, o da acından köpər, elə mən özüm də. Bu dünyanın işi belədi; öldürməsən, öldürəcəklər; əzməsən, əzəcəklər. Mən yaşamaq istəyirəm, yaşamaq istəyirəm. Hamısı cəhənnəm olsun. Mənim doğma vətənimdi buralar. Az oxumuşam Raffini, az oxumuşam Çak Parı? Doğma yurdumuzu gəlib alıblar əlimizdən. Məktəbdə müəlliməm də deyirdi, kilsədə keşiş baba da deyirdi:
-Bu torpaqlar bizimdi, qədrini bilin.

Necə bilək qədrini? Alıblar əlimizdən, gəlib bizə ağalıq eləmək istəyirlər. Amma mənə qurban olmuşlar, heç bir ağalıq eləyə bilməyəcək. Nə qədər ki, onların o sarıqulaqları var, nə qədər ki, çoxunun arvadı, məşuqəsi erməni qızlarıdı, belə də olacaq. Erməni qızları işlərini yaxşı bilirlər. Onlar da elə mənim kimi, hər şeyi bircə-bircə Qrişa kimilərin ovcuna yazırlar, onlar da lazım olan işi görür. Yavaş-yavaş görür, amma görürlər, yaxşı bilirəm bunu.

Axşam Baxış kişi tövlələrdən qayıdandan sonra Ağanisə onun qarşısına çay, bişirdiyi xingalı qoydu. Sonra da özü kişinin yanında diz çöküb söhbətə başladı.

-Əyşi, bilirsən, deyirlər ki, iranlıları burdan sürəcəklər. Arada söhbət gəzir. Başbileti dəyişmək lazımdı.
-Ay arvad, camaat gündə bir dənə ağzına söz alacaq, danışacaq, saqqız kimi çeynəyəcək, sən də inanacaqsan. Hökumətin həmşəriynən nə işi var, iranniynan nə işi var? İndi sovet hökumətidi, haqq tərəfdarıdı, dünyasında fağır-füğaraynan işi yoxdu. Başını sal aşağı, işini gör!
-Kişi, bax, qonşumuzda Ağəli kişigilə qaçaqçı gəlir. Deyir ki, adamları bir-bir köçürdür o taya. Gəlsənə sən də bir onuynan görüşüb danışasan, şeytana lənət de.
-Arvad, ağlını başına yığ! Qaçaqçı keçirdir, kimi? Dövlətlini. Pul alır ondan. Boş-boşuna keçirtmir ki. Qara qaşına, qara gözünə aşiq olmayıb heç kəsin. Havayı keçirdir?
-Doğrudu, əlbəttə pul istəyəcək.
-Bəs sən hardan verəcəksən ona o pulu? Bir inəyə gözümüzü dikmişik, bir də sənin hərdən-birdən bişirdiyin o bozlamaca. Yenə də yaxşıdı ki, bu tərəflərdə səngəyi yadında saxlayanlar var, sənin bozlamacına yiyə dururlar.
-Əyşi, nə olar, inəyi də satarıq. Təki məni, uşaqları, ya səni, uşaqları irahat keçirtsinlər o üzə, gedib dədə-baba yurdunda, kəndində yenə bir urvat qazanarsan, yer-yurd qazanarsan özüvə.

-Ay arvad, ay Allahın üçüncü bəndəsi. Uzatma, qutar. Mən bədbəxt oğlu ömrümdə neçə dəfə köçkün olacağam? Bir dəfə İrandan səni götürüb gəldim bura. Bir qədər nöyüt mədənində işlədim. Gördüm ondan da mənə bir əməlli kar aşmadı. Bu inəyi aldım qazancına. Gözümüzü dikmişik uşaqlarnan ona. Gücnən ev-eşik olmuşuq, qonum-qonşu tanıyır bizi, dost-əqrəba olmuşuq camaatnan, qohum olmuşuq. İndi odur ey, qızı istəyirlər neçə yerdən, elə o birisini də istəyirlər.
-Bilirəm, ay kişi, istəyirlər, bakılılardı özü də, istəyənlər. Mən də heç narazı deyiləm əslinə qalsa. Qoy elə Bakıdan evlənsinlər, o yaxşıdı, bakılıya getsinlər, o yaxşıdı. Yerli-yataqlı olarlar burda, arxa-köməkli olarlar burda. Biz də həmçinin.
-Arvad, bunlar hamısı düzdü. Ancaq o qaçaqçı söhbətini çıxart başından. Çoxdandan gəlir bura, bilirəm o qaçaqçıların bəzisi. Bəzisi mal gətirir o yandan, ingilis malı, nə bilim qaş-daş, mirvari gətirirlər, burda satırlar pullulara.
-Yəni burda pullu qalıb? 37-də dəymədilər hamısının dalından?
-Ay arvad, iş başında elə adamlar var ki, aldıqlrını çevririlər ləl-cəvahirata.
-Sən hardan bilirsən?
-Eh, ay arvad, şəhər söznən doludu. Tövlələrdə hərdən adamlar elə sözlər danışırlar ki, o inək yiyələri, gəl görəsən. Amma o söhbəti birdəfəlik yadından çıxart. Qaçaqçıynan bizimki tutmaz. Biz hara, Qaçaqçı hara? O, başqa işdi, biz başqa. Bir də Allah Kərimdi, mən inanmıram ki, sovet hökuməti belə bir iş tuta. Fağır-füğaranı İrana sürgün eləyə, inanmıram.
-Nə deyirəm, vallah, Allah ağzından eşitsin. Allah elə eləsin ki, doğrudan da bu məsələ elə boş söhbət olub qalsın; yalan olsun. Amma neynəyəsən ki, 37-ci il elə dünənki söhbətdi, Baxış. 37-dən elə gözüm qorxub ki...
-Sənin neyşə gözün qorxub? Sən neynəmişdin 37-də? Sənə dəyən-dolaşan oldu?
-Əyşi, mənim nəyimə dəyib-dolaşan olacaqdı? Odur ey, məhəlləmizin görkəmli adamlarının hamısını bir-bir Nora kəsmiş bağaca qoydu, həkimini də apardılar, incinarını da apardılar, müəllimini də apardılar, qara fəhləsin də...
-Ay arvad, yenə nə başımı aparırsan? Qoysana çayımı içim, bir tikə bu hazırladığın zəhəri yeyim. Mən sənə neynəmişəm arvad, mənim başıma bu oyunu gətirirsən? Axı sən həkimsən, müəllimsən, incinarsan, nəsən, indi sənə neynəyəcəklər? Onda o adamlar xalq düşməniydi, hökumətin düşməniydi. Biz ki, nə xalqın düşməniyik, nə hökumətin düşməniyik.
-Kişi, məsəl var ki, tülkü tülkülüyünü sübut eləyincə dərisi boğazınnan çıxır. Nə deyirəm ki, Allah onlara insaf versin. Biz də başımızı aşağı salıb bir tikə çörəyimizi yeyək, balalırımızı böyüdək, görək dünyanın axırı nə olacaq?!..

Həyətdə gur-gur pilətənin səsi aləmi başına götürmüşdü. İzzət bacı yenə dəmir çarpayısını həyətə çıxarmışdı. Kimsə kömək eləmişdi əlbəttə, çünki şikəst adam çətin, çox çətin çıxardardı bu ağır, dəmir çarpayını. Qərəz ki, o, gur-gur pilətəni bu çarpayının, qaralıb hisə bulaşmış yatacağın - çarpayının bütün bəndlərini gur-gur pilətənin oduynan yandırırdı. Yandırdıqca
-Ay canuvuz yansın, - deyirdi.

Taxtabitiləri nəzərdə tuturdu. Arvadın bədəni lapar-lapar olmuşdu taxtabitilərin dişindən. Gecəni necə yatmışdı, Allah bilir. Evdə də rahatlıq yox idi. Kələ-kötür divara yapışdırılmış kağızların dalından taxtabitilər şahə yeriyirdi. Bəri üzdən, gecə kim öldürmüşdüsə, barmaq iziynən qan ləkəsi kağızın bütün aşağı hissələrini örtmüşdü. Ömründə kənd yerində taxtabiti görməyən uşaq - Rüzgar xanımın qonağının oğlu - balaca Mirələsgər uşaq diliynən deyirdi:
-Bay, biti məni neyəcək. Mən harda natacağam?

Uşağın sözünə gülsələr də, hamı gecəni düşünüb elə indidən qara gününü qablaşdırırdı. Divarların dibinə, mümkün olan hər yerə dərman yaxırdı arvad - Ruzigar xanım. Çarə yox idi.

Birdən həyətdə elə bil ki, gur-gur pilətənin səsi kəsildi. Hamıdan əvvəl Mirələsgər həyətə qaçdı. Bir az keçmiş qayıdıb gəldi. Üzündə bir fərəh, bir sevinc vardı. Taxtabiti-zad da yadından çıxmışdı. Uşaq dililə çığırdı:
-Dayım dəldi, dayım dəldi.

İzzət bacı əl saxladı. Uşağın sevincli bağırtısı ona taxtabitini də, gecəki yuxusuzluğu da bir an üçün unutdurdu və gülə-gülə soruşdu:
-Hardan gəldi, Kərbəladan, Məkkədən?

Belə ifadənin varlığını uşaq bilmirdi. Kərbəla, Məkkə sözlərini də eşitməmişdi, bilmirdi. Odur ki, əvvəl bir az dinlədi, qulaq asdı, sonra öz bildiyi şəkildə cavab verdi. Kərbəladan, Məkkədən sözlərinə, belə cavab verdi:
-Dayın hardan gəldi, Kərbəladan, Məkkədən?
-Məttəbdən, məttəbdən.

Məktəbdən dedi. Çünki məktəb sözünü uşaq bilirdi. Doğrudan da boylu-buxunlu, yaraşıqlı oğlan həyətə girəndə hətta hər şeyə çox ağır, ciddi gözlə baxan, kişi qisminə nifrət eləyən İzzət bacı belə bu gözəl oğlanı görəndə utandığından gur-gur pilətəni söndürüb, əlini dizinin üstünə qoyub çətinliklə yeriyə-yeriyə otağına keçmişdi.

Dayı gəldi. İçəri girəndə alaqaranlıqda divarlara dərman yaxmaqda olan Ruzigar xanım işığı yandırdı.
-Buyur, buyur, ay oğul, xoş gəlmisən. Nə əcəb səndən?

Oğlan oturmağa yer tapa bilmirdi. Çünki stulları, stolu dərmanlamaqdan ötrü evin otrasına aralığa çəkmişdi Ruzigar bacı. Birtəhər qapıya söykəkli halda cavab verdi:
-Elə dedim, bir dəyim, görüm, bəlkə bir şeyə ehtiyacınız var, bir söz deyərsiz, bəlkə bir gərəyiniz olan bir şey var, eləyə bilərəm?

Vəziyyəti çox yaxşı başa düşən Ruzigar xanım cavab verdi:
-Çox sağ ol, ay oğul, Allah razı olsun, bir şeyə ehtiyacımız yoxdu.

Oğlan bilirdi ki, bacısı və bacısı uşaqları indi Ruzigar xanımın onsuz da çətin, darısqal evində, çətin şəraitdə yaşamasına bir az da əngəl olublar, Hasıllıdan bura - Bakıya köçürdülüb gələn vaxtilə Qızıllı Qurban adlandırılan kişinin ailəsi indi bu, Ruzigar xanımın evinə sığınmışdı, pənah gətirmişdi. Elə ki, Hasıllıda kişini kulak salmışdılar, evində quyularında taxıl görüb, «sən hökumətdən gizlətmisən taxılı, verməmisən», deyə kişini tutub aparmışdılar. KPZ-də cəmi üççə gün qalmışdı, boğazından bir boğmalıq tutmuşdu, heç nə keçmirdi, su da içə bilmirdi. KPZ-nin naçalniki axırda «Əyşi, get evə, gərəy olanda çağırarıq», deyib xəstəni yola salmışdı. Üççə günün içində kişi ömrünü başa vurmuş, kulak adının balalarına böyük ziyan gətirəcəyini bildiyindən son nəfəsində qaynını yanına çağırıb pıçıltıyla, ağır-ağır xırıltıyla ona demişdi:
-Uşaqları burdan apar. Sənin bacın Seyid Ürfət saya arvaddı; saxlaya bilməz uşaqları bu əllamələrin içində. Apar Bakıya - Ruzigargilə, birtəhər dolanarsız. Sənin də gözün üstlərində olar. Bilirəm Bakıda çətin olacaq onlarçün. Amma Ruzigar əmim qızıdı, yaxşı insandı, bacarıqlıdı, qayğıkeşdi, birtəhər çarə eləyər.

O vaxtdan bəri Qızıllı Qurbanın indi az qala dilənçiyə çevrilmiş ailəsi Ruzigar xanımın evinə pənah gətirmişdi, burda yaşayırdılar. Seyid Ürfət arabir evlərdə xəmir işlərinə - şəkərbura, paxlava, ya başqa bir şey, külçə-filan, şorqoğal, xeyirdə, şərdə belə xəmir şeyləri bişirməklə ailələrə kömək edir, azdan-çoxdan qazanırdı. Düzdü, bununla külfət saxlamaq olmazdı, düzdü Ruzigarın günü bir az da çox ağırlaşmışdı, adı kimi günü-ruzgarı çətinləşmişdi, amma

hər halda Ruzigar xanım əmisi oğlunun balalarını küçəyə buraxan arvad deyildi. Gücə-birtəhər yaşayırdılar, bircə bu zəhrimara qalmış taxtabiti bəlası olmasaydı. Gecə, hətta adamlar yatandan sonra, sakitlik olanda, taxtabitilərin divar kağızının altında xışıltıynan yerimələri belə eşidilirdi; çətin idi; taxtabitilər gecə uşaqların canına elə daraşır, qanını sorur, yatmağa qoymurdu. Uşaqlar çırpınırdılar, o üzə-bu üzə çevrilirdi. Ancaq yuxu onlara elə qalib gəlirdi ki, qaşınsalar da, mırıldansalar da, yuxulu-yuxulu durub divardan yeriyənləri barmaqlarıynan divara yaxsalar da, yenə yatırdılar. Yuxu qalib gəlirdi, şirin yuxu uşaqlara qalib gəlirdi. Ruzigar xanım çarə tapa bilmirdi bu dərdə. Bir də ki, bir onun evində deyildi. Bakının bu tərəfindəki köhnə, xılxın evləri doğrudan da taxtabiti başına götürmüşdü, salamat yer yox idi. Qərəz ki, Ruzigar oğlanın qapıda çox dayanmasına razı olmadı, dedi:
-Bala, get dərsinnən məşğul ol! Dərsini oxu, bəlkə bir günə çıxardasan buları, bala. Ancaq vaxtın olsa, imtahanın-zadın olmasa, vıxadnoy günü gələrsən, Allah qoysa, gedərsən bir bazarlıq eləməyə kömək eləyərsən mənə, məniynən bir yerdə gedərsən bazarlığa, mənə kömək eləyərsən. İndi get, işində-gücündə ol, bala. Biz də görək evi necə təmizləyirik ki, uşaqlar gecə rahat yata bilsinlər.

Oğlan yavaşca soruşdu:
-Bacım hardadı, görə bilmədim?

Ruzigar sıxıla-sıxıla cavab verdi:
-Narahat olma, oğul, qonşuda köçürüləsi qıza xonçalar gəib, vəzout bişirirlər.
-Vəzout nədi, xala?

Ruzgar gülümsədi:
-Səndən görək, inşaallah, şəkərbura, paxlava xonçasıdı...

Oğlan deməyə söz tapa bilmirdi. Bacısının ailəsinə indi heç nəylə yardım edə bilmirdi. Onun tələbəlik təqaüdü özünə güclə çatırdı. Yataqxanada qalırdı. Gecəsi də, gündüzü də dərsnəndi. Can atırdı ki, bircə qurtarsın mühəndisliyi. Neft sənayesində işləyəcəkdi. Bax, o zaman bir parça çörək qazananda bacısına, bacısının balalarına yardım eləyə biləcək, Ruzigar xanımın xəcalətindən çıxa biləcəkdi, belə düşünürdü. Belə düşünə-düşünə də dedi:
-Ruzigar xala, bağışlayın, mən indi sizə yardım eləyə bilmirəm. İstirahət günü əlbəttə gəlib köməyinizə çataram, kömək eləyərəm, əlimdən gələni, nə desəniz. İndi isə zəhmətimiz sizin üstünüzə düşüb. Nə deyim? Allah özü razı olsun sizdən.
-Boy, ay bala, nə zəhmətbazlıqdı? Anam balalarıdı, mənimçün onlar indi elə fəryadıma çatan baxşışdı, bir Allah vergisidi. Fikir eləmə, Allah qoysa, məktəbini qurtararsan, hər şey düzələr.

Allah isə istəkli bəndəsini imtahana çəkirdi. Ruzgar xanımın cavan bacısını əbədi itirmək, balalarını yetim görmək, üstəlik yeznəsi Sübhanın İrandan əvvəlki arvadı Şərəbanını bura gətirmək dərdləri azmış, üstəlik də mərhum əmisi oğlunun külfəti üstünə tökülmüşdü. «Çək ki, çəkə bildikcən, bərkdi fələyin yayı» - demişdi ulular.
Çəkirdi Ruzgar xanım.

Şərəbanıyla Ruzgar xanım heç əvvəldən yola getmədilər. Sübhan kişi arvadı öləndən sonra gedib Miyanadan arvadını gətirən gündən araları yoxuydu. Neçə illər əvvəl Miyanadan Bakıya iş, çörək dalınca gələn Sübhan kişi, yerlilərinin məsləhəti və köməyilə neft mədənlərində işləyirdi. Miyanada qoyub gəldiyi diyarda külfəti olsa da, burda təklik ona əl vermirdi. Palın-paltarın yuyan, xörəyin-çörəyin hazırlayan hardaydı? Odu ki, işini möhkəm tutdu; gəldiyinin birinci aylarında ev sahibəsi Ruzgar xanımın bacısı Balacaxanımı gözaltıladı, bir az çək-çövürdən sonra evləndi. Əslində Bakıda İrandan gələnə qız vermək arzulanan şey deyildi. Deyərdilər: «vaxtı gələndə ya götürüb qəribliyə aparacaq, qürbət dərdi, ata-ana, vətən həsrəti

çərlədəcək gəlini. Ya da vaxtının tamamında çıxıb gedəcək o taydakı arvad-uşağının yanına, bu bədbaxtı gözü yaşlı, cavankən dul, kəbin altında qoyub gedəcək».

Amma sən saydığını say, qoy dursun, gör fələk nə sayır. Beşcə il yaşadılar Sübhanla Balacaxanım. Bu beş ildə dünyaya dörd övlad gətirdilər. Pis dolanmırdılar. Hər dəfə Sübhan kişi məhəllənin o başında yaşayan mamaça Məşəd Gülsüm nənəgildən çiyninə "doğum-zahı kürsüsü" götürüb gələndə məhəllə cavanları, vaxtilə onların da dünyaya gəlməsində iştirak etmiş Məşəd Gülsüm nənədən utansalar da, Sübhanın arxasınca çadrasına bürünüb gələn arvadı - nənəni, elin nənəsini görməməzliyə qoyub kişiyə sataşırdılar:
-Ay Sübhan kişi, sən bura işə gəlmisən, nəsil artırmağa?

Gülüşmə məhəlləni başına götürürdü. Kimsə sataşırdı:
-Kefinə dəymə, alə, millətəkəndü…
-Allah verən padı, daaş, mənnik… nəkarayam…
-Payı çox olsun o gözəl Allahın.
-Alə, həmşəri, orda neçə pay qoyub gəlmisən?
-Özü bilən məsləhətdi.

Bu dəfə Sübhan kişi Məşəd Gülsümün qapısını döyəndə axşamtərəfi idi.
-Ay Məşəd xala, ay Məşəd xala…

İçəridən Məşəd Gülsüm səs verid:
-Nədi, ay bala?
-Mənəm bacı, Məşədi bacı, mənəm ey, Sübhanam, Sübhan…
-Hə… Nə deyirdin, ay bala?
-Nə deyəcəyəm, ay bacı, neçə vaxtdı, bilirsən, gəlinin vəziyyəti… Deyəsən vaxtı yetib.
-Ay başuva dönüm, ay sənə qurban olum, gedə bilmərəm.
-Məşədi bacı, nöş gedə bilmirsən?
-Əşi, eşitməmisən qadağa qoyulub, türkəçarəçilərə? Mən indi bəyəm gedə bilərəm, uşaq tuta bilərəm? Deyirlər türkəçarəçimamaçalar arvadları xarab eləyirlər?
-Nöş xarab eləyirlər? Hərəsi yeddi-səkkizin, onun doğur. Həkimlər Allah saxlasın balaların da, özlərin də. Sənə qurban olum, ay bacı, o getdiyin Məşhədə qurban olum, and verirəm səni, Məşədi Gülsüm xala, səni Allah, məni boş qaytarma, gəlin əldən gedir.

Arvad başılovlu nə cavab verəcəyini bilmirdi.
-Ay başuva dönüm, ay qadoyi alım, başa düş ey, sora deyəcəklər, gəlini türkəçarəçi arvad öldürdü.
-Nöş ölür? Allah qoysa, sənin əlin ki, dəydi ha… Fatimeyi-Zəhranın əlidi.
-Əstəğfür elə, ay kişi, sən nə danışırsan?

Sonra üzünü Hafzaya çevirdi.
-Bala, dur ayağa, kömək elə, o kişi kürsünü götürsün aparsın, mən də dalıycan gedirəm, tanıyıram qapılarını.
-Ay Məşədi xala, sən genə bu kişilərin, bu arvadların üzündən keçmirsən, gedirsən. Soora, vallah, əngələ salacaqlar səni. Görmürsən nələr çıxardırlar, nələr deyillər? Balniskə açıblar, mamaça gətirib qoyublar, oxumuş. Deyirlər orda hər şey təmiz-tarıx, isterinli, nə bilim nə olur.
-Mən də bilirəm, başuva dönüm. Çarə yoxdu, bunların da üzündən keçə bilmirəm. Nəsə… Dur ayağa, dur, kömək eləginən kişiyə. Kömək elə deyəndə ki, gəlib özü götürəcək, yerini bilir; elə qapını açginən sən.

Hafza durub qapıya getdi. Yaşmağını yuxarı qaldırdı, baş örtüsünü üst tərəfdən alnına çəkdi və həyətdəki balaca dükana bənzər bir şey var idi, tövlə kimi bir şey idi, qapısını açdı, dərhal da geri qayıtdı. Naməhrəm kişiyə görünmək istəmirdi.

Sübhan kişi içəri girdi. Birinci dəfə deyildi ki. Uşaqlarıyçün dönə-dönə gəlmişdi. Keçdi həyətə, tövlə kimidən kürsünü götürüb qoydu çiyninə və evə tərəf səsləndi:
-Məşədi bacı, ay Məşədi bacı.
-Nədi, ay qardaş?
-Məşədi bacı, mən kürsünü götürüb gedirəm, gəlginən. Amanın günüdü, tez ol; özünü tez yetirginən, gəlin yaman haraydadı.
-Gəlirəm, gəlirəm, - deyə Məşədi Gülsüm çarşabını başına saldı. İndi o, artıq yaşı ötdüyündən üzünə rübənd salmırdı, yaşınmırdı o qədər də. Elə beləcə, məhəllənin bu başından o başına gedəcəkdi, uzağa ki, getmirdi. Odur ki, rübənd salmadan, elə çarşablandı. İllah da, axır vaxtlar çox qorxurdu çarşabnan, rübəndnən küçəyə çıxmağa. Təzə bir pionerlər çıxmışdı; komsomollar çıxmışdı, adını da deyə bilmir. Piyanardı, nə bilim, qəmsəməldi, nədi, elə küçədə çarşablı arvad görən kimi “çadra daloy, çadra daloy” deyib, çarşabını dartıb alırdılar əlindən, qoyurdular küçədə, avarda. Kişi xaylaqlarını da papaqda görən kimi, “papaq daloy, papaq daloy”, deyib çığırır, keçirdirdilər bir iki qəpiklik köhnə çit şapkanı başına, papağı götürüb aparırdılar. Ancaq indi hər halda bu küçədə, Yuxarı dağlıq küçəsinin bu hissəsində ona toxunan olmayacaqdı. Buna baxmayaraq arvad ürəyində Allahına yalvara-yalvara gedirdi.
-Bağır-öfkəmi yedim, ey Xudavəndi-aləm! Bu nə gündü sən bizi saldın? Oğul-uşaq əlində rüsvayi-cahan olub qalmışıq. Neynəyə bilərəm? Arvadların yanında, kimin yanında danışıram, deyirlər: «kiri, kiri, sənin burda, bütün evlərdə əməyin var, zəhmətin var. Hamının balasını sən tutmusan, hamının nənəsisən». Düzdü ye, ancaq mən kimi başa sala bilərəm, tutub aparsalar o qəmsərriyə? Çarəm yoxdu. Bağrıma daş basıb dözərəm birtəhər. Allah özü qorusun bu milləti, bu bədbəxt milləti, elə məni də. Yurdsuz-yuvasız, qohumsuz-əqrəbasız, vətənsiz, biz bədbəxt həmşərilər. Əllərdə qalardıq, əgər sənətim bu olmasaydı, arvadlar demişkən, hər evdə, hər həyətdə nəvəm olmasaydı. Gəlirlər, bacardığım köməyi eləyirəm. «Mənim əlim olmasın, Fatimeyi-Zəhranın əli olsun», deyib, bellərini çəkirəm. Allah rasta salır, verdiyim mazılardan, bilmirəm, ya bellərini çəkməyimdən, bilmirəm, hər nədəndisə, Allah övlad da verir, xoşbəxt olurlar. Mən onlarnan söyünürəm, elə bilirəm hamısı mənim balamdı.

Məşəd Gülsüm arvad düşünə-düşünə Sübhan kişinin dalınca tələsirdi.

Yuxarı Dağlıq küçəsindəki dalanlardan birinin ağzına çatıb, kürsünü yanpörtü içəri aparan Sübhanın qaqqıltılar, atmacalar qulağına da girmirdi. Fikri-zikri dalandakı üç qapıdan soldakından gələn zahı zarıltısındaydı. Səhər Balacaxanımdan xəbər tutan kimi, qonşuda onunla birlikdə çalışan yoldaşıyla idarəyə - mədənə xəbər göndərmişdi.

Uşaqlar dünyaya gəldikcə yavaş-yavaş bacısının “həmşəriyə” qismət olmasından narazı qalan, yerli-yersiz Sübhanı qaralayıb qarğayan, nitqinə gələni deyən Ruzgar xanımın acığı sönməkdəydi. İllah da ki Sübhanın Balacaxanıma olan məhəbbətini, ev-eşik canlı olmağını gördükcə ürəyində deyirdi: “Allah bilən məsləhətdi. Şükür kəráminə, ər kişidi, pis çıxmayıb. Su girdi bir qaba, oldu içməli. Allah başacan eyləsin. İşləyir, alır-gətirir. Heç kimin yanında başaşağı eləmir. Tiryəkçi deyil, içkiçi deyil, qumarbaz deyil, yan-yörədə gözü yox…”

Amma Allah tez apardı Balacaxanımı. Sübhan qaldı iki əl, bir təpə. Məcbur olub getdi Miyanadakı arvadı Şərəbanını gətirdi uşaqlarına sahib dursun. Elə o gündən də Ruzgar xanım bacısı balalarını ögeyli, evini günülü görəndən Sübhanla da, arvadıyla da oldu qanlı-qadalı.

Arada təkliyə salıb uşaqları dindirirdi. Amma balacalar Şərəbanı analıqdan narazı deyildilər. Yedirib-içirdir, üst-başları gül kimi. Ağlamaqları eşidilmir. Döyüb-eləmir deyəsən. Və Ruzgar xanımın hirsi yavaş-yavaş soyuyurdu. Elə bu vaxt «həmşəri sürgünü» faciəsi baş qaldırdı.

Gülgəz bacılığı bu gün Ruzgara iməci gəlmişdi. Qonşu ......... baqqal əlaltıycan bir kisə sılıflı düyünü onlara sırımışdı. Arıd arılda bildikcən.

-Ay bacı, ucuz-bəsərdi, yenə bu işüvə yarıyar, uşaqlı öydü, işlədərsən, - demişdi.

Amma bü düyünü arıtlamaq özü elə bir müsibət idi. «Belənçik düyünü arıtlamaqdansa, ikiqat pulunu artıq verməк daha məsləhət olardı.» - deyirdi arvadlar. Qərəz ki, hər iki bacılıq əllərindəki balaca siniyə düyüdən götürüb arıtlayır, sılıfları, çəltikləri seçib yığırdılar kasanın içinə. Kasa az qala yarımından olmuşdu. Arabir, əlbəttə belə ağır, yorucu işi yüngülləşdirən qiybətvari söhbət edirdilər.
-Ağız, Ruzigar, eşitdim o həmşəri köpəyoğlu gedib ordan - İrandan arvadını, bacuvun günüsünü gətirib gəlib.

Ruzigar dərindən bir köksünü ötürüb, ağır-ağır dedi:
-Bacıma günü indi neyniyəcək? Bacım getdi bir gedər-gəlməzə, ərindən, balalarından, elə üz çevirməyib, dünyasını elə dəyişməyib ki, indi ona günü bir şey eləyə bilsin.
-Görəsən uşaqları necə yola verəcək?
-Ögey ögeydi də, əlbət kimi. Amma adamın Allahı var, başımın üstündə Allah var, Gülgəz, inan mənə, qapıdan arvad içəri girəndən bəri uşaqlara bir cürə yapışıb ki, bir bala deyir, biri də ağzından düşür.
-Deyər də, nöş deməsin, bilmirdi bəyəm ki, uşaq üstə gəlir? Görəsən özünün orda uşağı yoxuymuş?
-Vallah, bilmirəm, varıymış-yoxuymuş, amma hər halda heç oranın adını çəkən yoxdu. Varıdısa da, Şərəbanının orda anası var, bacısı var, bəlkəm onların yanında qoyub gəlib.
-Şərəbanıdı adı?
-Həri, Şərəbanıdı. Amma genə də deyirəm, başımın üstündə Allah var, bacımın ruhu inciməsin, balalarına hələ ki yaxşı analıq eləyir. Hələ ki…
-Həriya, qoy özünə bir yer eləsün, nə qədər olsa, bura qürbət hesab olunur onunçün. Bir tərəfdən də sən varsan, həyətdə qonum-qonşu var, kişi var, onlardan həya eləyir hələlik yəqin. Bir az özünə yer eliyəndən sonra ögeyliyin buynuzları çıxacaq.

Ruzigar dərindən bir ah səkdi.
-Allah o gündən saxlasın, Gülgəz, Allah o gündən saxlasın! İnan Allaha ki, bircə gün uşaqlara əziyyət verməyini görsəm ha, bircə gün qoymaram o uşaqlar o öydə qala, götürüb gəlləm yanıma.
-Aaa, kim qoyar? Onların atası var. Ataları ola-ola, sən nə haqnan uşaqları gətirib gələ bilərsən bura?
-Cəhənnəmə olsun ataları, analığa mən uşaq verə bilmərəm.
-Dünyanın bu ağır günündə necə yola verəcəksən, ay bacı, necə dolandıracaqsan? Xalx heç öz balalarına yiyəlik eləyə bilmir.
-Demə-demə, dünyanın üzü qara olsun. Dünyanın çox çəpəndaz vaxtına gəlib çıxdıq. Amma kişi öycanlıdı, əvvəldən bilirsən. Elə bacım bədbaxtın vaxtından öycanlıydı. Bir gün çöldə-bayırda qalmağı yoxdu. Nə qazanır, verir çaya-qəndə, lələ-güləyə, yeməyə, içməyə, ətə, çörəyə, gətirir gəlir, balalarının üstündə qanadını gərib oturub. Bircə bədbaxt bacım ölməsəydi… Bircə bədbaxt bacım yaşasaydı… Özü böyüdərdi balalarını.

İndi, bu dəfə Gülgəz köksünü ötürüb yaşarmış gözlərini sildi.
-Eh, mən görmüşəm ögey analığı. Allah onu düşmənə də göstərməsin.

Gülgəz bu sözləri deyə-deyə yaylığının ucuynan gözlərini sildi. Ruzigar isə indi artıq əməlli-başlı ağlayırdı. Gözləri sılıfnan, xırda daşları seçə bilmirdi. Yenə iri, sarı çəltiklər gözünə görünürdü, amma xırda boz sılıflar əməlli görünmürdü gözünə. Odur ki, əlindən sinini qoydu yerə, çıxdı qapıya tərəf. Əlini yaxaladı, aftafadan ovcunu doldurub gözlərinə su çırpdı, iki-üç dəfə çırpdı suyu gözlərinə. Gözünün yaşını da, ora qonmuş tozu da sildi, yudu, əl-üzünü qurulayıb, qayıtdı gəldi, oturdu yerində. Təzədən balaca sinisinə düyü alıb, arıtmağa başladı.

Açıq qapının o üzündən uşaq səsləri eşidildi:
-Xala, xala.

Ruzigar yerindən dik qalxdı.
-Can xala, nədi qurbanın olum?

Qapıya yaxınlaşdı. Uşaqların böyüyü idi, bacısı balalarının böyüyü idi.
-Canım bala, Məmmədəli, nədi, xala qurban olsun sənə, ac döyülsən?
-Yox, indi yemişəm.
-Bəs nə olub, döyüb yoxsa səni ögey anan?
-Yox, döyməyib, mən döymüşəm.

Göz yaşları içində gülümsündü Ruzigar balaca uşağın sözünə,
-Mən döymüşəm ananı.
-Necə yəni mən döymüşəm, kimi döymüsən, ay bala?

Ruzigar uşağı qucaqlayıb yanına çəkdi. Gəlib yenidən oturdu. Məmmədəli də onun yanında bardaş qurub oturdu.
-Şərəbanı nənəni döymüşəm.
-Nöşün?
-Gülyazın, bacımın başını darıyırdı, yumuşdu, dartırdı. Bacım da ağladı. Ağlayanda durdum ayağa, gəldim kürəyinə bir-iki-üç yumruq çəkdim ki, incitmə mənim bacımı ha, öldürrəm səni.

Ruzigar da, Gülgəz də dərindən bir qəhqəhə çəkib güldülər, göz yaşları qurumuşdu. .
-Can bala, bacı qeyrəti çəkən bala, bacı qeyrəti çəkən canuva qurban olum. Məmmədəli, elə qızların xasiyyətidi, bala. Başlarını darıyanda saçı dartınır, incidir onu, ağlayır, yoxsa döyməyib, incitməyib, başını yuyub da bacının.

Uşaq bir qədər lovğalıqla dilləndi:
-Daaşım özü deyib də. Deyib ki, haçan gördün ki, Şərəbanı bacılarını döyür, incidir, döy onu. Özü deyib mənə.

Qadınlar yenə güldülər.
-Aaaz, bu daaş kimə deyir?
-Atasına deyir də iranlılar kimi; bu da dadaş demək istəyir, daaş deyir.

Gülgəz soruşdu:
-Eşitməmisən?
-Nəyi?
-Deyir həmşəriləri ötürürlər o taya.
-Hə... Bəzi qapıları döyməyə başlayıblar.
-Allah Sübhandan uzaq eləsin. Yoxsa uşaqların halı necolar?...
-Hə... Elə Şərəbanının da. Allah saxlasın o gündən.

Amma bir gün...

Amma bir gün onların da qapısı döyüldü.

-Ağız, diyirlər Sübhan kişini aparıblar. Bəs bu bədbaxt Şərəbanı neyniyəcək burda?
-Bədbaxt nöş olur? Çıxar gedər ərinin yanına, öz vətənidü də, vətəninə.
-Vətən vətən yerində, bəs uşaqlar necə olacaq?
-Necə necə olacaq? Aparar özüynən.
-Aaa... Heç onu qoyar Ruzigar xanım ki, bacısının əziz balalarını götürüb aparsın həmşərinin biri?
-Ay balam, həmşərinin biri onların atasıdı da.
-Ataları aparseydi, nə sözü var idı? Şərəbanıya qızmaz dünyasında.
-Şərəbanı, öz aramızdı, onlara elə əsl analıq eliyir. Sən lap nahaqca yerə deyirsən o sözü.
-Mən nöş diyirəm? Ruzigar xanım özü diyir də. Həmişə eşitmişəm ki, şikayətçidü Şərəbanıdan.
-Day bacısının günüsünü bağrına basmayacaqdı, öpüb gözünün üstünə qoymayacaqdı ki.
-Hər şey bir yana, uşaqlar bədbaxtdı arada. Nə atalı kimi atalıdılar, nə analı kimi analı.
-Ata o yanda intizarda, balalar bu yanda gözü yaşlı, ögey əlində. Eh... Nə deyirsən de, nə qədər yaxşı baxırsa-baxsın Şərəbanı, uşağa ana kimi «can» deyən olmaz.
-Hə... Düz deyirsən, balam. Qəmi qəm gətirər, dəmi dəm, bəsdi bunnan danışdıq.
-Buy, nənə, yanaram ey. Qıza, bə mən neylər danışım? Şərəbanı da elə mənim ellimdi da...
-Deyirəm, Allah necə götürür ey bu zülümləri?
-Götürər. Allah elə zalımın, kafırın, zalımın Allahıdı.
-Buy, nəcis yeyən itinəm Allah. Bu qız nə deyir? Aza, asi olma, ağzın əyilər, gözün tutular.
-Ağzından qara yellər aparsun.
-Sübhanın yollarda, balalarından nigaran nə çəkdiyini bir özü, bir də o gözəgörünməz bilir.
-Deyirəm, görəsən indi o tayda bu Sübhan binəvanın ruzigarı necə keçir?
-Necə keçəcək? İtin günü onun günündən yaxşıdı. Yeri-yurdu bir yana qalsın, balalar burda, istəkli arvadı öldü. Deyirdi ki, getdim idarənin böyüyünün yanına, döşəndim ayaqlarına. Dedim: axı mən burdayam neçə illərdi; bu nöyüt mənim qanıma çöyrülüb. Neçə illərdi burda can qoymuşam, qan qoymuşam, mənim əməyimi də yaxşıca qiymətləndirmisiz, çox sağ olun. Ə kişi, mənə Lenin ordeni vermisiz.

Yazıq naçalnik, deyir, başın saldı aşağı, dedi:
-Qardaş, bu mənnik döyül, səhvin özündə olub ki, sovet başbileti götürməmisən. Gərək vaxtında qalaydın qayğısına. Dedim:
-Ay kişi, mən axı başbileti neynirdim? Əsgər gedən vaxtım döyüldü, bir şey döyüldü. Odu ey, bakılıların neçəsin tanıyıram; heç İrannan əlaqə-sələqələri yoxdu. Uşaqları əsgər getməsin deyin, gediblər İran başbileti götürüblər. İndi də vaysına-vaysına qalıblar. Çünki bütün köçnən-külfətnən salırlar onları yola, həmşəridi deyib. Onlarınsa orda heç kəsi yoxdu, köklü bakılıdılar. Mən də fikirləşirdim ki, day mən Lenin ordeni alandan sonra, hər ay məvacibimi artıqlamasıynan, mükafat da alandan sonra mən day burda yerliləşmişəm, vətənim buradı, doğma yurdum buradı, işim-gücüm burdadı. Bundan sonra mənə kim dəyəcək? Nə başbilet bazlıqdı? Başımı bir də işə salıb başbilet çıxardaydım? Döşəndim ayağına, ancaq bir şey çıxmadı. Mən yekəlikdə kişi gözümün yaşını leysan kimi tökdüm, nə nalәm yetişdi, nə alqışım. Canım-ciyərim od tutub alışdı.

Vallah, naçalnik qarışıq hamısı - bütün fəhlə yoldaşlarımın yazığı gəlirdi. Amma yazıqlar qorxularından bir kəlmə söz deyə bilmədilər. Əlimdən tutan olmadı. Özüm öz dilimnən eşitdim Qasımalının da naləsin, Sübhanın da.

Danışan kişi ancaq bircə şeyi bilmirdi. Bilmirdi ki, indi bu 38-ci faciə ilində onları «həmşəri» deyə, o taya sürmüşdülər. Heç on il keçməyəcək, «mühacir», «şurəvi» deyə, bu taya sürəcəklər. Heç onca il keçməyəcək ki, bir millət iki dəfə mühacir olacaq, hicrətə düçar olacaq, mühacir! Doğma yurdunda, parçalanmış yurdunda mühacir olacaq.

Kişi bilmirdi ki, arvad-uşaq çimərliyin yanında Xəzərin sahilində əsir-yesir olub dayanıb, Bakının lap o çimərliyi, çimərlik deyəndə ki, Avropa stilində tikilmiş bu bina bayırdan adi binalara bənzəyirdi. Gözəl, yaraşıqlı bir bina, ağ, mavi rənglərlə bəzədilmiş gözəl bir bina. İçərisi isə bölgülənmişdi. Yerində dənizin dibinə basdırılmış tirlər üstünə taxta döşəmələr salınmışdı. Boylu-boyuna görə uşaqlar üçün, boylu-boyuna görə böyüklər üçün. Üzə bilənlər tirlərin arasından çıxıb açıq dənizə də gedirdi. Amma əksəriyyəti - bilet alıb buraya çimməyə gələnlər açıq çimərliklərdən məhrum ev uşaqları, ev qızları, gəlinləri xanımları idi. Burda dənizin suyunu qızdırıb vannalar da düzəltmişdilər. Xidmət yüksək səviyyədə idi. Amma balaca həmşərilərin bu çimərliyə, bu möhtəşəm, möhtəşəm olduğu qədər də incə və gözəl binaya girməyə pulu yox idi, haqqı yox idi. Heç ağlına da gətirmirdi. Sadəcə onlar bu sahildə dayanıb harasa uzaqlara üzməyə hazırlaşan gəmilərə baxırdılar. Kiminin atasını bu gəmilərdən biri əlindən almışdı. Ata o tayda, Araz bayatıları oxuyurdu, qanlı Arazın, lilli Arazın iki böldüyü vətənin o tayında dayanmışdı. Bunlar isə bu tayda dayanmışdılar. Balaca Həlimə də burdaydı; indi özündən də ixtiyarsız heç ağlına da gətirmədiyi sözlər pıçıldayır, bu bədbəxtlərin dərdinə Xəzər bayatıları yaradırdı; şairlərin, aşıqların, dərdlilərin yaratmadıqları Xəzər bayatıları. Axı onun göz yaşları Araza deyil, Xəzərə qarışmışdı. Axı sürgün həmşərilərin göz yaşları Araza deyil, Xəzərə süzülmüşdü. Deyirlər, Xəzərin suyu qalxmağa başlayıb. Bəs bu qədər göz yaşı töküləndən sonra qalxmazmıdı, coşmazmıdı, nalələrin, ahların yüksəltdiyi dalğalar şahə qalxmazmıdı?
-Arazın suyu zər-zər, - pıçıldayırdı. Xan Arazdan gileylənənlər, Xan Xəzərə nə deyirdi, bir baxın, qulaq asın, eşidin, qəlbinizə, yaddaşınıza yazın bu nalələri.

Xəzərin suyu zər-zər,
Bağrım başı qan süzər.
Zorunan ayırdılar
Ayrılığa kim dözər?

Eləmi Aşqabada
Sən də gəl Aşqabada
Aləm əcəldən ölsə
Biz getdik başqa bada.

Görünən o tay dağlar
Ayırdı o tay, dağlar!
Bu yanda millət mələr
Necədi o tay, dağlar?

Deyin, deyin, millətin nalan anaları! İndi söz sizindi tarixə!

Əsmər sinifdən qızlarla, Səfər oğlanlarla birlikdə, səs-küylə çıxsalar da, texnikumun qapısından birləşdilər, evə tərəf yollandılar. Xeyli aralı idi ev, üzüyuxarı, şəhərin mərkəzindən Həmşəri palanınacan, Hüseynbala açıqlığınacan bir yerdə gedəcəkdilər. Tramvay var idi. Bu yerə 2, 9, 11 nömrəli tramvaylar qalxırdı, tək vaqonlu tramvaylar. Amma bu yaşda, bu ürəkdə insanlara tramvay nəyə gərək idi? Əvvəl əl-ələ gedirdilər. Əsmərin sol əlindəki kitablar sinəsinə sıxılmışdı. Sağ əli Səfərin əlində idi; Səfərin sol əlindən tutmuşdu. Səfərin kitabları ön tərəfdən qayış kəmərinə keçirdilmişdi. Sağ əli sərbəst, boş idi. Arabir bu əliynən nə isə bir hərəkət eləyir; sanki sağ əlinin köməyilə dediklərini təsdiqə çalışırdı. Arabir tramvayın gurultu

ilə yanlarından keçməsinə, küçənin hay-küyünə əhəmiyyət vermədən söhbətləşirdilər, ürəkləri danışırdı. Yox, təkcə ürəkləri danışmırdı, dilləri də danışırdı. Səfər deyirdi:
-Anam hazırlıq görür, Əsmərcan. Əsmərim, anam bu gecə Ruzigar xalaynan birlikdə şəkərbura, paxlava bişirib, ya bu gün, yox, ya sabah sizə gələcəklər, nişan gətirəcəklər. Sənin bax bu şümşad barmağına nişan üzüyü taxacaqlar.

Əsmərim biçim-biçim,
Ölürəm Əsmər üçün.

Dalını gətirmirdi. Dalını gətirmirdi, çünki küçədən keçənlərin, bəlkə də bu sözləri eşidə biləcəyindən ehtiyat edirdi. Yox, əslində o, heç küçədən keçənləri görmürdü. Təkcə o, yox, Əsmər də görmürdü. Çiyin-çiyinə, əl-ələ gedirdilər. Yollarını uzaq salmaqçün tramvayın dolama yollarıynan yanaşı gedirdlilər. Kəsə yolla getsəydilər, evə tez çatacaqdılar. Səfər əvvəl qızı onların yaşadığı Həmşəri palanına ötürəcək, dayanıb ardınca baxacaqdı. Qız burada - öz dalanlarında gözdən itənəcən bir neçə dəfə dönüb baxacaqdı. Qız dalanda qeyb olandan sonra Səfər özlərinin yaşadıqları Hüseynbala açıqlığına gedəcəkdi. Ayrı-ayrı məhəllələrdə yaşasalar da, bir-birinin həyatına bələd idilər. Səfər bilirdi ki, Əsmərin atası Baxış kişi günortanın bu vaxtından bir az keçəndən sonra, yuxarı məhəllələrdəki tövlələrə gedir, Dağlı məhəlləsindən də yuxarı. Solda qəbristan, sağdakı düzənlikdə isə o tövlələr idi. Burada Baxış kişinin bircə dənə Qızıl inəyi var idi. Neyçünsə burdakı həkimlər arasında Qızıl inək, Qızıl inəyin südü dəbdə idi; xəstələrə Qızıl inək südü məsləhət görürdülər. Ona görə də Baxış kişinin satdığı süd dəbdə idi, yaxşı gedirdi. Baxış kişi evlərindən bura əllərində ağır vedrə dolusu su gətirirdi. Vedrə dolusu su altmışı çoxdan ötmüş kişiyə ağır idi. O, gəlib tövlədə inəyi sulayır, sonra da tövlənin içini bel-kürəklə təmizləyirdi. İnəyin altına quru ot, küləş nəsə bir şey sərirdi. Belə hallarda bəzən Səfər guya təsadüfən Baxış kişiyə rast gəlirdi. Onun vedrəsini əlindən alır, ta tövlələrəcən gətirir, kişinin inəyi suvarmasına yardım edir, sonra ona dinclik verirdi.
-Baxış əmi, sən zəhmət çəkmə, tövlənin yerini mən təmizləyərəm, mən kürəyərəm.
-Ay bala, sən şəhər adamı, nə bilisən kürəmək nədi?
-Görmüşəm, Baxış əmi, sən necə eləyirsən, görmüşəm, birinci dəfə döyül ki…

Doğrudan da, birinci dəfə döyül idi. O, Baxış kişiyə hərdən-birdən buralarda kömək eləyirdi. Maraqlıdır ki, bu yerlərdə hər il may ayının ikisində şəhər camaatı mayovkaya çıxırdı. Mayovkaya - dincliyə, bir günlük seyrə çıxırdı. Şəhərdən bura əllərində samovar, vedrələrdə su, pilətə, yaxud evdə bişirilmiş tənək dolmasından, halvadan, quru balıqdan, göyərti, tərəvəz, meyvə, nə bacarırdılar, kimin nəyi vardı, hərə gəlib öz süfrəsini açırdı. Bütün günü şəhər içində, dar evlərdə çətinliklə dolanan uşaqlar, bir gün görməyən uşaqlar burada azadlığa çıxırdılar sanki. Çöldən gül deyə bəlkümun sarı güllərini yığırdılar, gül hesab edirdilər bunları. Bütün günü günəşin altında yanıb qaralırdılar. Evə qayıdanda ata-analar yükləri yenə təzədən uşaqlara, özlərinə çatıb bu seyrdən qayıdırdılar. O birgünlük seyr o qədər onlara xoş idi ki…

Bax, neçə dəfə olmuşdu ki, Səfər anası ilə birlikdə qonşuları Ruzigar xala, ya başqa qonşularla birlikdə mayovkaya gələndə Baxış kişini bu yerlərdə görmüşdü. Əlbəttə Baxış kişi bura mayovkaya gəlmirdi, inəyinə qulluğa gəlirdi. Elə o vaxtdan da Səfər arabir Baxış kişiyə kömək edirdi, sevimli Əsmərin, sinif yoldaşı Əsmərin atasına. Əvvəl Baxış kişi heç bilmirdi ki, qızı Səfərlə birlikdə oxuyur Pedaqoji texnikumda. Sonra xəbər tutanda da yenə ürəyinə heç bir qara-qura fikir gəlmədi. Əsmərini və ümumiyyətlə, qızlara verilən tərbiyəni, ana tərbiyəsini, Ağanisənin tərbiyəsini yaxşı tanıyırdı, yaxşı bilirdi. Qərəz ki, iş o yerə gəldi çatdı ki, günlərin bir günündə Baxış kişinin qapısı döyüldü. Axşam Ağanisə Baxış kişiyə əhvalatı açdı və bir neçə gündən sonra Novruz bayramına azacıq qalmış - 1938-ci il, gizli keçirilən Novruz

bayramına, gizlin-basırıq göyərdilən səmənilərə, gizlin-basırıq bişirilən şəkərbura, paxlava, hamısı gizlin, gizlin yandırılan şamlar, hamısı gizlin… Elə bu vaxt döyülmüşdü Baxışın qapısı.

Gizlin göyərdilən səməni, saxla məni,
İldə göyərdərəm səni.

Qapalı həyətlərdə gizlin qalanan xırdaca tonqallar, balaca ocaq kimi.

Atıl odun üstündən.
Od qoy odun üstündən.
Ağırlığım tökülsün,
Pak olum, təmiz olum, odun üstündən
Təmiz çıxım odun üstündən.

Qəribə sözlər oxuyurdular, hərəsi bir cür. Hərənin ağzından bir cür. Həmin günlərdə Əsmər də qulaq falına çıxmışdı. Bir neçə gün əvvəl ilaxır çərşənbəynən Novruz arasındakı günlərdə. Necə keçmişdi? İlahi, bu qulaq falında kimsə, qonşulardan biri kimisə yola salırdı, uca səslə deyirdi:
-Allah əmanətisən, bala! Allah xeyir versin sənə yollarında.

Əsmərin ürəyi atlanmışdı. Gülünc hesab eləsə də, gülməli hesab eləsə də, Səfər də ürəyində gizlincə qulaq falına çıxmışdı, heç kəsə demədən, anasına, yoldaşlarına. Qorxurdu ki, ona sataşarlar.
-Sən də qızsan, qulaq falına çıxırsan? - deyərlər.

Amma istədiyini eşitmişdi Səfər. Kim idisə, qonşulardan birinin qızı çırtmıq çala-çala evdə oxuyurdu, səsi lap yaxşı, aydın gəlirdi.

Qızım, qızım, qızana
Qızımı verrəm ozana,
Ozan axça qazana,
Qızım geyə, bəzənə.

Səfəri gülmək tutmuşdu:
-İlahi, verəcəklər, amma ozan necə geyindirəcək o gözəl Əsməri?

Əsmərim biçim-biçim,
Ölürəm Əsmər üçün

pıçıldayırdı həmişə ürəyi. Və Novruza ikicə gün qalmış Baxış kişinin qapısı, darvazası geniş açıldı. Əli xonçalı dörd xanım qapıdan içəri girdi. Evdə onları yanan şamlar, yanan lampa qarşıladı, bir də yanan ana ürəyi - Ağanisənin ürəyi.
-Xoş gəlmisiz, səfa gətirmisiz, qədəm əziz eləmisiz. Ay qızlar, ay bala, ay Əsmər, ay Zeynəb, ay Ağəli, - deyə uşaqları çağırmışdı, - gəlin, gəlin əzizlərimizin əlindən xonçaları alın.

Amma xonçaları verən kim idi. Gələnlər, xüsusilə cavan qızlar xonçalar başında havasız, çalğısız, diringisiz, dəfsiz-qavalsıq, ürəklərində çalınan bir musiqiynən rəqs edirdilər, oynayırdılar, fırlanırdılar bu dar evin, geniş ürəkli ailənin dar evinin ortasında. Nəhayət, doğrudan da, Əsmərin bacısı Zeynəb, kiçik qardaşı Ağəli içəri girib qonaqlara kömək elədilər. Zeynəb qonaqların çarşablarını alıb bükdü, taxçaya qoydu. Qapıda başmaqlaını cütlədi. Xonçaları taxtın üstünə qoydu. Qonaqlar üçün döşəkçələr saldı, mütəkkə qoydu. Qıpqırmızı kəsilmişdi. Bacısı üçün sevinirdi, amma bilirdi ki, bu gündən onun üçün də var. Onunçün də

var bü gündən! Ağanisə canını hara qoyacağını bilmirdi. Bir tərəfdən sevinirdi. Qızı öz istəyinə qovuşacaq. O biri tərəfdən narahat idi. Şəhərdə elə sözlər, elə səslər, elə xəbərlər gəzirdi ki! Ana çalışırdı ki, indi, bu gün, bu şad gündə, bu bayramqabağı bayramda həmin xəbərləri yadına salmasın. Qonaqların qarşısına süfrələr salındı, çay gəldi, xonçalar açıldı, xonçalardakı şirniyyatdan da qoyuldu. Əsməri səslədilər. Ağ kəlağayının şövqü ağ üzünə, ağ alnına, al yanaqlarının şövqü ağ kəlağayıya düşmüş Əsmər utana-utana içəri girdi. Ruzigar xanım yerindən qalxdı, zəkiyyə örpəyi kəlağayının üstündən onun çiyninə, başına saldı, üzüyü barmağına keçirtdi.
-Allah sizi xoşbəxt eləsin, Allah göylərdə ulduzlarınızı barışdırsın, Allah sizi bir-birinizə necə qismət eləyibsə, bu dünyada o qismətnən yaşayasız, mənim balalarım, mənim balam, - deyib Əsmərin alnından öpdü.

Gələn qonaqlar bir-bir, xüsusilə Səfərin anası - gələcək qayınana yerindən qalxıb o da Əsməri öpdü, əlini üzükqarışıq əlinə sürtdü.
-Xoşbəxt olun. Balalarım, Allah balamın bəxtinə yazdığı sən gözəli onuynan birlikdə xoşbəxt eləsin.

Deməyə söz tapmırdı.

Gələn qonaqlar yedilər, içdilər, gənclərə səadətlər dilədilər, qudalara mehribanlıq dilədilər, bütün dünyanın balalarına xoşbəxtlik arzuladılar, - bizimki də onların içində, - dedilər və öpüşüb-görüşüb yenə mehribanlıqla bir-birindən ayrıldılar. O gün göylərdə tale mələkləri Əsməri Səfərin alnına, Səfəri Əsmərin alnına yazdı. O gündən bu iki ürək, onsuz da bir döyünən iki ürək birləşdi. Ata-ana yanında, qohum-əqrəba yanında, dost-tanış yanında indi Əsmər - nişanlı qız, Səfər - adaxlı oğlan idi. Hər ikisinə bütün qonum-qonşu, eşidənlər xoşbəxtlik diləyirdi, toylarının tezliklə olacağını düşünürdülər, lap bu yaxınlarda.
-Nə var Allaha şükür, hər ikisi bəs-böyük, kəbin vaxtlarıdı.

Beləcə də bu iki taleyi insanlar birləşdirirdi yer üzündə, mələklər birləşdirirdi göy üzündə. Amma bir Allah bilirdi, təkcə bir Allah bilirdi ki, bu talelər necə olacaq, kimlər qarışacaq, kimlər birləşdirəcək, kimlər ayıracaq, kimlər deyəcək ki:

Arazda buz ağladı,
Yanda yarpız ağladı
Oğlan o tayda qaldı,
Bu tayda qız ağladı.

Sən demə onların taleyini Avropanın gərgin, ictimai həyatını çarpışmalar dolu, qəsblər dolu, faşizm ağalığının hökm sürdüyü Avropanın siyasətində axtarmaq lazım olacaqmış. Bu iki kiçik, bu iki bir-birini sevən və Avropanın siyasətindən xəbəri olmayan gənclərin…

Zibeydə oğlundan keçə bilmirdi, məcbur olmuşdu. Özü də Həmşəri palanında yaşayan Baxış kişinin külfətinə elçiliyə getmişdi, Baxış kişinin qızı Əsmərçün. Əsmər doğrudan gözəl qız idi və əslinə qalsa, Zibeydə heç oğlunu qınamırdı da. Uşaqlar bir məktəbdə oxumuşdular. İndi də hər ikisi bir texnikumda oxuyur, gələcəkdə müəllim olacaqlarını, bir məktəbdə dərs deyəcəklərini düşünürdülər. Düzdü, bir yerdə gedib-gəlmirdilər, amma hər halda məktəbin qapısından girəndə, ya gedəndə, ya gələndə tez-tez görüşürdülər.

Oğlan xəlvətcə anasının qulağını o qədər dəng eləmişdi ki, arvada o qədər yalvarıb-yaxarmışdı ki, Zibeydə onun arzusuna qarşı çıxa bilməmişdi. Bir gün bacılığı Ruzigar xanımı da götürüb elçiliyə getmiş və Baxış kişiynən Ağanisədən razılıq da almışdı. İndi Novruzqabağı Zibeydə istəyirdi ki, gəlinə birdəfəlik həm nişan aparsın, həm də Novruz bayramlığı. İkisinə

ayrılıqda gücü çatmazdı birdən. Odur ki, məhəllədə ən çox inandığı, hörmət elədiyi Ruzigar xanımın yanına gəldi.
-Bacı, bilirsən də, uşaqçün, Səfəri deyirəm ey, Səfərçün üzük aparam gərək. Deyirəm bəlkə, necə bilirsən, Novruz bayramına yaxın aparım, həm bayramlıq olsun, həm üzük-nişan?

Ruzigar xanım vəziyyətindən hali idi Zibeydənin. Odur ki, cəld dedi:
-Hə, ağıllı fikirdi, çox ağıllı fikirdi. Noolar, eləyirlər belə şeyi. Adətimizdə var.
-Bir az deyirəm, şəkərbura, paxlava bişirək. Aburçalnı üzük almışam o vaxtı. Almışam deyəndə ki, elə özümünküdü, o vaxtki aclıqdan məngirləyib saxlaya bildiyim üzükdü. Bir dənə də zəkiyyə örpək varımdı, onu qoyacağam.
-Mübarəkdi, əcəbdi, çox mübarəkdi.
-Day neynim, vallah, zəkiyyə də özümünküdü elə. Ancaq «Yusif-Züleyxa» örpək almağa mümkünüm yoxdu.
-Neynirsən, aaz? Yusif-Züleyxa çıxır moddan. Dəbdən düşür ey, Yusif-Züleyxa aparan yoxdu. İndi ən dəbə düşən elə zəkiyyədi, «süddü sıyıq»dı, qirbişimdi. «Süddü sıyıq» bir az ucuz-bəsərdi. Elə yaxşıdı, zəkiyyə varındı, aparginən zəkiyyəni; əcəb, çox yaxşı. Bəs indi şəkərbura, paxlava məsələsini nə yerdə qoyursan?
-Kömək eləsən, deyirəm bir iki kilo şit yağ alım...

Ruzigar xanım nə düşündüsə, cəld Zibeydənin sözünü kəsdi.
-Bura bax, Zibeydə, mənə şit yağ lazım döyül. Xəmirüvü yəqin ki, mən yoğuracağam.
-Əlbət kimi, əlbət kimi, sən yoğuracaqsan. Bəs kim yoğuracaq?
-Hə, onda sən mənə, heç kəsə bir kəlmə də söz demə, iki kilo marqarin al gətir.
-Bıy, marqarini neynirsən?
-Sənə dedim ki, heç kəsə bir söz demə. Sən bilmirsən, xəmirinki marqarindi. Elə yumşaq eləyir ki, elə bilginən ki, şəkərburanın qabığına elə bilginən ki, şit yağ, kərə yağı yaxılır. Sənin işin olmasın, mən zamın. Amma bircə dənə səniynən şərtim var: fındıq, badam axtarma, elə qoz ləpəsi al, həm şəkərburaya, həm paxlavaya.
-Bıy, Ruzigar bacı, paxlavaya qoz genə yaxşıdı, amma şəkərbura qara çıxmaz?
-Yox, sənə ancaq təhərini öyrədəcəyəm, o qozun ləpəsini elə təmizləyəcəksən ki, ağappaq, badamdan da ağ olacaq. Ondan sonra özüm bilərəm, neynərəm. Hər ikisini gərəyincən, hər ikisini layiqincən, layiqindən də artıq aparacaqsan, Allah qoysa, beş xanımın içində biri kimi, nigaran qalma.

Zibeydə sevindiyindən nə edəcəyini bilmirdi. Çünki Ruzigar xanımın hesablamasıynan onun hesablaması arasında yarıbayarı təfavüt olurdu. Ruzigar isə sözünə davam edirdi:
-Hil də var özümdə. Bir az keçən dəfədən gülabım da qalıb, onun da dərdini çəkmə. Amma şəkəri, bax görginən də, indi nə təhər eləyirsən şəkəri. Elə eləginən ki, lap xırda, narın, untəhər şəkərdən olmasın, dənəvər şəkərlər olur ey, bir az dənəvər şəkər olsun, ondan da bir alarsan, qozuvun miqdarına bax, gör nə qədər eləyir, ona görə. Yumurta da lazım döyül, ay Zibeydə, uşaqlar kənddən o günləri qonaq gəlmişdilər, bir xeyli yumurta gətirib gəliblər. Nədi ki, onun içinə onsuz da ağı qatılmır, elə bir beş dənə; yumurtanı çox vuranda xəmir quru olur, ona görə işin olmasın, yumurta da burdan düzələsidi.
-Allah balalarını saxlasın, Allah sənin istədiklərini saxlasın, Allah o bircə bacına rəhmət eləsin, qəni-qəni. Sən ki mənim dərdimi başa düşürsən...
-Sənin nə dərdin var? Nə var Allaha şükür? Allah sənə gül kimi oğul verib, lay divar. O cürə də qızların içində qız seçib, lap belə durnanı gözündən vurubdu. Nə dərdin var sənin, Allaha şükür? Canın sağ, əlin sağ, ayağın sağ. Bu böyük dövlətdi, böyük nemətdi. Dur ayağa bircə, baş-beynimi ağrıtma. Dur get, dediklərimi al, gətir, gəl, mən də hazırlığımı görüm. Gecə, Allah qoysa, xəmiri axşam çağı yoğurram, gecə gələrsən, səhərəcən onu belə yaxşıca burda naxışlayarıq, düzəldərik. Burjuyka da mənimki elə var. O vaxt qonşu köçüb gedəndə İrana, qoymuşdu, getmişdi, bizdə qalmışdı.

-O nöş köçdü, sənin o qonşun?
-Vallah, nə deyim, heç bir sorağın bilmədim. Dünyanın işlərindən nə sudur anlamışdısa, kişi köç-külfətini yığdı, yığışdırdı, götürdü, çıxdı, getdi. İndi oduye, xəbər çıxır, söhbət çıxır deyirlər, başbilit axtarırlar, başbilit, pasport, nəbilim nə, həmşərilərdən. Allah axırını xeyir eləsin.
-Vallah, düz deyirsən. Mənim də bir əlim gəlir, bir əlim gəlmir, bir ayağım gedir, bir ayağım getmir, bir gözüm söyünür, bir gözüm söyünmür, ay Ruzigar bacı. Qalmışam iki daş arasında. Bilmirəm, bircə oğuldu, keçə bilmirəm, varım-yoxum, iki gözüm, bilirsən ki, necə böyütmüşəm, gözüvün qabağında olub. İndi qalmışam belə. Qız da o taylı. Birdən məğşüşluq düşsə, nə olar, bilmirəm vallah.
-Allah kərimdi. Fikir eləmə. Cavanların məhəbbətinə, ürəyinə xal gətirmə. Dur, dur ayağa, get, dediklərimi al.

Bu sözlərlə də Ruzigar xanım qalxdı, ətəyini çırpıb keçdi mətbəxə. Zibeydə də onun dediklərini almaq üçün dükanlara yollandı.

Ruzigar xanım pilətəni yandırıb burjuykanı üstünə qoymuşdu. Evin bir küncündə dururdu. Amma hər halda evi bir qədər istiləndirmişdi. Axşam saat on radələrində artıq şəkərburanın xəmiri gəlmişdi. Qonşudan bir neçə qız-gəlin də şəkərbura naxışlamaq üçün həvəslə köməyə gəlmişdilər. Maqqaş çatmırdı.
-Eybi yoxdu, biriniz qıraq bükərsiz, bir neçəniz də maqqaşlayarsız. Yayan da lazımdı, yuxayanı çəkin qabağınıza, yayan da lazımdı. Elə hamı maqqaşlamayacaq ki.

Ruzigar xanım bu sözləri deyə-deyə olduqca nazik yaydığı yaymaları, xəmirləri orta həcmli sininin üstünə sərir, arasına şəkərli, gülablı, hilli narın, əzilmiş qoz ovuclayıb tökür, arabir arasına yağ verir, yenə ikinci yuxanı yayıb salırdı üstünə. Beləliklə, birinci sinidə paxlava hazır olanda Ruzigar xanım yaxşıca hamarladığı sinini Zibeydənin qabağına çəkdi:
-Aaaz, Zibeydə, sənin gözün mənimkindən yaxşı olar, ala, çox iri doğrama. Elə olsun ki, hərəsi bir adam yeyən olsun. Yoxsa, götürürlər yarımını yeyirlər, yarımı qalır yerdə. İndi day camaat da elə forslanıb ki, heç kəs heç kəsin artığını yemir. Mənciyəz heç nəyə baxıb-eləmirəm.

Zibeydə sinini qabağına çəkib paxlavaları doğradı və zəfəran qarışdırılmış yumurta sarısıynan üzünü boyadı, yumurta sarısı yaxdı üstünə. Hərəsinin də tən ortasına yarım dənə püstə qırığı basdı. Və bu əməliyyatı eləyə-eləyə ürəyində düşünürüdü: «Ruzigar xanım, heç neynim, necə eliyim deməyəsən. Allah özü qorusun səni. Hardan tapmısan bu püstəni, yumurta sarısını, zəfəranı? Məndə bu tavana hardaydı?»

Orda isə artıq şəkərburalar, dəyirmi, qəşəng, ağ sininin bir qırağına düzülürdü. Qızlar bu şəkərburaları götürüb ovuclarının içində üzlərinə yaxın naxışlamağa başlayırdılar. Qonşudan Gülbadam arvad birdən başını qaldırıb Zibeydəyə tərəf dilləndi:
-Aaaz, beylə yağı niyə tökmüsən xəmirin içinə? Adamın əli yağlanır. Elə bil ki, yağ maqqaşlayırıq, xəmir yox.

Zibeydənin ürəyi guppuldadı. Başını qaldırıb oğrun baxışlarla Ruzigara baxdı. Söz tapmırdı, nə deyəcəyini bilmirdi. Qorxurdu ki, sirri açılacaq. Qorxurdu ki, nişan üçün ellərə göndərəcəyi, evlərə göndərəcəyi şəkərburanın xəmirinin marqarin yağından yoğrulduğunu duyan olsun. Zibeydədən əvvəl Ruzigar xanım dilləndi:
-Özüvüzə söz tapın, siz Allah, danışmağa! Bəs neyniyəydi? Ellərə, evlərə xonça göndərir. İki kilo şeydi, onu da neynəməliydi? Yağını bol elədi. Mən elə dedim ona, bir az da yağın bol elədi. Yaxşı da elədi, əcəb elədi, görürsən necə gözəl çıxır?

Bu sözləri deyə-deyə artıq naxışlanmış qıyqacı, həsiri, gül, cinaq kimi adlandırılan şəkərbura naxışlarını nəzərdən keçirir, bu naxışların incəliyinə, zərifliyinə tamaşa eləyir, elə bil xəmirə ilahi bir gözəllik verirdi qızların maqqaşları və bu şəkərburaları qaldırıb burjuykanın sinisinə yığır və pilətənin üstünə qoyurdu. Ruzigar bunları elədikcə Zibeydə də artıq paxlava ilə işini görüb qurtarmışdı, üzə gəlməyə qoymuşdu. İndi o, yuxayanın üstünə xırdaca kündələrdən şəkərbura üçün yaymağa başlamışdı.

Getdikcə söhbət qızışır, deyib-gülmək belə hallarda artırdı, belə hallarda həmişə zarafatlar, lətifələr baş alıb gedirdi. Hərə bir söhbət danışır, hərə bir şeylə məclisi şənlərdirmək, bu nişanın xeyir-dualı olmasını arzulamaq, arvada hardasa ürək-dirək vermək istəyirdi.

Kimsə qızlardan birindən xahiş elədi:
-Dur, bir piyalə su ver, içim, ay bala.

Qız durub qapının ağzına yığılmış ayaqqabıların üstündən tullanıb keçdi. Həyətdəki mətbəxdən piyaləni su ilə doldurub gətirdi. Yenə həmin qaydada ayaqqabıların üstündən tullanıb keçdi. Birdən içəridə Ruzigar xanımın qəhqəhəsi eşidildi. Hamı nəsə bir şey gözləyirdi elə bil ki, Ruzigar xanımın ağzından. O isə gözlərinin yaşını əlinin arxası ilə silib gülə-gülə deyirdi:
-A bala, a bala, keçmiş vaxt olsaydı, səni alan olmayacaqdı, vallah.
-Neyçün, Ruzigar xala? - deyə qız piyaləni su istəyənə verib, keçib yerində oturdu və növbəti şəkərburasını götürüb naxışlamağa başladı.
-Naxışıvın gözəlliyinə baxmayacaqdılar ki. Harda görəcəkdilər? İldə bir dəfə naxış vurursan şəkərburaya. Bax, amma ayaqqabını, qədimdə gələrlərmiş qızı bəyənməyə, hələ elçiliydən qabaq.
-A qızım, a qızım, bir piyalə su ver nənəyə.

Qız qapıdakı ayaqqabıları sahmana salıb, cütləyib bir tərəfə çəkib, sonra gedib su gətirib gəlirdisə, «hə, səhmanlı qızdı», deyib alırdılar; razılaşırdılar qızın tərbiyəsiynən, qabiliyyətiynən, səliqəsiynən. Yox, əgər ayağıynan o yan, bu yana itələyib keçirdisə, yenə də birtəhər deyirdilər: «hə də pis döyül, öyrətmək olar». Amma sənin kimi, toxunmadan, üstündən atlanıb keçirdilərsə, deyirdilər: «aaaz, aaaz, aaaz, ondan da öydar olar? Heç bir səliqəsi-filanı yoxdu».

Ruzigar xanımın sözlərinə hamı gülürdü. Birdən Zibeydə sözə qarışdı:
-Ay Ruzigar bacı, vallah, qədimdə də qız seçənlər qəribə şeylərə fikir verərmişlər ey. Deyirlər ki, çox qədim zamanlarda, hardasa başa dırnaq vurmaq dəb imiş. Bir qız da uzun müddət başa dırnaq vura bilmirmiş. Gəlirlər, qoca qaynana, gələcək qaynana başını qoyur, deyir: «ay qızım, bir başıma dırnaq çal». Qız dırnaq çala bilmir, qalırdı evdə. Amma yaxşı qız imiş, səliqəli qız imiş. Axırda bir çoxbilmiş bacılığı ona deyir ki, «aaaz, bu dəfə gələndə elçiliyə sənə, qaynana başını ki, dizinin üstünə qoydu, bircə cıqqam yumurtanın qabığını cibindən çıxart, yavaşcadan xırdala, tök başına. Sonra başla onun başını dırnaqlaya-dırnaqlaya o yumurta qabıqlarını xırçıldat. Arvad elə biləcək ki, bit qırırsan başında, sirkə qırırsan başında. Qız belə də eləyir növbəti dəfədə. Göydə gedir ey, alır arvad.

İndi yenə bir qəhqəhə qopdu içəridə.

-Yaman zəmanəymiş. Yaxşıdı ki, o vaxt doğulmamışıq, o vaxt dünyaya gəlməmişik.
-Yox, o vaxt dünyaya gəlməyinə o vaxt gəlmisiz, amma böyüməyiniz, getməyiniz şura hökumətinin zamanına düşüb. İndi nə elə elçiliklər var, nə elə bir söz-söhbət. Seçmək… Harda qızlar-oğlanlar tapışırlar, gedirlər üç manat pul verirlər, ZAQS-da kəbinlərini kəsdirirlər. Heç bir ay keçməmiş, genə gedirlər üç manat pul verirlər, ayrılırlar. Nədi ki, əslini-nəslini,

qabiliyyətini, tərbiyəsini, səliqəsini ata-ana görməyib, ata-ana yoxlamayıb, məsləhət bilməyibdi. Özləri…

Vay dədəm, vay nənəm vay
Bakıya gəldi tramvay.
Bu zamananın qızları,
Ərə gedər özləri,
Kəbin kəsər özləri.

Mahnını eşitməmisiz?

Yenə qəhqəhə qopdu.

Şəkərburanın bükülüb başa çatması gecə yarıdan ötənə kimi çəkdi. Naxışlar qurtardıqca bir-bir qonum-qonşunun qızları, gəlinləri çıxıb gedirdi evinə. Ən axıra ikicəciyəzi qaldı - Ruzigarnan Zibeydə:
-Allah razı olsun səndən, ay bacı, yuxusuz qaldın gecəni.
-Eybi yoxdu, əvəzində işimiz düzəldi. Sabahnan allah qoysa, podnusdaruvu gətirərsən. Mənim də burda biri tirmə, biri şəmsi-qəmər parçasından tikilmə yaxşı boxçalarım var. Gətirib qoyarsan boxçaların içinə. Birinə şəkərbura, Allah qoysa, birinə paxlava, bir az da noğuldan-zaddan yığarıq, üstünə də üzügüvü qoyarsan, bir dənə də zəkiyyəni. Oldu. İki, ya üç xonça düzələcək. Allah qoysa, adına layiq gözəl xonçalar düzələcək, nigaran qalma. Sabahnan, Allah qoysa, kimləri məsləhət bilərsən, onlarnan göndərərsən gedər.

Zibeydəni elə bil nəsə sancdı.

-Boy, o nə deməkdi, sən Allah? Necə yəni kimi məsləhət bilərsən? Başında sənsən. Nənəsi də sənsən, xalası da sənsən, bibisi də sənsən Səfərin. Kimim var mənim, ay Ruzigar, səndən başqa? Allah qoysa, səhər özün bəzəyərsən, düzəldərsən xonçaları, necə ürəyin istəyir, o cürə. Sonra inşaallah, bir-iki nəfər də qızlardan - cavanlardan götürrük, götürərlər xonçaları başlarına, gedərik. Birini, deyirəm, qaynım qızı, nə qədər olsa, baxtı çox cavankən yatdı. Allah özü köməkçisi olsun. Kəbutər tez baxtı kəm oldu. İki uşaqnan qaldı, nə vəziyyətdə. İndi Allah kərimdi, ilişdi İslama, o taylıdı, neynəmək olar, ürəyi sınıqdı. Deyirəm biri o Kəbutər.

-Hə, hə, noolar, noolar, lap yaxşı. Biri Kəbutər, biri sən, biri mən, bir də odey, o İnsafın qızı.
-Hə, lap yaxşı, dörd nəfər.
-Mən xonça götürən döyüləm day. Sən də anasısan.
-Eybi yoxdu, anası olanda nə olar? Sən də bir xonça götürərsən. Dörd xonça, dörd nəfər də adam. Xəbər eliyərsən, sabah səhər. Xəbər göndər onlara - Baxışgilə, deynən ki, günorta çörəyindən sonra, Allah qoysa, saatını da mən xoşlatdıraram. Xoşlatmaqçın Mirəbdülvahab ağanın yanına gedəcəyəm, xoşlatdıraram saatını da. Gedərük, Allah qoysa, apararıq nişanımızı verərik; həm olar nişan, həm də bayrama iki-üç gün qalıbdı - bayramlıq. Lap yaxşı. Allah xeyir versin, üzlərə çıxsın, Allah ağbaxt eləsin. Dünyamızı da Allah qara günə salmasın, qara günlərdən qurtarsın, İlahi!
-Amin, amin, ay bacı!

Məhəllənin uşaqları tində oturub həmişəki kimi tum çırtlayır, çırta-çırt, gəlib gedən qızlara sataşırdılar, özü də gözləyirdilər, böyüklərdən görüb-eləyən olmayanda. Qızlar da, bu zaman dəb düşmüş çarliston kostyumu geymişdi əksəriyyəti. Uzun dar yubka, qısa pencək. Demək olar ki, güclə addım atırdılar. Hələ üstəlik bu oğlanların sataşmasından daha da özlərini itirir, onlara yerimək imkanı vermirdi.

-Can, can, ay anamın gəlini, - deyirdi birisi.

O birisi bərkdən səslənirdi:
-İndi sənin gözlərin qaradı, biz şəhərdən çıxey?
-Alə, Hüccətün «gəlini» göründü.

Görünən qız əlbəttə Hüccətin heç nəyi deyildi. Sadəcə oğlanlar bilirdi ki, Hüccət adlı dostları bu qız üçün «sino gedir»; özü də deyir ki, «bir hə desə, anamın gəlini olsa, can verərəm onunçün.

Hərəsi bir söz tapırdı. Qışda bu oğlanlar o ki, var qartopu toplayıb qızlara atardılar. Yaz-yay aylarında isə beləcə oturub söz atmacaları ilə, tum çırtlamaqla məşğul olurdular. Amma daha çox meyxana deyirdilər. İçərilərində gözəl meyxana deyənlər var idi. Biri xüsusilə fərqlənirdi. Bu gün o, ayrıca bir eşqlə rəqiblərini divara qısnamışdı demək olar ki.

Mən deyirəm lənginən,
Çərpələng olub göyə millənginən.
Şairsən, bir kəlmə dillənginən!

Əlbəttə, qarşısındakı şair bu gözlənilməz qafiyələrə söz tapmaq üçün düşünürdü. Elə bu zaman məhəllənin lap başlanğıcında oğlanların əksəriyyətinin gözünün işığı, vurğun-vurğun ardınca baxdıqları, amma üzə vurmayıb zarafata saldıqları Əsmər göründü. Tək deyildi, arxasınca, bir addımlıqda Səfər gəlirdi. Məhəllədə belə hərəkət görünməmiş iş idi. Məhəlləyə yad oğlanla gələn məhəlləli qız çətin ki, bu yerlərdə gora sağ baş apara. Elə buna görə də bayaqdan başı meyxanaya, söz qoşmağa qarışmış, yeni qafiyə axtaran oğlanlardan biri təəccüb içində:
-Alə, alə, alə, alə, ora baaax…

Hamı dönüb onun baxdığı tərəfə baxdı və qarşıda Əsməri, ardınca da Səfəri gördülər.
-Alə, qız qabağda gedir, sən öləsən, ora bax e, bu o deməkdi ki, qız qabağdadu, onun sözü keçəndü.
-Həri də, gərəy oğlan qabağda gedə, qız onun dalıycan, dədə-babalarımızda görməmişük?
-Yooox, bizim məhləyə özgə oğlannan…

Lap balaca, onlara nisbətən balacalarından biri dilləndi:
-Özgə döyül ey, nişanlısıdu. Bu yaxınlarda nişanladılar onları. Özüm bilirəm, yəqin bilirəm.

Bu sözü eşidincə hamı susdı. Əgər doğrudan da Səfər qızın nişanlısı idisə, onu ötürmək, yad gözlərdən, yad sözlərdən, sataşmalardan, atmacalardan qorumaq, əlbəttə, nişanlısının öhdəsinə düşürdü, qeyrət məsələsi idi. Ona görə də gənclər səslərini kəsib, bir kəlmə də danışmadan gözaltı gənclərə baxırdılar. Səfərlə Əsmər isə utancaq görkəmlə olsa da, amma cürətlə gəlib onların qabağından keçdilər. Danışmırdılar. Aralarında bir addım məsafə var idi - qabiliyyət məsafəsi.
-Day məhəllənin içində qol-boyun olmayacaqdılar ki, - deyə kimsə pıçıldadı, - alə, heç tanımırsuz bəyəm bu həmşəri qızını?
-Həmşəri qızı olanda nə olar? Gül kimi qızdı, sən öləsən. Heyif ki, özümüzdən birinə qismət olmadı.
-Kim idi istəyən? Kimin ürəyindən gəlirdi ki, bu tezliklə nişanlayarlar?

Yenə də o balaca dilləndi:
-Mən eşitdim ki, anasıgil danışırdılar ki, guya ikisi bir məktəbdə oxuyurlar - pedməktəbdə, müəllim olacaqlar.

-Belə de, belə de… Həmşəridən kəndxuda hansı vilayətdə var? Yəni bu qız gəlib müəllim olacaq?
-Neyçün olmasın? Əsmər çox yaxşı qızdı, həyalı, başıaşağı, dilavər.
-Başıaşağı… Dilavər… Başıaşağıynan dilaıər tutur heç?
-Nöş tutmur?

Əsmərlə Səfər artıq oğlanlardan bir qədər aralanmışdılar. Əsmərin ailəsinin yaşadığı darvazanın qapısına çata-çatmayada Əsmər başını döndərib yavaş səslə və başının işarəsi ilə vidalaşdı və darvazalarında qeyb oldu. Səfər dönüb geri, evlərinə qayıtdı. Yəni evlərinə deyəndə ki, sabaha dərs hazırlamaq lazım idi. Sabah imtahan verəcəkdi, amma canı da, başı da, beyni də, ürəyi də - hamısı Əsmərin yanında getmişdi. Heç sabah imtahan verəcəyi müəllimin adını soruşsan, fənnin adını soruşsan, indi bəlkə heç cavab verə bilməzdi.
Gedə-gedə düşünür, xəyallanırdı.

Qulağında anasının axşam dediyi sözlər canlanırdı:
-Can, ay oğul, başuva dolanım, dədən rəhmətlik mənə bir həsiri qolbağ almışdı. Deyirəm ki, may bayramında aparım onu qıza, Əsmərciyəzimə verim, taxım qoluna. Mənim day harama yaraşır qolbağ taxmaq? Ona yaraşar - gözəl gəlinimə. Elə belə də dedi: «gözəl gəlinimə». Deməli, anam da bəyənir Əsmərimi, anam da sevib Əsmərimi. Yaxşı gəlin-qayınana olacaqlar, Allah qoysa! İnanıram buna. Çünki nə Əsmər elə qız deyil, nə anam elə ana ki, aralarında, danışılan o gəlin-qayınana söhbətləri olsun.

Evlərinə tərəf addımladıqca Səfər xəyalında səadət sarayı görürdü. Bu sarayda üç nəfər yaşayırdı: Ana, oğul, Gəlin. Əsmər!

Həmşəri palanı ilə Hüseynbala açıqlığı arasındakı məsafə çox deyildi, az idi. Əgər çox olsaydı, Səfərin qurduğu səadət sarayının tikilməyinə, lap kəlləsinə, külafirəngisinə çatmağa vaxt çatardı. Ancaq evlərinə azacıq qalmışdı. Elə səadət sarayının kərpiclərini bir-bir qoya-qoya onu gözəlləşdirmək üçün min bir qələmlə zinət vura-vura heç vaxt bağlı olmayan, açar-qıfıl görməyən qapılarını açdı. Evlərində nə vardı ki, qapını hələ bir bağlayaydılar da? Anası həyətdə samovara od salırdı.
-Can, ay bala, gözümün işığı, gəldin? Canım-ciyərim, gəldin?
-Gəldim, ana!

Anasının kömür, bir azacıq da neyt iyi verən əllərinə toxunmaq istədi. Səfərin odlu öpüşü anasının çiyninə qismət oldu. İçəri keçdi. Kəmərindən dəftər-kitabını çıxarıb evdəki yeganə stolun küncünə qoydu. Yeməkləri də burda idi, süfrələri: duzu, çörəyi, dəstərxanları… Səfərin yazı işləri də burda gedirdi. Yazı deyəndə ki, Səfər ancaq dərs hazırlayardı burda. İndi də anasıynan görüşəndə ara vermiş səadət sarayı tikintisi davam etməyə başladı. Bu xəyali tikintini qura-qura mətbəxə keçdi; əl-üzünü yudu, üst geyimini dəyişdi, gəlib masanın arxasında oturdu. Kitabını açıb qarşısına çəkdi. Bu gün o, çox məsul bir fəndən dərs hazırlayacaqdı. Böyük Sabirin adını daşıyan Pedaqoji məktəbdə oxuyurdu.

-Böyük Sabirin adına layiq tələbələr olun, böyük Sabirin adına layiq bitirin buranı. Onun adına layiq məktəblərdə müəllim olun, - demişdi onlara hələ birinci sinfə daxil olanda. Məktəbin böyük zalında toplanmışdılar. Məktəbin müdiri və müavini Pənah müəllimlə Camo bəy onlara məhz belə demişdi. Nəsihət vermişdi. Onlar da lazımınca hazırlaşırdılar. Bu zaman onlara ədəbiyyatdan Şaiq Əfəndi dərs deyirdi. Dünən o, əvvəlcə Sabirlə görüşlərindən, onun sabun dükanına getməyindən, onun ilk "Ümid” məktəbindən, bir sözlə, Sabir haqqında xatirələrindən danışmışdı. Sonra da Sabir yaradıcılığına keçmişdi. İndi Səfər Sabir yaradıcılığını hazırlamalı idi. Sabah Şaiq Əfəndiyə cavab verəcəkdi. Sabir yaradıcılığından danışmalı idi. “Hop-hopnamə” qarşısında idi. Yaxşı çap olunmuş bu kitab onun stolunun

üstündə daimi idi. Anası da hərdən-bir bu kitaba baş vurur, götürüb oxuyurdu. Səfər məktəbdən gələndə görürdü ki, anası yemək-içmək hazırlayıb, indi də oturub “Hop-hopnamə”ni oxuyur.

Nə bilirdik, nə zəhrimardı kitab?
Biz olan evdə haçan vardı kitab?

Anası “Nədamət və şikayət”i, “Qoyma gəldi”ni, ümumiyyətlə, Sabirin qadınlara həsr etdiyi, qadın həyatından bəhs edən felyeton və satiralarını əzbər bilirdi. Əzbər bilsə də, yenə dönə-dönə məhz kitabın üzündən oxuyurdu. Elə bil ki, bu, ona Sabiri yenidən kəşf etməkdə kömək edirdi. Səfər özü də belə idi. Hər dəfə məktəblə, maariflə, xalqı cəhalətdə saxlayan, xürafata qərq eləyən nə vardısa, kim vardısa, hamısını ifşa eləyən şerlərini elə bir həvəslə, elə bir ürəklə oxuyurdu ki! Çoxunu əzbərləmişdi.

37-ci il faciələri uzaqda deyildi, yaxındaydı. Sabirin şerlərindən elə şerləri, elə parçaları ixtisar eləmişdilər ki, uşaqlar əvvəl oxuduqlarının içərisindən bəzi bəndlərin çıxardıldığını görəndə əvvəl təəccüb edir, sonra bəndin mənasını dərk eləyəndə dərin təəssüflə, qorxu hissi ilə ötüb keçirdilər. Səfər bəzən ürəyində düşünürdü: yaxşı ki Sabir bu illərəcən yaşamayıb, yoxsa çoxdan o da xalq düşməni kimi tutular, məhv edilərdi. İndi heç olmasa təmiz adı qalıb millətə yadigar. Elə Cəfər Cabbarlı haqqında da Səfər belə düşünürdü. Tez-tez Azərbaycan Dövlət Dram teatrında tamaşalara gedirdi, o, dünya klassikləri ilə yanaşı böyük anşlaqla, böyük tamaşaçı kütləsi ilə qarşılanan Cabbarlı pyeslərini - “Almas”ı, “Yaşar”ı, “Od gəlini”ni gördükcə məhz belə düşünürdü. Yaxşı ki, vaxtında öldülər. Amma əlbəttə bu sözləri, bu fikri yüksəkdən deyə bilməzdi, heç vaxt. Domoklun qılıncı kimi 37-ci il insanların başı üstündən asılmışdı. Titrədir, titrəyir, titrədikcə cingiltisilə o məşum 37 faciəsini yada salırdı. Sanki unutmayın, deyirdi, unutmayın, hər birinizin gedə biləcəyi yoldu, intəhası əlində silah olanların arzusu idi.

Upravdom Kərim kişi xüsusi narahatlıq keçirirdi. O bilirdi ki, bu fağır arvadın o tayda heç kəsi yoxdu. Kişi gözünü açandan bəri Məşəd Gülsüm arvadı bu məhəllələrin mamaçası görmüşdü. Vaxtilə haçansa neft mədənlərinə gələn cavan Qasım adında bir cavan burada Hacı Cəbrayılın qulluqçusuna evlənmişdi. Özü də həm mədənlərdə işləyir, həm də boş vaxtı olanda Hacının ev-eşik işlərinə əl-ayaq verirdi. Heç ilki dünyaya gəlməmiş arvadını tək, Hacının evi umuduna qoyub dünyasını dəyişmiş, elə qazmaqda olduğu neft quyusu uçulub qəbrinə çevrilmişdi. Gülsüm arvad Hacının nəzirli gəlininə xidmət eləyərək Məşhəd ziyarətinə getmişdi. Arvada elə gəlmişdi ki, Məşhəd də Hüseynbala açıqlığı, Həmşəri palanı kimi bir yerdir, hamı bir-birini tanıyır. O elə Qasımın adını çəkən kimi, kişinin qohum-ağrabası, ata-anası, bacı-qardaşı… sağ qalan varsa… Hamısı qırılıb qurtarmayıb ki… Gəlib onu tapacaq, o da kişinin nə bəlayla öldüyünü xəbər verəcək, oxşayıb ağlaşacaqlar… Burda başa düşdü ki, Bakıdan həmin həvəslə nahaq yellənib gəlib. Qasımın yer-yurdun tanımır, qohum-ağrabasından heç kimin adını da bilmir. Bircə o ürəyinə fərəh gətirdi ki, ağası, onun kimi qəriblər, kimsəsizlər ağası qərib İmam Riza əleyhissəlamı ziyarət etdi, alnında yazılıbmış. Ağa onu istəyirmiş…

Hacının gəlini də ona ürək-dirək verirdi:
-Fikir eləmə, ağəz, noolsun ki, rəhmətlik ərüvün qohum-qərdeşini tapa bilmədin. Tanıyan olmadı. Şükür allaha, Bakıcağazımızda evin, eşiyin…

Evlər müdiri Kərim kişi bütün məhəllə adamının taleyindən xəbərdardı, Məşəd Gülsümün də. Bolşeviklər gələndən sonra Hacının nəyi vardısa, arabalarla daşıyıb aparmışdılar. Külfətinə hardasa pilləkənaltı bir mənzil vermişdilər. Məşəd Gülsüməsə Hacı Cəbrayılın mülkündəki həyət daxmalarından birini vermiş, qalan otaqlara o “ayağı yalın malaşariklər” doluşmuşdu. Arvadın pasport nə yadına düşürdü. Qasım sağlığında əli hər yerdən üzüldü. Yaxşı ki,

yaxınlıqda çox qoca, hay-hayı gedib, vay-vayı qalmış bir mamaça, ara həkimi vardı. Hələ cavan, kimsəsiz Məşəd Gülsümü yanına alıb bildiklərindən ona öyrədə-öyrədə, evlərə, zahı üstə aparmağa başladı. Bir tərəfdən gənc Məşəd Gülsüm bir övlad sədaqətiylə onun qulluğunda durur, o biri tərəfdən də elə Gülsümün özünün əli bir parça halal çörəyə çatdı. Qarıdan sonra onun yerini tutdu məhəllələrdə: Həmşəri palanında, Hüseynbala açıqlığında. Bəzən tanıyan-bilən məhəllələr Məşəd Gülsümü öz uzaq qohumlarının da, ərəmiyinin, bütövünün, çətin doğanının və ya övladı olmayan sonsuzluq qorxusu gözləyəninin üstünə aparırdı. Məşəd Gülsümün əli yüngül idi. Özü də rəhmətlik qoca türkəçarəçi mamaça müəllimindən çox şey öyrənmişdi. Bağlını molladan yaxşı açır, çillə kəsir, boğaz basır, yengəlik də eləyirdi. Amma az-az. Əsil işi mamaçalıq - əbəçilikdi. Bütün o məhəllə camahatının nənəsiydi. Dünyaya gəlmələrində anaya yardım etmiş “Ya Xızır İlyas, bəndəni bəndədən xəlas” deyib zahının vəziyyətini yüngülləşdirməyə çalışmış, balanın göbəyini kəsmiş, yuyundurub bələmişdi.

Allah Hafsanı ona göydən zənbillə sallamışdı. Əri qaçaqqovduda həlak olan Hafsa cavandı, Məşəd Gülsüm kimi ikinci dəfə nigaha girmədi, “Abırlı arvad bir kişiylə baş yastığa qoyar, Allah yazan talağı pozmaz” deyib istəyənlərə də getməmişdi. Mərhum əri İran vətəndaşıydı, elə Hafsa da “ev dəftərinə” iranlı - həmşəhri yazılmışdı. Oxşar taleli bu qadınlar tez dil tapıb birləşdilər, “İki başı bir yaxadan çıxardılar”, Hafsa Məşəd Gülsümün yanına köçüb “qazanı bir elədi”.

“Şura hökuməti” yerini bərkizən kimi ara həkimlərinə də qadağa qoyuldu. Amma Məşəd Gülsümü yaxşı tanıyanlar “doxtura, balniskiyə” getmir, nənəni çağırırdılar. Əlbəttə gizli, əlaltı. Beləliklə də Məşəd Gülsüm bu bir-birinə yovuq, az qala qarışıq məhəllələrin nənəsinə çevrildi.

“Quba meydanında”kı bazar dağılandan sonra Hüsenbala açıqlığından azacıq yuxarı, dağlılardan, “həmşəri”lərdən inək saxlayıb süd satanlara məxsus tövlələrin aşağısında yeni “Qubinka” meydana gəldi. NEP-in dükanları, ayaqüstü ticarət bu yerləri bir az da canlandırdı. Məşəd Gülsümün də mazılarçün ədviyyat, ot-ələf aldırdığı əttar dükanı da Çadrovı küçəsinin ayağından başına - “Sombala açıqlığı”nın üst tərəfinə köçdü. Arvad bu ədvaları alır, döyür, yumru mazılar düzəldir, onları bir müddət “Xələfi nöyüt”də yatırdır, sonra da soyuqlamış, uşaqdan qalmış və daha çox övladı olmayan, bala həsrətilə qapısının dabanını çıxardan gəlinlərə verirdi. Çox vaxt müalicəsi uğurla başa gəldiyindən hamı ona inanır, sevirdi. Kişili-arvadlı hamının nənəsiydi Məşəd Gülsüm arvad…

-Bu gecə kişi özü çağırtdırmışdı məni.
-Səninçün də o, kişi olub? Kişidi o dördgöz?
-Neynim, ara? Dilimiz öyrəşib də. Hamı necə, biz də elə. Demərük, ona da bir qulp qoyarlar.
-Hə, nə deyirdi?
-Deyirdi ki, gecə yarısı Beriya danışıb onuynan, bir dəstə əsgər (erməni-urus qarışıq ancaq) əsgər keçirdiləcək o üzə. Çalışmaq lazımdır ki, elə keçə bilsinlər ki, ruhları da inciməsin o taydakıların.
-Əşi, sən nə danışırsan, əsgər hələ göz qabağında olan şeydi. Bu saatdaca bu həmşərilərin içində elə xəfiyyələr keçir o üzə, elə Xarici İşlər Nazirliyinin neçə illərdən bəri türk dili öyrətdiyi, türk dili dərsi keçmiş zabitlər, dünyada öldürəsən əgər həmşəridən seçəsən, basır o üzə özüyçün.
-Hə də! Stalinin qayğısı bu saat İrana, ümumiyyətlə, cənub sərhədlərinə adam yığmaqdı, özününküləri yığmaqdı. Görmürsən başı küllü Şah nə hoqqa çıxardır özündən? Almanlara bir üz verib ki, az qala saraya da soxulublar hamısı.
-Hə, balam. Alman xəfiyyələri çoxdan orda yer eləyiblər özlərinə. Kəşfiyyat, əkskəşfiyyat güclüdü Almanlarda.

-Bu taydan da nigaran qalma. Yaxşı keçir həmşərilərin içində. Əla keçirdirik, gedirlər. Dalından dəyəcəklər almanların ordan. Stalin haqlıdı beləsinə baxanda. Görmürsən Hitlerin səsi, Hitlerin hayqırtısı az qala Antarktikadan gəlir? Avropanın o cücə-mücə hökmdarlarını bir-birinin dalıycan udur.
-Hə, balam, lap timsah cücə udan kimi udur.
-Nəysə. İşimiz yaxşıdı. Bizim özümüzə də elə İrana nə qədər bacarsaq, çoxlu erməni keçirtmək sərfdi. Ehtiyatlı olmaq lazımdı.
-Nə qədər keçirdəcəyik o üzə?
-Var da, plan verilib, deyiləcək. Çalışmaq lazımdı ki, özümüzkülərdən, inanılmışlardan daha çox olsun.
-Özümüzkülərdən arxayınam. İnanılmayanı yoxdu. Ruslara diqqət eləmək lazımdı.
-Deyir elə əmr də belə gəlib ki, ancaq ruslardan və ermənilərdən ibarət olan ordu hissəsi keçirdilsin 21-ci il müqaviləsi əsasında.
-Ə, bu açkarik qoysa, keçirdiləcək.
-Hə, nə qələt eliyəcək e, ordan, Mikoyan ordadı. Burda nə qələt eliyəcək?
-Yoox, demə. Onun da orda təsiri az döyül. Yaxşı başa salmaq qabiliyyəti də var.

Doğrudan da əmr belə gəlmişdi. Yalnız rus və erməni əsgərlərindən ibarət dəstələr göndərilsin Cənuba. Lakin Mərkəzi Komitə, Mircəfər Bağırov bu fikirlə razılaşmırdı. Burda o, təkcə öz əhalisinin, millətinin, adamlarının mənafeyini güdmürdü. Onun da deyəcəyi bu idi ki... və belə də demişdi:
-İosif Vissarionoviç, burdakı Azərbaycan türkləri ordakı İrandakıların dilini yaxşı bilir, bir millətdi. Siyasətimizin həyata keçirilməsində bunun böyük əhəmiyyəti olacaq.

Və Stalin bununla razılaşmışdı. Ağıllı söz deyilmişdi ona. Sərfəli söz deyilmişdi.

Hafza başı alovlu içəri girdi. Bərk həyəcanlı idi, amma buna baxmayaraq yavaş səslə dedi:
-Məşədi bacı, nahaq yerə getməmisən dünən, əlindən çıxartmısan o cürə xələti-baratı, xonçanı, pulu-paranı.
-Necə bəyəm?
-Necəsi var? Qız çıxıb ey, Müşərrəf, Müşərrəf qız çıxıb, yengənin, dərnənin gözünün qabağında. Bir bayram eləyirlər, gəl görəsən.

Məşədi Gülsümün əli üzündə qaldı.
-Ay Hafza, bəs onda sənin elə özcəciyəzinin yanında anası gəlib mənə yalvar-yaxar eləmədi, demədi ki, bir döşəkağını ləkələyib-eləyək barmaq qanıynan-zadnan, atarsan ortaya, o birisini gizlədərsən? Bəyəm bu sənin gözünün qabağında olmadı? Nöş gəlib arvad öz qızına qara yaxırdı?
-Nə bilim, vallah, mən də elə əlim üzümdə qalmışam. Bilmirəm, ay Məşədi, bu nə olan qəziyyədi.
-Yooox, yengəlik döyül, onun əlindən - o yengənin əlindən elə iş gəlməz. Əvvəla saf adamdı, pak adamdı, eləməz dünyada nahamvar iş. Sonra da qorxacaqdı, əlindən iş gələn döyül. Onu gərək bir az cəld, bacarıqlı adam eləyə elə şeyi ki, gözdən yayındıra. Söz də ki, çıxmışdı əvvəldən.
-Nə deyim vallah, yengəlik olmayanda, bəs onda nədi?
-Qızım, eşitməmisən bəs ki, o iki ev bizdən aşağı təzə həkim gəlib ey…
-Vahabı deyirsən?
-Hə də, doktor Vahabı. Deyir, elə tikir ki, anadangəlmə. Heç doğma anasının da xəbəri olmaz, başıçıxmaz.
-Buy Allah, sən saxla… Buy Allah, sən saxla. Nə zəmanəyə gəldik çıxdıq, Rəbbim, nə zəmanəyə gəldik? Göydən od yağmırsa, özü də böyük şeydi. Belə də söz olar? Bəs deyirlər, guya o, arvad həkimidi, doğmayan arvadları müalicə eləyir.

-Hə, deyir Məskoda oxuyub, təzə gəlibmiş Məskodan. Orda qurtarıb həkimligi, arvad həkimligin. İndi əlindən, deyirlər, bu da gəlir, babal boyunlarına deyənlərin, guya bunu da bacarır. Elə eləyir ki, heç kəsin ruhu incimir. Nə şiş yanır, nə kabab.
-Allah sən saxla. Amma ay Məşədi, bir də kim bilir, bəlkə anası elə ehtiyatlanıbmış qızın sırtıqlığından bir az. Yoxsa elə əl dəyən döyülmüş?
-Nə bilim, vallah?
-Deyirəm, yaxşı yerə getmədin. Eylə pul-para, xələt-barat çıxdı əlindən.
-Cəhənnəm olsun onların hamısı, Hafza. Özün başa düşmürsən? Ağbirçək vaxtımda gücnən millətin içində, beylə məhəllələrdə nənə adı qazanmışam, hörmət qazanmışam, yəni bir xələtdən-baratdan ötəri vuraydım yerə? Heç elə şey olar? Mən yalan deyə bilmərəm. Hər halda, olan olub da, Allaha pənah, Allah bilən məsləhətdi. Daha doğrusu, necə deyərlər, Allah bilir yaxşısını.

Hafza bir qədər fikrə daldı. Sonra Məşədi Gülsümün:
-Sözdü adama oxşayırsan, nə fikrin var idi, ay bala, nə dərdin var?

Hafza doğrudan da sözlü-sözlü başladı:
-Məşədi bacı, şəhər yaman qurtda-qurtdadı, məhəllə də elə. Nəsə bu iranlıları, deyəsən, tərpədəcəklər. Deyir, başbilit dəyişmək lazımdı, mən nə bilim…
-Ay qız…
-Yox, Məşədi bacı, ay qız döyül. Başbilitün var sənün?
-Ay bala, məndə başbilit nə gəzir? Dədəmin başbilitinə o vaxtı yazılmışammış, uşaq vaxtı, gələndə, nə bilim, bura məni gətirəndə. Soradan day heç alıb-eliyən də, deyəsən, olmadı, gərək olmadı.
-Mənim də yoxdu, Məşədi bacı, mənim də başbilitim yoxdu. Amma yaman qorxuram. Qorxuram ki, Allah eləməmiş kimi, doğrudan tərpədələr iranlıları. Necə olluq görəsən?
-Az, dəli olma, bala, biziynən nə işləri var? Kişi xaylağı döyülük, əsgər gedəsi döyülük, bizdən başbilit istəyələr, yol adamı döyülük, qoca qarıyam mən, sən də elə məndən bir az o yanasan.
-Yox, demə, bu hökümətdən nə desən çıxar. Görmürsən «çadra daloy» eliyib arvadların hamısını çıxartdı meydana. O günləri bir molla bacı, keçmişin molla bacısı təzə geyimdə; bu arvadlar geyinən kimi, qısa tumanlar kimi baldırları par-par parıldayır. Küçənin tinində dayanıb, əlində balaca güzgü, üzünə baxır. Vallah, yalan deyə bilmərəm, bilmədim ənlik-kirşan sürtürdü, ya gözünə nə düşmüşdüsə, ona baxırdı. Hər nə idi, amma dörd bir tərəfdən elə o yanlardan kişilərdi, ötən baxır, keçən baxır. Yaşlılar başını bulayır, cavanlar hırıldayır.
-Sən o molla bacıya baxma, özündən muğayat ol. Hər bir insan özü qoruyur öz namusunu, qızım! «Çadra daloy» olanda nə olar?
-Yox, Məşədi bacı, demə. Kişilərin başından papağı, qeyrəti götürdülər, arvadların başından çarşabı, örpəyi götürdülər, hörməti, həyanı-abırı götürdülər, bacı. Mən bu hökumətdən nə desən, gözləyərəm.

Məşədi Gülsüm təşvişlə qapıya tərəf baxdı.
-Bir az yavaş danış, eşidən olar.
-Eşitsinlər də… Sorağım sürgünlərdən gələcək? Heç bir burdan o yana, ya sürgünə göndərsinlər, ya o yana göndərsinlər, o taya göndərsinlər, mənimçün heç təfavütü yoxdu. O tay da mənimçün sürgündü. Kimim var orda, kimsənəm var orda, Allah bilir.

Arvadı hıçqırıq tutdu, ağlamağa başladı. Məşədi Gülsüm də kövrəlmişdi.
-Bala, bəsdi. İndidən hələ nə ………, nə günorta. Ay başuva dönüm, indidən öz ürəyivi üzmə. Bəlkə helə sözdü, quramadı? Deyirlər, heç belə şey olan döyül. Bir də olsa-olsa, yəqin irilərnən, kişilərnən, cahıllarnan işləri olar, sənnik-mənnik olmaz. Deyirəm ki, çaya çatmamış, deyərlər, çırmanma. Sil gözüvün yaşını, işində-gücündə ol.

Hafza hıçqırığını saxladı.
-Düz deyirsən, ay Məşədi bacı, - deyə çarqatının ucuynan gözünün yaşını qurulayıb yerindən qalxdı, - Durum ayağa, gedim. Məşəd Ziba arvad məni paltar yumağa çağırıb, qoca arvaddı da, gedim, yuyum paltarını. Genə qəpikdən-quruşdan nə verər, verər, bir tikə çörək puludu. Verməz də, qoca arvaddı, elə bilərəm anamçün gedib yumuşam. Allah özü yazsın xeyirə.

Bu sözləri dedi Hafza, bayaqdan sıyrılıb çiyninə, ordan da döşəkçənin üstünə düşmüş çadrasını götürdü, kəlağayısını düzəltdi, çadrasına bürünüb həyəti tərk etdi. O getdi, amma dərd Məşədi Gülsümlə qaldı. Arvadı fikir götürmüşdü:
- Hafza düz deyir… Hafza düz deyir, bu hökumətdən nə desən, çıxar. Kişilərin qeyrətini, arvadların hörmətini, həyasını verib uşaq-muşaq əlinə. Bir də görürsən, bayramqabağı, hansı bayramdı, bilmirəm adını da heç, doluşurlar o palutruk maşınlara, başlayırlar küçələri gedə-gedə mollanı ələ salmağa, dövlətlini ələ salmağa. Burcuy deyirlər, nə bilim, nə deyirlər. Kişiləri bir cilddə göstərirlər ki, küçələrdə, adamın ürəyi ağzına gəlir. Mollaları, dövlətliləri bir cilddə… Çəkdilər arabaları, mallarını daşıdılar dövlətlilərin, apardılar, olmadı. Mollaların əlindən Quranını aldılar, olmadı. O günləri gəlib məni zahı üstünə aparmışdılar. Yolum düşmüşdü o urus kilsəsinin, qızıllı kilsənin böyründən. Kilsəni sökürdülər. Kilsə olanda, nə olar, Allahın evidi. Baxdım, ağlamaq tutdu məni. Gördüm urus matışkaları, qoca arvadlar ətəklərinə daş doldurublar, bir-bir atırlar sökənlərin, fəhlələrin harası gəldi, onlara. Deyirəm, ay bədbaxt arvadlar, o yazıqlar neynəsin? Balıq başdan iylənər. Əmr başdan gəlibdi. O yazıqlar sökürlər, bəyəm öz xoşuna sökürlər? Dedilər, yerində guya məktəb tikəcəklər. Ancaq vallah, mən ha fikir verdim, gördüm ki, sökürlər, bütöv bir daş çıxmır, elə qəlpə-qəlpə qopur. Ondan nə tikəcəklər, deyə bilmərəm. Nə isə, namazın vaxtı keçir, gedim dəstəmaz alım, ibadətimi eliyim, Allaha borcumu verim, dua eliyim bütün təmənnasızlara, bütün köməksizlərə. İlahi, İlahi, yardımçı ol, İlahi! Yiyəsizlərə yardımçı ol, İlahi! Günahsızlara yardımçı ol, İlahi, özün kömək ol!

Arvad namazı qurtardı, ağ çadranı başından açdı, namaz çarşabını bükdü, canamazı da bükdü. Hamısını boxçaya bağlayıb, taxçaya qoydu. Ağzı Fatimeyi-Zəhra zikri deyə-deyə həyətə çıxdı. Həyət-bacanı süpürmək Hafzanın işi olsa da, bu gün o, Məşədi Ziba arvadın paltarlarını yuyacaq deyə, tez getmişdi. Məşədi Gülsüm onun gəlməyini gözləmədi. Süpürgəni götürüb, həyəti süpürdü, suladı. Suladı deyəndə ki, məhəllənin o biri başından vedrədə gətirilən sudan bir qədər aftafaya töküb həyətə çilədi. Bu yerlərdə quyular vardı vaxtilə. İndi axır vaxtlarda bir-bir həyətləri gəzib, quyuları da bağlamışdılar.
-Sizinçün fontan qoymuşuq, sizinçün təmiz su gətirmişik. Şollar suyundan vaxtilə ağalar içirdi, ancaq indi sizinçün də qoyumuşuq bu qurnalardan. Qurdlu quyu sularını içməyin, azarlayarsız.

Bunu deyib quyuları bağlatdırmışdılar. Amma əslində quyu suyu uzun illər idi ki, Bakının canıydı. Hərə öz həyətində bu sudan vedrəynən çəkir, təsərrüfat işlərində işlədirdi. Təsərrüfat deyəndə ki, elə öyrəşmişdilər, çaya da, xörəyə də bu quyu suyundan işlədirdilər. Şirin idi, bal kimi, daşdan sızıb gələn sular idi quyu suları. Bu quyular ehtiyat ət saxlamaqçün, yağ saxlamaqçün də əməlli-başlı yer görürdü, iş görürdü. Camaat öz meyvəsini, qarpızı, əti, yağı bu quyuya sallayırdı. Buz kimi qalırdı, xarab-zad olmurdu. İndi bu da əldən çıxmışdı. Ona görə camaat hər xörək yeməmişdən qabaq mağazaya, dükana qaçmağa məcbur olmuşdu. Yağı qramnan - 200 qram, 100 qram alırdılar. Qalanda yamyaşıl qalır, xarab olurdu.

Arvad gözucu ağzı bağlanmış quyuya tərəf baxdı.
-Deyilənə görə gəlib bunu da üstündəki taxta dəmirini söküb yernən-yeksan eləyəcəkdilər.

Elədi, bağlayacaqdılar quyunu tamamilə. İndi hələlik qıfılnan bağlamışdılar. Arvad dərindən bir ah çəkdi.

-İlahi, nə işiniz vardı suynan, ay Allah saxlamışlar, - dilinə "Allah yox eləmişlər" gəlmirdi, - ay Allah saxlamışlar, uzun illər dədə-babalırımız elə bu quyudan su içmişdi. Nöş bizi məcbur elədiz burdan eeey, məhəllənin o başına get, oçıra dayan, növbəyə dur, bir göy qəpik-manat tapginən; apar, ver, vedrəni suynan doldur. Bilmirsən çarşabının ətəyini tutasan, çarşabının ucunu tutasan, ya vedrəni. Çarpalaya-çarpalaya, üstünü islada-islada gətir həyətə, ehtiyatnan istifadə elə bu qanı qiymətinə gələn sudan, ehtiyatnan. Hovuzlar da bağlandı. Gərək ki, adam qab yuyanda məşğul ola, biri aftayfaya doldurulmuş suyu tökə, o birisi də qabı yuya. Nə günə qoydular bizi, Allah, nə günə qoydular? Görəsən day nəyimiz əlimizdən alınacaq?

Həyətə bir küy düşdü. Məhəllənin o başında - «Sonbala» açıqlığının o başından mərəkə gəlib çıxdı bu həyətə. Hamı - bütün küçənin adamları, məhəllənin adamları dalanın ağzına, ora-bura, künc-bucağa doluşub baxırdılar. Meşin pencəklilərin biri, bir də bir milsəner, yanlarında da həmin məhəllənin milis müvəkkili Zelyonkin, çağırdılar Hafza bədbaxtı, bir də Məşəd Gülsüm nənəni:
-Arvad, başbiletini ver.
-Arvad, pasportunu ver.

Yoxlamaya gələnlərin başçısı qayım səslə soruşdu:
-Nooldu, nə tərpənmirsən?
-Nə tərpənim, ay bala? - Yaşmağın altından Hafza dilləndi, - başbiletim yoxdu.
-Nöş yoxdu? Şura hökumətini bəyənmirsən, pasportunu da almamısan?

Məşəd Gülsüm arvad Hafzadan əvvəl dilləndi:
-Şura hökumətinə mənim canım da qurbandı. Bala, bu gün-sabahlığam, pasportu neynirəm? Heç ağlıma da gəlməyib.
-Bəsdi, qarı. Ağlın var idi ki, gəleydi?

Adamlar qoca nənənin təhqirindən pərt olmuşdular. Kim isə dilləndi:
-Qoca arvadla elə danışma...
-Kimdi o?

Səs verən olmadı. Yığılanlar dillənənin qabağını kəsmişdilər.
-Hindi də hökumətin əmrinə baxmayacaqsız?

37-ci il dillənirdi və daha heç kəsin həniri çıxmırdı. Bəzi aralı qonşular yavaş-yavaş dağılışmağa üz qoydu. Heç kəs girə keçmək istəmirdi.

O biri tərəfdə Hüseynalını əhatə etmişdilər. O, ağlayır, qonşu kişilərsə danlayırdılar:
-A kişi, nə özünü öldürürsən? Köhnə vətənindi də. Get deyirlər, get. Nə görmüsən bu kafiristanda? Orda heç olmasa, Allahına Allah deyəcəksən, bəndənə bəndə.
-Həri də, yaxşı deyirsən. Gedən kimi ora, acanlar gündə gəlib qatıb qabaqlarına aparacaqlar sorğuya. NKVD hansı tapşırığnan göndərib səni? Tap görüm, nə cavab verəcəksən.
-Bir söz tapıb deyərsən.
-Heç nəyə inanan döyürlər. Yaxşı tanıyıram onları. Bəyəm indikidi?
-Genə yaxşıdı, səninki bir az gətirdi. O qara günnər - o Baxış kişi, o Qasımalı viranə qaldılar çöllərdə. Sən yaxşı çıxdın ortadan.

-Çarəm nə idi? Gərək bir iş göreydim, tuteydi. Bir müddət getdim qaldım kənddə - arvadın qohumlarında. Ütü soyuyandan sonra qayıtdım gəldim. Sən demə bəla ara vermirmiş. Getdim təzdənnən müdirimizin yanına. Bir söyünüb məni qəbul elədilər təzdənnən işə ki...
-Söyünər də... Sənin kimi işçidən kim keçər?

Bir neçə həmşərini maşina mindirib apardılar. Adamlar dağılmamışdı. Hələ sürgün olunmamış cavan iranlılardan biri başqa mövzuya keçmişdi. Bu yaxınlarda vəfat edən atasından danışırdı.

-Amma qaragün dədəm, öləndə heç oranı yadından çıxartmamışdı. Öləndə də deyirdi ki, bax, evimiz beləydi, o tərəfindən soyuq bulaq axırdı, bu tərəfindən isti bulaq gəlirdi. Yerbəyer elə danışmışdı ki, mənə elə gəlirdi ki, kəndə getsəm, o taya keçsəm, gözüyumulu taparam kəndin yolunu. O yan qürbət - bu yan qırbət, o yan vətən - bu yan vətən. İçindən çıxa bilmirik ki, bilmirik.
-Orası elədi. Yazıq kişi, ölüm ayağında da dədəsin çağırdı, nənəsin çağırdı, Ağa dedi, böyük qardaşın çağırdı. Bircə nəfəri də unutmamışdı, yerbə-yerində, uşaqlığından bu taya keçənəcək, hamısını demişdi.

Bir başqası sözə qarışdı:
-Elə əvvəldən taleyimiz belə gətirdi. İş dalıycan ya İstanbula - Türkiyəyə, ya bura. Buraya da o nöyüt çıxmağa başlayandan sonra axın başladı. Elə oldu ki, gəlinlər ərlərini ay nədi, illərnən görmürdülər. Bir gün - bir gecə vaxt tapıb o taya keçəndə, gəlinlərə böhtan deyilməsin deyə (bircə gecə qala bilirdi, artıq qala bilmirdi ki, yəni), onda da öyün üstünə qırmızı fitə sərirdilər. Bilinsin ki, bu evdə kişi olub, evin kişisi bu gecə evdə olub, gəlib bura. Yoxsa bir qədər keçəndən sonra gəlin hamilə qalanda, az qala daşqalaq elərdilər. Belə gətirib taleyimiz əvvəldən, bu da ki, axırı.
-Axırıdı bəyəm?
-Məgər burda sərhədi ölüm-zülüm qaçıb-keçib, dönüb qayıdıb gələnlər səndən ağ gündədi?
-Yox ey, bir başa düşginən. Burdan qovulanda həmşəri idilər. Ordan qovulanda mühacir şurəvi idilər. İndi də burda gəlib olublar pənahəndə. Vətəniin içində pənahəndə. Burda doğulub-böyümüş, burda dərs almış, əmraziyə çatmış, beş ilin-altı ilin böhtanına düşüb o tayda qalanlar qayıdıb gələndə daha vətəndaş döyüllər, pənahəndədilər.
-Bir işə bax, sən Allah. Bir torpağın övladlarına, bir yurdun-yuvanın balalarına, bir vətənin övladlarına qoyulan ada bax - həmşəri, şurəvi, mühacir pənahəndə. Yazıq pənahəndələrin başına nələr gəldi.

Aaaa… Ağəz, sən bilən kim xəbər verdi bu bədbaxt qızının başbilidi olmadığın o qarageymişlərə?
-Yəqin upravdom... Axı gəlib olardan xəbər alıllar kimin başbilidi var, kim propisqadu nədü…

Söhbətləşənlərin heç birisi bu ehtimala inanmadı, ağzını nırçıldadan da oldu.
-Yooox, mən dünyada inanmaram ki, Kərim kişi bu nakişiliyi eləsün, bevarisənin birini versin güdaza…
-Qorxunu bil…

Sözünü kəsdilər:
-Nora köpək qızının işidü.
-Həri, ya odu, ya Zilonni…
-Yooox, Zilonni Hafsanı tanımazdı… O elə Nora əclafdı… Keçən il nə qədər adamı bədbaxt elədi? Fələyin qəmi də yalan oldu bu ləçərin əlindən. Bütün məhəlləyə meydan oxuyurdu. Bircə-bircə dənnətdirdi məhəllənin başbilənini, gözə görünənini…
-Elədi. Kim pişiyinə piş, toyuğuna kiş demişdisə…

-Kim tərəfinə yampörtü baxmışdısa…
-Sağ Əbi götürüb qaçıb gətirib məhəllənin boğazına salmayaydı diri gözlü bu gürzə ilanı…
-Heç nə pis, nə kiş… Düşmançılıq canındadı… Mart davası yaddarından çıxmayıb onların, bizik əməzik…
-Heç boynuna alır?
-Aşkarda atar boynunnan…
-Allah özü divanın eləsin…
-Yavaş olun axı… Küçədi… Divarların da, pəncərələrin də qulağı var…
-Yaxşı, bes bu bədbəxti kim irahlayıb axirət evinə göndərəcəy?
-Elə hamılıqcan… Bir də ki, Ruzgar bacı götürüb öz öhdəsinə, indi həyətlərində sahmana salıb həkim gəlib baxandan, kağız verəndən soora, özü yuyub kəfənləyəcək. Bayaq uşağı göndərib meçid arvadınnan sitir-kafir də aldırdı.
-Allah ölənlərinə rəhmət eləsün.
-Yəni o yazıqda yuyulmalı can qalıb ki? Deyir tramvayçı əvvəl başa düşməyib ki, Hafsa arvad yolun üstündə niyə durub. Hey elə izvanoku basıb, elə çata-çatmayada setkəsin basıb salıb, amma day iş işdən keçibmiş. Elə tez uzanıb yerə ki… setkə onu xeylağ sürüyüb, parça-tikədü bedbaxt arvad…
-Ay arvadlar, gəlün biz də gedek, bəlkəm bir işə gərək olduq, əl suyundan zaddan…
-Deyir Meşədxanım arvad bu gün su aparanlardan pul almır, deyib ehsan verirəm, nə qədər istəyirsiz aparın Hafsanın ehsanına.
-Sən Allah? Gedim vedrələri doldurum…

Hərə bir işə yollandı, arvadların bir neçəsi darvazadan səslənib vedrə aldı və Meşədxanımın su butqasından vedrəni doldurub Hafsanın cənazəsi yuyulmalı olan həyətə üz tutdu…

…Orda xeyli qarğaşalıq vardı, həkim və milis dəfnə icazə vermişdi. Ruzgar xala həyətdəki iri taxtanın üzərinə uzadılmış cənazəyə baxa-baxa dua oxuyur, arabir ağı da deyirdi.

Fələyin qəhri sənə,
Gəlmədi rəhmi sənə,
Doldurdu qəm piyaləsin
İçirtdi zəhri sənə…

-Ay ata-anasız, qohum-ağrabasız, oğulsuz-qızsız, ay bevarisasız bədbaxt… Tanıyıb bilmədiyin, kimin-kimsən olmayan yerlərə sürülməkdən ölümü yey bildin… Allah bilən məsləhətdi. Düzdü deyirlər ki, öz canına qəsd eləyənin yeri cəhənnəmdi… Amma bəyəm burda sən cənnətdəydin?

Sonra qonşu arvadların köməyilə kəsməkdə olduğu kəfən ağını yerə qoyub üzünü göylərə tutdu:
-İlahi və rəbbi! Sən özün rəhm elə bu biçarəyə…

Sonra ucadan bir fatihə verib, fatihə və ixlas dualarını oxumağa başladı. Arvadlar da qorxa-qorxa ürəklərində surələri oxuyur və böyük bir ehtiramla Ruzgar haqqında düşünürdülər:
-Vallah rəhmətlik arvaddı; bir kişi yaxın qoymazdı, o yiyə durdu Hafsanın ölüsünə… O Nora zibil bunu da qələmə verməsə yaxşıdı…

Ruzgar xanımsa yumağa başladığı cənazənin tramvay altında cırım-şırım olmuş paltarlarını soyundura-soyundura deyirdi. Yox, demir, ölən balasını oxşayan ana kimi nalə çəkirdi:
-Bir bax sən Allah… Ay böyük Yaradan, tramvay altında parçalananda ağca ətini naməhrəm kişilər görməsin deyin, gör bir qaytanla alt şalvarının ətəyini, belini, köynəyinin qollarının

ağzını qaytanla necə sarıb-sarmalayıb. Ay yeri-göyü yaradan Tanrı! Hayanı, abırı o ölüm ayağında da yadından çıxartmayıb… Balam vay, qızım vay, bacım vay hey…

O məşum 37-ci ildən cəmi bircə il… 38 idi il… Hamının ürəyində qorxu elə yuva eləmişdi ki!..

Kimsə dilləndi:
-Vallah bu qarabaxt, qaragünlü, şəhid kimi kəfənsiz basdırıla gərək…
-Heç qoyar arvad? Ruzgarı deyirəm ey...
-Başa düşürəm.

Həyətə başına döyüb ağı deyən Gülsüm nənə girdi:
-Gəl, gəl, ay Meşədi. Gəl gör nə usul biçib özünə.
-Axşamdan elə deyirdi... Hara gedim, necolum?

Nora dolu zənbillə həyətə girəndə heç kəs onun salamını almadı. Təkcə Xumar arvad deyindi:
-Genə baxça uşaqlarının boğazından kəsib zəhərlənməyə gətirir ətdən, yağdan.

Dayanıb Hafzanın yuyulmasına tamaşa etmək istəyən Noraya Xumar acıqlandı:
-Keç get, burda sənnik bir şey yoxdu. Get gətirdiyin oğurluqdan ye-iç, keyfüvi elə.

Nora çımxırdı:
-Oğru özünsən. Zəhər də sənə olsun.

Dua oxuya-oxuya cənazəni yumaqda olan Ruzgar xanım Meşədi Gülsümün əlinə su tökə-tökə dilləndi:
-Bəsdirün. Fağırın ölümünüsə dinc qoyun.

---

*Mənbə: AZERİ.org, 2003*
*Veb üçün hazırlayanlar: Arzu Ağayeva, Gülnar Aydəmirova*
*Veb master: Ülviyyə Məmmədova*

*XƏZƏRİN GÖZ YAŞLARI*
*ƏZİZƏ CƏFƏRZADƏ*
*BAKI – 2002*

*Tears of the Caspian*
*by Aziza Jafarzade*
*Baku – 2002*




*Mənbə: AZERİ.org, 2003*
*Veb üçün hazırlayanlar: Arzu Ağayeva, Gülnar Aydəmirova*
*Veb master: Ülviyyə Məmmədova*



# *XƏZƏRİN GÖZ YAŞLARI*
## *ƏZİZƏ CƏFƏRZADƏ*

Nora daxili bir çəkingənliklə həyətin başına tərəf gedib açarı qapının açar yerinə saldı. Ürəyində kinlə düşünür, dişlərini qıcırdadırdı: «Sizin də vaxtuz gələcək, it qızları, it kimi hürə-hürə qalacaqsız»
Günorta üstü qonşu kişilər həyətə gəlib kəfənə tutulub, palaza büründürülmüş Hafzanı qəbristana götürdülər. Heç kim danışmırdı; dinmirdi. Bir-birinin üzünə də baxa bilmirdilər. Elə bil hamı daxilində özünü suçlu hesab edirdi.

Hafzanın sürgünü ölümə tərcih etməsi millətin üsyanıydı.

-Əəəəə, əəəə Səfər, qaç Ağanisə xalagilə xəbər elə, Sübhan əmini də, Baxışı da apardılar. Helə indicə dağlılardan çörək alıb gələndə öz gözümnən gördüm Həmşəri palanında ikisini də mindirdilər palutrukə… Tez ol, denən qoy özdərini çatdırsınnar körpüyə, bəlkəm Allah irasta saldı kişiləriynən bir gəmiyə düşdülər…

Qapıbir Ağanisəylə qonşu olan bir Süneyvaz əlindəki, indicə neyt alıb gətirdiyi bidonu yerə qoyub arvadın sözünü kəsdi:
-Səfər, getmə, bala…

-Nöşün?
-Ay arvad, insafın olsun, yazıqların gəlini kürsü üstədi, bir az əvvəl apardılar Meşəd Gülsüm nənəni, indi doğar, bi saat doğar… Yazıq gəlin…
-Bıy sən Allah? Vallah bilməmişəm. Amma gərəy birimiz heç olmasa, gəlinnən gizlin, Ağanisə arvadın özünə pıçıldayaq… Axşam düşür, işdən gələn vaxtıdı kişilərin; heç olmasa bilər, axtarmaz…
-Düz deyirsən, bacı. Mən özüm elə indicə evə gedirəm, arvadı xəlvətdəyib deyərəm. Yoxsa Balobbanın qızı kimi zahı yazıq qəfil eşidər, canın tapşırar.

Arvadların səsini kişilərin hay-həşiri it-bat elədi. Biri o birini bu günlərdə tez-tez baş verən hadisələrdən xəbərdar edirdi:
-Alə, Sombala, Sombala, sənün həmxonovu da apardılar…

-Eşitmişəm… Deyir bayaq Həmşəri palanında o şoğərib yük maşını polkürükdü nədü, onnan ikisi dayanmışmış. Elə əllərinə keçən həmşəriləri sorğu-sualsız basıllarmış maşınnara…
-Pes başbilit…
-Hardan tanıyıllar, neçə bilillər ki, otaylıdı?
-İt kimi iy bilir köpəy uşağı…

Kim isə yandan həyəcanla, amma yavaşca xısıldadı:
-Yavaş alə, eşidəllər, xosumvay olarsan…

-Cəhənnəmə ki… Qaradan artıq rəng olmaz, belə yaşamaqdansa, ölmək məsləhətdi…
-Ölməyə nə var ki? Amma elə də günə salallar ki, ölüm onun yanında toy-bayram olar…
-Həri, balam, tuta-tut yaddan çıxıb?

Körpüyə çatan kimi Ağanisəni saxladılar.
-Neyşə, başuva dönüm? Mən əliuşaqlıyam, görürsən ki, üçünün birdən əlində qalmışam. Kişi yox, böyüklər yox, qohum-əqrəbam yox. İki əl, bir təpəyəm.
-Elə ona görə də dayan. Adın nədi?
-Ağanisə.
-Hə, elə sən lazımsan, dayan, sənə deyiləsi söz var.

Dəstədən Ağanisəylə oğlunu ayırıb gömrükxananın bir küncündə, divar dibində oturtdular, əşyalarını da yanlarına qoydular. Nəzarətçi Məmmədbağıra su adıynan güclü işlətmə dərmanı içirdib, əlinə bir «balış konfet» verdi. Uşaq sevinclə, bacıları baxa-baxa konfeti ağzına soxdu. Ana narahat idi nədənsə. O, əl boxçasından bir parça çörək çıxardıb üç böldü. Hərəsini uşaqların birinə verdi.
-Yeyin başuvuza dönüm, yeyin. Allah bilir bu allahsızlar bizi nə vaxtacan vaxt uzadı burda çürüdəcəklər. Allah kəssin buları.
-Arvad, hey, ağzuvu dağıtma ha!
-Nə deyirəm sizə, ay allahsızlar, nə deyirəm ki? Görmürsüz xırda uşaqlar əlində çaşıb qalmışam? Day bundan o yanası yoxdu ki. Evim dağılıb, qutarıb gedib.

Azacıq çörəkdən yeyəndən sonra birdən Məmmədbağır əlini qarnına tərəf apardı.
-Nənə, mən zaxota getmək istəyirəm… Nənə, mən ayaqyoluna getmək istiyirəm.

Ana oğlunu ovundurmağa çalışdı:
-Kəs səsüvü bala, bir az özüvü saxla, qoy gəmiyə minək, onnan sora, hə, hə. Onnan sora gedərsən.
-Mən indi istiyirəm… Mən indi… indi istiyirəm.

Arvad təşviş içində nə edəcəyini bilmir, uşağı necə ovunduracağını heç cür kəsdirə bilmirdi.
-Nə istəyir səndən o uşaq, ay arvad, niyə vermisən?
-Heç nə, ay bala, heç nə. Nə istəyəcək məndən? Çörək istədi, verdim.
-Yox, ayrı istədiyi də var da, biz bilirik.

Məmmədbağır bir az da dözüb yenə arvadın qulağına pıçıltı ilə pıçıldadı:
-Nənə, ora getmək istiyirəm. Vallah, saxlaya bilmirəm özümü, ora getmək istiyirəm.

Ağanisə nə edəcəyini bilmirdi. Hey uşağı dilə tuturdu, amma oğlan dözə bilmirdi.

Azacıq aralıda nəzarətçi ilə rəis arasında yavaş bir söhbət gedirdi.
-Deyəsən elə bunlardı. Düz xəbər verib.

-Düz olmağına, düzdü. Mən də bayaqdan göz qoymuşam. Görmürsən arvad uşağı necə dilə tutur? Uşaq tualetə getmək istəyir, arvad qoymur. Dilə tutur ki, qoy gəmiyə çıxaq. Gömrügü keçmək istəyir. Qoymaq olmaz.

Birdən nəzarətçi Ağanisənin üstünə qışqırdı:
-Ay arvad!
-Nədi, qadoyi alım?
-Qada özüvə qalsın. Uşağı niyə incidirsən? Görmürsən tualetə getmək istəyir?
-Tualet nədi, ay bala?
-Ayaqyolu, dayna.
-Hə, hə, - deyə uşaq sızıldadı. Nəzarətçi Məmmədbağırı qamarlayıb rəisin kabineti yanındakı tualet otağına apardı.

Ağanisə nə edəcəyini bilmirdi. Bilmirdi Məmmədbağırı aparan nəzarətçinin dalınca tualetə sarı getsin, ya ondan kiçik iki qız uşağını əşyalarla birlikdə kimsəsiz qoyub necə getsin. Elə bu dəmdə Ruzigar xanım özünü gömrükxanaya çatdırdı.
-Daş başıma, daş başıma, Ruzgar bacı. Sən göz olginən uşaqlardan, Məmmədbağırı o yana apardılar, indi gəlirəm.
-Ha yana apardılar? Neyniyib Məmmədbağır?

Ana bir söz deyə bilmədi:
-Sora, sora, - deyib nəzarətçinin dalınca rəisin kabineti yanındakı tualetə tərəf cumdu.

Burada nəzarətçi ilə Məmmədbağır arasında qızğın mübahisə gedirdi. Uşaq bu mərmər döşənəcəkli, mərmər döşəməli otağı ayaqyoluna bənzətmirdi. Həmşəri palanı sakinləri belə tualeti harda görmüşdü? Bir az əvvəl içirildiyi «işlətmə» uşağı narahat edirdi.

Ana özünü balasının yanına saldı; titrəyə-titrəyə qışqırdı:
-Bala, balamı niyə əlimdən alırsız? Kişini almısız, bəsdi. Bəs olmadı yoxsa?

-Qaytaracağıq bu saat balanı, nigaran qalma. Nəyimizə lazımdı sənin küçüyün?

Bütün yığılanlar, yola salanlar, gedənlər sanki öz dərdlərini unudub bu uşağa, bu ana-balaya tamaşa edirdilər. Heç kəs cürət edib bir söz deyə bilmirdi. Amma hamı məəttəl idi. Hamı üsyana hazır idi. Bu üsyan daxildə boğulurdu. Hamı qorxu içində idi. Cikkə çəkən uşağı verdilər anasına. Ananın yanındaca nəzarətçi dayanmışdı. Körpüyə çıxmağa, ayrı yerə getməyə icazə vermirdilər arvada. Körpü rəisinin otağının qənşərində, stulun üstündə oturtmuşdular, nəyisə gözləyirdilər. Birdən uşaq:
-Nənə, nənə, - dedi, - çiş istəyirəm.

Elə bunu eşidən kimi nəzarətçi yenidən uşağı qamarlayıb yaxındakı tualetə apardı. Uşaq dözə bilmirdi, tələsirdi. Amma mərmər döşəməli, ağ, təmiz otağı görəndə buranın ayaqyolu olacağını təsəvvür eləmədi. Uşaq nə görmüşdü həyatı uzunu? Həyətdə zibilxanaya oxşayan taxta-tuxtadan düzəldilmiş bir «rahatxana» görmüşdü. Belə bir yerin tualet ola biləcəyini ağlına da yerləşdirə bilmirdi uşaq. Qışqıra-qışqıra:
-Vaaay, - eləyib qaçmaq istədi.
-Kəs, küçük, - deyə nəzarətçi qarşok gətirib qoydu, - yaxşı, orda otura bilmirsən, gəl, burda otur.

Uşağın gözləri dörd oldu. Ağappaq, tərtəmiz qarşoku görüncə:
-Vaaay, adam da qazana kak eliyər, çiş eliyər, adam da qazana çiş eliyər? - deyə-deyə, bağırıb nəzarətçiyə sarıldı.

Nəzarətçi nə edəcəyini bilmirdi. Bayırda arvad ağlayırdı, içəridə uşaq ağlayırdı. Uşaq nə eləyə bildisə - əlinimi dişlədi nəzarətçinin, neylədisə, birdən sıçrayıb kişinin əlindən çıxdı və çığıra-çığıra bayıra - anasına doğru qaçdı. Və qaça-qaça da uşaq nəcis tökürdü. Bu nəcisin içində də həmin axşam min dil-ağıznan ona uddurulan pulları - qızıl beşlikləri tökürdü. Arvad ağlaya-ağlaya uşağı qucaqladı:
-Can bala, can bala!

Nəzarətçi:
-Çor can bala, dərd can bala! Uşağa da yazığınız gəlməyib. Gör bir nə hoqqa çıxartmısız?! - deyə-deyə bulaşıq pulları yerdən yığırdı. Körpüdəkilərdən bu vəziyyətdə nəzarətçiyə gülən də vardı, uşaqla ananın halına yanan da vardı, ağlayan da. Gözünün yaşı çoxdu millətin!

Qonşu arvadlar bir-birilə söhbətə başladı:
-Aaaz, gör bir nə iş tutub e, uşağa uddurub pulları.
-Yaxşı, o uddurub - uddurub, bunu xəbər verən kim oldu?
-Kim olacaq? Elə o qonşusu köpək qızı, o erməni köpək qızı. Görmədin, onda Meşəmməd qaragünnü nə günə qoydu? Ət satmaq mümkün döyüldü, təzə ət tapılmırdı. Qaragün kişi gedib hardasa bir qoyun kəsdirirdi, girvənkə-girvənkə eliyib yığırdı zənbilin içinə, gizlin-basırıq gətirib tanıyan-bilənlərə verirdi. Hamı da razı qalırdı, axşama bozbaşını bişirirdi. O köpək qızı, sən demə divar taxtasının, şəbəkənin arasında yer var imiş, ordan görür ki, Meşəmmədin arvadı Zərə xanım ətin qalanlarını yığıb bir böyük tasın içinə, itələyib çarpayının altına. Bu zalım oğlunun qızı, bu nainsaf köpək qızı gedib milis şöbəsində necə xəbər vermişdisə, yerbəyer necə demişdisə, elə milisənerlər içəri girib heç yeri axtarıb-eləmədilər; birbaşa əllərini uzadıb əti çıxartdılar tasıynan çarpayının altından. Onda da o eləmişdi də. Yəqin bundan da o duyuq düşüb, bundan da o xəbər tutub. Güdür də, onu-bunu güdür. Onun işi-gücü yoxdu ki. İşpiyon köpək qızı, işpiyonnuqnan məşğuldu elə. Səhərdən axşamacan işi-gücü işpiyonnuqdu. O xəbər verib. Ayrı adam kim verəcək? Kim bilirdi? Ağanisənin əri burda yox, özü də uşaqnan. Kim verərdi xəbər? Heç kim. Ancaq odu. Noranın işidi, ayrı adamın işi döyül.
-Allah kəssün onu. Sağ onu gətirib gəlib millətin, camaatın, məhəllənin canına od-alov salmayaydı Əbini. İş çıxartdı özündən. Xaraba qalmış o Xanlarda işləyəndə qızı necə aşıqlamışdısa, birbaşa götürüb ordan gəlmişdi. Neylədilər-neyləmədilər, nə qədər ata-anası razılıq vermədi, olmadı ki, olmadı. Dedi yox ey, yer üzündə olsa da, budu, olmasa da budu. Budu ha, gətirdi camaatın başına, millətin başına bu alovu.
-Ağız, tək bir Noradı? Neçə Nora kimisini güdükçü qoyublar bu məhəllələrə? Yazıq dağlı arvadın bişirib ruzu elədiyi çörəkləri təndirdə tutdurmadılar?
-Allah, sən özü bu balaca körpənin naləsini yerdə qoyma. Onun gözünün yaşını, onun qorxusunu, Allahım, sən özün yerdə qoyma...
-Aaaz, bəsdi, aaaz, bəsdi. Eşidirlər, görürsən dörd bir tərəfdən. İndi də səni çəkərlər dar ayağına.
-Çəksinlər də. Day qaradan artın rəng olar? Bəsimizdi day, o ki, var zülüm görürük. Bundan o yanası yoxdu ki...
-Aaaz, səni də tutub basallar indi bunlarnan bir yerdə gəmiyə, birbaşa Ənzəliyə, get. Xəbər tutuncan evin, camaatın, xəbər tutuncan, sənə əl yetirincən...
-Düz deyirsən, vallah.

Uşağın tökdüyü pulları nəzarətçi yığıb apardı. Ana-bala bir-birinə sarmaşıb ağlaya-ağlaya, boğçalarının, heybələrinin yanında oturmuşdular. Bir azdan sonra rəis özü göründü. Baxdı hər ikisinə, baxdı, sonra da gömrükçülərə dedi:
-Bu arvadı buraxın getsin, onda heç nə yoxdu.

Yalnız bundan sonra Ağanisə qonum-qonşuynan görüşə bildi. Yəni, buna görüşmək də deməzdi. Ağlaşdılar. Sinə dağlı idilər hamısı, ağlaşdılar o ki var. Ağanisə heybəni çiyninə saldı, balacanı qucağına aldı - Məmmədbağırı. Gəminin trapından əsə-əsə qalxdı. Axırıncı pillədə bir də ömürlük qonşularına baxdı, hönkürtü çaldı. Elə bir hönkürtü ki, elə bil Xəzər də dilə gəldi. Elə bil Xəzər eşitdi bunu, coşdu, dilə gəldi. Ləpələr böyüməyə başladı, dalğaların səsi ağlaşmaları, nalələri batırmağa başladı. Gəmi durduğu yerdə çalxanırdı. Gün irəlidən gəmi naxoşluğuna tutulanların vəziyyəti ağırlaşmaqda idi; indidən, hələ heç dənizə, dalğalı yola çıxmamış. Başqa cür ola da bilməzdi. Dözmürdü Xəzər, nə sərgərdan Ağanisənin göz yaşlarına, nə də qorxudan bağrı yarılmış Məmmədbağırın göz yaşlarına.

Gün keçəcək və əziz oxucum, mənim xahişimlə yanğılı Xəzər bayatıları meydana gələcək bu göz yaşlarından, Xəzər bayatıları! İki gənc şairə, iki ana səsimə səs verəcək. Səda Pünhan, Həlimə.

Əsdi Xəzər yelləri,
Pərən saldı elləri.
Gözü yaşlı qoydular
Neçə həsrətliləri.

Soruşma haralıyıq,
Xəzər, Kür haraylıyıq.
Xain, namərd üzündən
O taylı, bu taylıyıq.

Xəzərdən gəmim getdi,
Yarım, həmdəmim getdi.
Gülü əlimdə qaldı,
Gözləri nəmli getdi.

Məmmədbağır anasına doğru qaçanda qoyduğu izi və o izin içindən, o izin rəngindəki sarı metalları - beşlikləri yığa-yığa gedən nəzarətçinin cəld hərəkətlərinə gülürdülər qıraqdan baxanlar, körpüdəkilər, o gözü yaşlı müşayətçilər, gözü yaşlı mühacirlər xısın-xısın, təbəssümlə, hırıltıyla. İnsanlar sanki kimdənsə, onlar sanki nədənsə intiqam alırdalır. Bir nifrət, bir üsyan, etiraz azdı, nifrət və üsyan var idı bu təbəssümlərdə.

Gəminin nə vaxt yola çıxacağı məlum deyildi. Hələ imkan verilmişdi ərlərinin, ataların dalınca arvad-uşaq da, əlbəttə istəyən, arzulayan yerli bakılı qızları da ərlərinin dalınca getmək üçün gəlmişdilər körpüyə. Əşyaları yoxlanırdı. Gömrük çox uzun, üzücü çəkirdi. Az qala bitli-sirkəli, paltarlarının tikişinəcən yoxlayırdılar adamları. Qızıl-gümüş, çəngəl-bıçaq - belə-belə şeylər aparmaq olmazdı, heç bir şey. Nə ömründə qazanmısansa, burda qalmalıdı. Nə götürmüsənsə, burda qalmalıdı, ömrün uzunu. Əmək çəkmisən, zəhmət çəkmisən, hamısı burda qalmalıdı, şəpir-şüpürdən, cır-cındırdan başqa. Amma Səfərlə Əsmərin bütün bu yoxlamalardan, bütün bu didişmələrdən, göz yaşlarından, deyinmələrdən, qarğış-nalələrdən xəbəri yox idi sanki. Bir tərəfə çəkilib sakitcə gömrükxananın divarına söykənmişdilər. Dünya yadlarından çıxmışdı. Bircə şeyi bilirdilər ki, ayrılırlar. Bircə şeyi yaxşı bilirdilər ki, indi, bir azdan sonra gəmi İrana yola düşəcək; Əsmər də anası, bacısı, kiçik qardaşı ilə birlikdə həmin gəmidə gedəcək, o tayda - Ənzəlidə onları gözləyən Baxış kişiyə qovuşacaqdılar. Allah bilir nələr olacaqdı orda. Burda isə Səfər qovrula-qovrula qalmışdı, yalvarırdı:
-Getmə, Əsmərim, getmə…

Əsmərim biçim-biçim,
Ölürəm Əsmər üçün…

-Getmə… Getmə, - deyirdi, ayrı söz tapa bilmirdi. Qız isə yaylığının ucunu həyəcanla didişdirə-didişdirə, gözlərini sevgilisinin üzünə dikib baxa bilmirdi, endirirdi yaşlı gözlərini. Çünki bu gözlərdən qanlı yaşlar gilələnirdi, çənəsinə süzülürdü, ağ, ipək kəlağayısını isladırdı.

Lalə yanaqları elə sönmüşdü ki, artıq ağ kəlağayıya şövq vermirdi. Bomboz idi sifəti. Ağ kəlağayı bu bozartını bir az da bozartmışdı.
-Qala bilmirəm. Qalmaq istəyirəm, Səfər, əzizim, qalmaq istəyirəm. Amma necə? Kiminən qalım?
-Bizə gedərsən. Anam anandı, onsuz da qayınanan olacaq da.
-El nə deyər, Səfər? Qız xaylağı, tək-tənha burda necə qala bilərəm? Hələ heç nə olmayıb, genə toyumuz olsaydı, bəlkə də… Toyumuz da olmadı ki…
Hıçqırırdı qız. Səfərin hıçqırıqları bir ər, kişi iradəsilə içərisinə - ürəyinə tökülürdü, biruzə vermirdi. Amma hər halda Səfərin də gözləri qan piyaləsinə dönmüşdü, atəşliydi, qıpqırmızı qızarmışdı kirpiklərinin dibi. Yaş görünməsə də, o ürək ağrıdan bu qızartılar o yaşlardan xəbər verirdi, qanlı yaşlardan. Füzulinin dediyi qanlı yaşlardan.

Arabir əlini uzadıb qızın yaylığın ucunu didişdirən əlindən yapışırdı. Hər İkisinin əlləri titrəyirdi, soyuqdu barmaqları. Qız hətta oğrun-oğrun ətrafına baxa da düşünə bilmirdi ki, görən olar. Əvvəllər olsaydı; bir neçə gün əvvəl olsaydı, Səfərin bu hərəkətinə imkan verməzdi:
-El görər, toyumuz olmayıb. Elin ağzı çuval ağzıdı, Səfər, söz elərlər, qınayarlar bizi, - deyərdi.

Amma indi… İndi, əslinə qalsa, heç ətrafdakıların da onlardan xəbəri yox idi. Hamının başı gömrük məsələlərinə qarışmışdı, əşyalarını alt-üst edən gömrükçülərnən çarpışmaqdaydılar, əlləşməkdəydilər. Sökülüb-dağılmış, yerə səpələnmiş, bərbad olmuş heybələrini, xurcunlarını, torbalarını, boxçalarını təzədən necə gəldi yır-yığış eləyirdilər. Yaxşı ki, bu günlərdə oğru da yox idi ətrafda. Heç kəs bu bədbəxtlərin əşyasından bir çöpə də əl uzatmazdı, uzada bilməzdi, əli quruyardı oğrunun belə.

Ona görə də bu iki cavanın divara sıxılmış, bir-birinə əzəli, əbədi insana bəxş olunmuş müqəddəs bir hissdən eyni anda, eyni ahənglə döyünən sinələrinə və bu sinədən qopan sözlərə, səslərə və bu sinədən gələn baxışlara baxmağa macalları yox idi. Hətta müşayiətçilərdən belə, yerli camaatın içindən bəzi hər yerə burun soxan, yetik olmağa çalışan arvadlar belə elə bil bu cavanların tərəfinə baxmağa həya eləyirdilər, utanırdılar, məsləhət bilmirdilər. Məhəllənin kişisi də var idi burda, arvadı da var idi, Həmşəri palanından da, Dağlı məhəlləsindən, Hüseynbala açıqlığından da, həm Səfəri, həm Əsməri tanıyanlar çox idi burda, amma biri də onlara tərəf baxmırdı. Duyurdular, başa düşür, anlayırdılar ki, bu ayrılıq əbədiyyət ayrılığıdı. Dünyada heç kəsə, yəqin ki, heç kəsin başına gəlməyən bir ayrılıqdı, nişanlı qızla adaxlı oğlan evlənməklərinə azacıq qalmış atanı itirmişdilər, indi də bir-birindən ayrılırdılar. Xəzərin narın-narın əsən yelləri narın-narın bir-birini qovalayıb pıçıldaşan ləpələri sanki:

> Füzuli, hər zaman bir tən ilə bağrım qılırsan qan,
> Məgər bilməzmisən kim, eşqidən keçmək deyil asan?…

Ləpələr pıçıldaşırdı, xəzrinin yavaş-yavaş artmağa başlayan naləsi pıçıldayırdı hələ: “Eşqdən keçmək deyil asan”. Ürəklərindən qan axırdı, ürəklərindən qan axırdı, qan! Zəmanəyə, dövrana, belə bir ayrılığı, belə bir hicranı salan dövrana, zəmanəyə qəzəb, nifrət hissi oyadırdı qəlblərdə o məsum cavanların divara sıxılmış vücudları.

-Xəyali-arizin cövlan edər bu çeşmi-pürnəndə - deyirdi,

Qılır göz pərdəsin xünabi həsrət hər dəm kim, - deyirdi. Və o, dedikcə sanki Xəzər, Xəzərin adını daşıyan xəzri, xəzrinin adını daşıyan ulu Xəzər bir-birinə səs verib, bir-birini təkrarlayırdı, bir-birinə həmahəng olub tufana başladılar. Yavaş-yavaş dalğalar coşdu, xəzrinin hər zərbəsindən şahə qalxan ayğır, səllimi at kimi, köhlən kimi tüğyan etdi, üsyan etdi. Burada

sanki Səfərlə Əsmərin göz yaşları tüğyana gətirmişdi dalğaları. Nə xəzri, nə Xəzər dözə bilirdi bu göz yaşlarına millətin bu ağır faciəsinə.

Bəs onda hardaydın, Həlimə?

Xəzərin suyu zər-zər,
Bağrım başı qan süzər
Zorunan ayırırlar,
Ayrılığa kim dözər?

Çox sonralar dedin bunu, Həlimə, səsimə sən səs verdin.

Bəs sən hardaydın onda, Pünhan Səda? Xəzər bayatılarını qoşan qızlarımdan biri.

Bağrımda yüklü gəmi,
Yükü ayrılıq qəmi,
Xəzərim, göz yaşım çox,
Silən yoxdu didəmi.

Yağı verdi fərmanı,
Ayırdı candan-canı.
Xəzərin sinəsinə
Düzüldü qəm karvanı.

Bəs onda hardaydınız? Hələ dünyaya gəlməmişdiniz. Dərdimizin, Araz dərdinə yüzlərlə bayatılar qoşan millətin qızları, o zaman siz hələ dünyaya gəlməmişdiniz. Xəzərə tökülən göz yaşlarını sonralar duydunuz, səsimə sonralar səs verdiniz. İndi yaradılır, indi yaradırsınız Xəzərin göz yaşlarını. Kaş o zaman ya tanıyaydım sizi, ya hələ dünyaya gəlməyən qızlarım, ruhunuzu dilləndirəydim. Hardasan, Həlimə? Səsimə səs ver, Səda, dillən, dillənin, deyəydim, deyə bilmədim.

Səfər isə Xəzərin, xəzrinin dəhşətli uğultuları, tufanı arasında başqalarının eşitməyəcəyi, yalnız Əsmərin qulaqları üçün, Əsmərin qəlbi üçün lazım olan sözləri deyirdi:
-Ağlama, ağlama, canım, ağlama, Əsmərim! Gələcəyəm dalınca, sənə söz verirəm, səni orda qoymayacağam, gələcəyəm dalınca.

Körpüdə qarışıqlıq idi, bir müsibət vanəfsa, bir qışqırıq. Amma bu yalnız yoxlama gedən yerə qədər idi. Ana balasını-bala anasını, nənəsini səsləyirdi. Çarşabının sağ ucunu dişinə tutub sinəsinə örtük eləyən cavan ana Əminə körpəsinə süd verirdi. Qıraqdan baxan olmasın, naməhrəm gözlər görməsin deyə, elə qısılıb oturmuşdu ki, kənardan baxan onun indicə döyülüb-əzilib, xılxalanıb buraya atıldığını zənn edərdi. Amma Əminə ana idi, o, həyat verirdi körpəsinə. Elə əslində xılxalanmışdı da. Bir neçə gün əvvəl əri İslam küçədən tutulub gəmiyə basılmış, getmişdi. İndi qardaşları, bacıları, anası vay-şivənlə bu bədbəxt gəlinin əşyalarını gömrükdən keçirib, sonra da özü ilə vidalaşmaq üçün dayanmışdılar. Amma vidalaşa bilmirdilər. Uşaq elə cikkə çəkib ağlayırdı ki, Əminə məcbur olmuşdu çöküb körpəyə süd versin.

Başqa bir tərəfdə - körpünün bir yanında Ruzgar xala qoca Gülsüm nənənin əşyalarını hazırlayırdı çətinliklə. Əslinə qalsa, qarının nəyi var idi ki? Olub-qalan qab-qacağını qonum-qonşuya paylamışdı, yadigar vermişdi. Şəpir-şüpür idi, bir çuvala yığmışdı. Və əşyaları yoxlayan rus soldatlar bəlkə də bu köhnə şeylərin niyə yığılıb baqaj kimi İrana aparılmasına heyrət edirdilər. Amma Gülsüm arvadın nəyi var idi? Bir neçə olub-qalanını - qarıların «dəfn

xərci» dediyi qızılları balaca bir yaylığa düyünçə kimi düyünləmişdi. Ruzgar həmin düyünçəni sinəsində gizlətmişdi ki, imkan tapıb qarıya verə bilsin. Əşyalar yoxlandı.
-Babuşka, davay-davay, - elədi soldatlar.

Yəni, qarı çuvalını götürüb gəminin içərisinə keçə bilərdi. Elə bu anda Ruzgar Gülsüm nənəyə qarıya yaxınlaşdı. Guya onu qucaqladı, guyasız bağrına basıb qucaqladı. Öpdü, qucaqladı və sinəsində gizlətdiyi o balaca qiymətli düyünçəni gözlərdən iraq bir şəkildə, məharətlə qarının pencəyinin cibinə atdı. Sonra Ruzgarın bacısı uşaqları da gəlib nənəylə görüşdülər. Amma artıq gömrükçülər tələsdirirdi:
-Davay, babuşka, davay-davay, xvatit selovatsa.

Qarı göz yaşlarını çarqatının ucu ilə silə-silə, gözü arxada qala-qala çuvalını sürüyə-sürüyə gəminin içərisinə keçdi. Ruzgar xanım soldatların onu qovalamasını gözləmədən uşaqların əlindən tutdu və kədərlə gəminin trapından, uzaqlaşmaqda olan Gülsüm nənəyə axan göz yaşlarını saxlaya bilmədən, boğula-boğula, baxa-baxa körpüdən aralandı. Aralandı deyəndə ki, sahildə dayanacaq idi. Hələ bir neçə saat sürən bu üzücü yoxlamalardan sonra gəmi yola düşəcəkdi. Əl eləyəcəkdilər-eləməyəcəkdilər, bunun nə əhəmiyyəti var idi? Gəmidə gedənlər sahildə qalanların ürəyinin bir parçası idi. Gəmidə gedənlər sahildə qalanların həyatının yarısı idi. Gəmidə gedənlər sahildə qalanların oğlu idi, qızı idi, anası idi. Gedənlər nişana qoyur, qalanlar nişana göndərirdi. Bu ayrılıq illər ayrılığı idi. Hər birinin ürəyindən «haqq özü divan eləsin» cümləsi keçirdi. «Haqq divan eləsin». Necə?..

Bu taydan gəmi qalxanda «Gəlin bacı, Gəlin bacı», o taydan «Molla qədəş, Molla bacı», bu taydan «Əmidostu», o taydan «Dayıdostu» sədaları göyə bülənd olurdu. Amma nə bacılar, nə dayılar, nə dostular bir də haçan, nə zaman, hansı şəraitdə görüşəcəklərini bilmirdilər. Düşünürdülər ki, bu görüş qiyamətə qaldı. Rəsuli-Xuda qulluğunda görüşdülər bəlkə.

Ya Rəbbim, on il olmamış iki dəfə mühacirətə məruz qalan bir millət Rəsuli-Xudadan başqa, o böyük Yaradandan başqa kimə üz tutardı, kimə üz tuta bilərdi? Kimi vardı bu millətin, nəyi vardı? Bu tayda «Ay Allahı sevən», deyə bircə balası, bircə qızı yad ellərə, onun fikrincə qürbətə gedən qızının dalıycan «Ay Allah sevən» deyib nalə çəkirdi. O taya gedən bütün arzularını, bütün dərdlərini «Allahım, Rəbbim, ey Rəbbi-qiblə» ilmə-ilmə kəlmələrinə toxumuşdu. Dərdi olmayanların da dərdi tərpənirdi bu gecə, bu gündüz, bu səhər, bu axşam. Xəzərin o zaman hələ neft qarışmamış, zir-zibilə, çirkaba bulaşmamış mavi sularına o qədər göz yaşı töküldü ki!..

Bir Arazcan! Bəlkə də Araz azdı, Kür azdı, ümmancan... Ümmancan!

Çillə, böyük çillə çıxa-çıxmaya Qasımalını gəlib apardılar. Uşaqlarla Şərəbanı qaldı Ruzigar xanımın öhdəsində. Evdə bir şivən qopmuşdu... Gecəni səhərə qədər heç kəs yatmadı, heç kəs.

-Bu kişini niyə görəsən apardılar, ay Allah? - deyirdi Ruzigar.
-Ay bu sizin hökumətüvüz başuvuza dəyəydi, - deyirdi Şəhrəbanu, - ay Allah, ay Allah, necə olacaq bizim günümüz, uruzgarımız? Heç bir şey.

Qonşular yığılıb səsə Ruzigar xanımın evinə doluşmuşdular. Hərənin ağzından bir avaz gəlirdi. Amma hər halda çoxu arvadları sakitləşdirmək istəyir, uşaqları ovundurmağa çalışırdılar.

-Eyyy, heç bir şey olmaz. Nəçidi Qasımalı kişi? Nə iş görüb ki, gəlib tutublar onu? Səhv olub yəqin.

-Səhv olub, aaaz. İndi belə şeylər olur. 37-də də olmuşdu belə şeylər.
-Ay 37-ni qara günlərə qalaydı, qara ruzigarlara qalaydı.

Aralıdan, qapının o üzündən, əlbəttə, bütün bu şivəni Nora da əlbəttə eşidirdi. İçəri girsin - üzü gəlmirdi. İçəri girsə, döyülməkdən qorxurdu. Amma hər halda eşidirdi. İçəridə isə qonşular hərəsi bir söz deyirdi:
-Ruzigar xanım, ay bacı, ay bacı, axı sən təmkinli arvadsan, dünya görmüsən...
-Ay sağ görməyəydim mən o dünyanı. Əllərdə qaldım, dərindən-dərinə gedəydi bacım, ölməyindən qalaydı bacım. Qasımalıya rast gələn günündə, Əzrayıl onda çıxaydı yoluna, İlahi, İlahi, tökdü üstümə bunları.

Şərəbanı da bir tərəfdən sızıldayırdı:
-Allah, sağ gəlməyəydim. Kaş gəlib gətirməyəydi məni Qasımalı bədbaxt bura. Bu nə bəladı qaldım mən? Bu nə bəladı düşdüm mən? Yad ellər, yad obalar... Dədəm yox, nənəm yox.
-Olan dədə-nənəmizdən verərik sənə. Bəxtəvər başımıza, dədə-nənə axtarır bu yaşında. Sağ gəlməyəydin sən də.
-Neynim, ay başuvuza dönüm, ərdi. Allah birdi, ər birdi. Gəldi dedi «balalarım var orda, gedirəm, aparıram səni». Mən də çıxdım gəldim. Mən nə bileydim başımıza bu oyun gələcək?

Səhərə qədər uşaqları güclə ovundurub yatızdırdılar. Qonşular da yavaş-yavaş, bir-bir evinə dağılışdı. Soyuqdan üşüyən, üşənən adamlar bir-bir otağı tərk etdi. Otaqda bir Ruzigar qaldı, bir də Şərəbanı.

Sabahısı günü Ruzigar xanım öyrəndi ki, bir onu yox, bu gecə xeyli qonum-qonşudan iranlı kim vardısa, tutub aparıblar.

-Ümumi bəla! Elnən gələn qara gün toy-bayramdı, - dedi Ruzigar ürəyində, - sağ olmayaydı belə toy-bayram...

O gedən oldu, Qasımalıdan səs-soraq çıxmadı. Bir neçə dəfə Şərəbanı qonşulara yalvar-yaxar eləyib onlardan birinə qoşuldu, körpüyə getdi. O taya keçməyə izin istədi. Əlində nə bir sənəd, nə bir pasport vardı. Heç yerdən nə bir söz, bir kəlmə! Nə hə öyrəndi Qasımalı haqqında, nə yox. Özünə də «yox», dedilər, artıq gec idi. Sərhəd bağlanmışdı. Sənədi, subutu olmayan arvad kimliyini qandıra bilmirdi. İnanan yoxdu ona. İnanan olsa da, kömək edə bilmirdi. Şərəbanı o taya da keçə bilməyəcəkdi. Getsə, bəlkə orda ölüb-qalanından kimsə vardı, onu da bilmirdi daha. İndi Şərəbanı kimsəsiz, yurd-yuvasız, sahibsizdi, Ruzigar xanımın evində artıq ağız idi.

Belə soraqlama səfərlərinin birindən qayıdanda gördü ki, Ruzigar xanım uşaqları yatırdıb, özü də bazara getməyə hazırlaşır.
-Hardasan, ay qarabaxt, hardasan? Gəl kişüvün yetimlərinə yiyə dur da... Mən də gedim görüm zəhərlənməyə nə tapıram ac ağızlara...
-Mənim kişimin yetimləridi, sənin bacuvun... İkisi də cəhənnəm olaydı.
-Dilin qurusun, Allah özüvü cəhənnəmlik eləsin.

Ruzigar xanım əlində qəribə bir uşaq paltarı tutmuşdu. Enli marlilərdən, sarğı kətanlarından qatbaqat tikdiyi, ətəyini qatbaqat elədiyi, sonra da kinəynən sarı limon rənginə boyadığı bu paltar elə gözəl görünürdü ki, elə həyətə çıxanda qonşular hamısı maraqla baxdılar. Biri dedi:
-Aaaz, lap o balet oynayanların paçkasına oxşayır ey, tumanına oxşayır.

Biri dedi:
-A can, nə gözəl tikmisən, aaaz, nədən tikmisən onu?

-Əl vurub, yoxlayıb sarğı kətanı olduğunu görüncə adamların ağzı heyrətdən nırçıldayırdı.
-Pay atonnan sənün, ay maşallah bu gözə, maşallah bu ələ.

Paltardan başqa bir neçə xırda uşaq papaqları da tikmişdi Ruzigar. Bunları Quba meydanına satmağa aparacaqdı.
-Aaaz, Şərəbanı, uşaqları indicə yedirdib yatırtmışam. Muğayat ol olardan. Mən gedim bazara, görüm bunları neyniyirəm...

Bu sözlərlə əlində tikdiklərini boxçaya bağlayıb həyətdən çıxdı.

Quba meydanı o illərdə artıq başqa bir yerdə yerləşirdi. Quba meydanından çoxdan aralanmışdı. Çadrovı küçənin lap yuxarıda - təpəsində, tövlələrə bir az qalmış, Quba meydanı indi orda yerləşirdi. Köhnə külə satan kimdi burda, köhnə pal-paltar, köhnə dəmir-dümür, köhnə qab-qacaq, hər şey köhnə idi. Təkbir əllərdə arşın malı satan da var idi. Amma gizlin idi, qoltuqlarda satırdılar. Ruzigar bazara çatanda boxçanı yavaşcadan açdı. Uşaq paltarını qolunun üstünə saldı, papaqların bəndəmini barmaqlarının başına keçirtdi və girlənməyə başladı, o tərəfə-bu tərəfə get-gəl elədi.

Heç kəs bir yerdə dayanmırdı. Bazar qaynayırdı burda. Bu bazar dünyanın o qədim öz adəti, ənənəsi, öz ağası, öz nökəri olan bazarlarına bənzəmirdi. Arabir milislər görünürdü. Cibgirlərdən, paçkabasan deyilən bir növ oğrulardan qorumağa guya çalışırdı bu milislər. Paçkabasanlar təzə çıxmışdı, çox qəribə adamlardılar. Cavanlardı, iki-üç nəfər birləşirdilər, gəlib bir nəfər kənddən gələn bədbəxtin qarşısına keçir, ona lazım olan bir şeyi sırıtdayır, - al, - o da alırdı. Hesablamaqçün üzünü o yana çevirməyə macal tapmamış, bükülü parçanı dəyişdirib, oğrular ona başqa bir bükülü verirdilər. Bədbəxt alıcı evinə gedib çatanda açıb, içində cır-cındırdan, kağız-kuğuzdan başqa heç nə tapa bilmirdi. Belələri də törəmişdi bu dövrdə bazarda. Bu bazarda artıq həya-abır, qorxu-ürkü yox idi, belə-belə şeylər arxivə verilmişdi. Çünki abır-həyası olan adam bircə köhnə palazını gətirib bazarda satan kəndçiyə arvad-uşağına tumanlıq almaq əvəzinə cındır satmazdı, həya olsaydı. Yeni dünyanın yeni oğrular, yeni cibgirləri meydana çıxmışdı. Ruzigar xanım bu adamların arasında ora-bura gəzinir və gətirdiklərini satmağa çalışırdı. Birdən qəfil barmağını elə bil nə isə kəsdi. Balaca, sahibsiz uşaqlardan o zaman «pasan» adlandırılanlardan biri, kim idisə, uşaq papağının birini dartıb əlindən qaçdı. Papağın ilgək kimi barmağına keçirdiyi bağı az qala arvadın barmağını yaracaqdı. Arvad ufuldaya-ufuldaya qalmış, deyinə bilmir, qarğış eləməyi də bacarmırdı:
-Ay Allah kəsməsin səni! Ay aman, necə gözüm görmədi, aaaz?.. Yanındakı bir-iki başqa şey satan ürək-dirək verməyə çalışdı:
-Eybi yoxdu, ay bacı, şükür elə, əlində bir şey qalıb, birini apardı, sağ yeməmiş.
-Eh, kim bilir, bəlkə də onun bu gününün ruzisidi.
-Ay ruzisiz qalsın belələrini...
-Qarğış eləmə, bacı, qarğış eləmə. Hökumət ha çalışır, yığır bunları, oxutdurmaq istəyir, neynir, gəl ki, ata yox, ana yox, tərbiyə yox. Çöl quşu, sapand daşıdılar.

Bir qədər keçmiş Ruzigar xanım gətirdiyi əşyalarını satdı, aldığı pula, deyək ki, qazancına ev üçün ərzaq - makaron, vermişel, sarı darı - pşeno, qənd, çay - hərəsindən bir az alıb evə yollandı.
-Can bacı, qəbrində rahat yat. Balalarını ölməyə qoymayacağam. Amma Allah bilir, necə olacaqlar? Bu bədbəxt Şərəbanı da... Ər o yanda qürbətdə, arvad bu yanda qürbətdə. Qasımalının harda olduğu, başına nə gəldiyini də bilmirəm. Bacım balalarıdı, balalarını saxlayacağam. Qasımalı tapılmasa, mənim də başıma bir iş gəlsə, kim böyüdəcək? Atasız, anasız, yetim qalmış balalarını kim böyüdəcək?

Aman, ya Rəbbim, onlar da bu pasanlar kimi olmasın. Neynəmək olar, zəmanənin bəlasıdı. Allah səbəbkara lənət eləsin. Allah evini yıxsın Hitlerin. Balaları mənim balalarım kimi sərgərdan qalsın baisin. İlahi, özün kömək ol!

Bu gün gömrüyə nəzarət, xüsusilə körpünün üstündəki gömrüyə nəzarət etmək Qriqoryana tapşırılmışdı. Əllərini arxasında çataqlayıb qismən ucatəhər bir yerdə susub dayanmışdı. Çalağan gözlərilə bir an, bir kəsi belə, bir hərəkəti belə nəzərdən-gözdən qaçırmamağa çalışırdı, çalağan gözlərilə çalırdı hamını. Birdən bu qarmaqarış kütlə içində gözünə bir mələk göründü. O idi, Əminə idi, Əminə! Heç üstündən bir il belə keçməmişdi ki, bu qızı itirmişdi. Yaxşı yadındaydı: 37-nin ən qızğın qətl günlərində Əminəyə yiyələnmək istəmişdi. Yaxında olurdular, tanıyırdı qızı. Ailəsini də, atasını-anasını da, bacısını-qardaşını da, hətta əmi-dayılarını, xala-bibilərini belə tanıyırdı. Bu qızı və onun atasının mülkünü ələ keçirtmək Qriqoryanın çoxdankı bitməz arzusu idi, çoxdankı arzusu. Həmişə o qapının ağzından keçəndə düşünürdü: «Hə, uzun əsrlərdi buralarda ağalıq eləyirsiz, bu torpaqlarda. Zaman gəlməlidi, bizim olmalıdı bu torpaqlar, bəsdi.»

Həmşəri köçürmə hadisələri baş verməmiş qızın, Əminənin atasını, qardaşlarını, nəslinin kişi qismini şəhərdən itirtdirəndə yalnız bu xəyallarla yaşayırdı Qriqoryan. Qız bir quş oldu, gözündən itdi. Nə sahibləndiyi boş qalmış evdə, nə də şəhərin başqa bir küçəsində, məhəlləsində, xüsusilə çox vurnuxduğu Dağlı məhəlləsində, Hüseynbala açıqlığında, Molla Şərəf aralığında, Həmşəri palanında qızın izinə də rast gəlmədi. Hətta günlərlə zənənə üçün açılan hamamı da nəzarət altında saxladı. Qız sanki hamama da gəlmirdi. Beləliklə, bir müddət qızı nəzərdən qaçırdı. Əvvəldən intiqam ala bilmədiyi üçün, arzusuna çatdığı o evdə o qıza sahiblənə bilmədiyi üçün çox təəssüflənirdi, bərk də acıqlanırdı. Amma sonralar unutmağa başlamışdı və birdən-birə adamların içində Əminəni görəndə ürəyi yenidən zoqquldadı. Cəld gömrük naçalnikinin otağına keçdi, orta yaşlı işçilərdən birini göndərib göstərdi Əminəni, çağırtdırdı yanına. Yəni əslində göstərmədən desəydi də, Əminəni tanıyacaqdı o gömrük işçisi. Sərvim, sənubərim deyərdilər bu boylara vətənimin şairləri. Qucağında uşaq pardaxlanırdı, yanında bir neçə adam var idi. Ortabab gömrük işçisi Əminəyə yaxınlaşdı:
-Ay arvad, naçalnik səni çağırır.

Əminədən əvvəl onunla gələnlərdən biri dedi:
-Neynir nəçənniy onu?

Kişi hövsələdən çıxdı:
-Ay anam, ay bacım, mən nədən bilim ki, neynir nəçənniy? Çağırtdırır da…

Əminə bir söz demirdi. Arvad yenə dilləndi:
-Qardaş, bunun gömrükdən keçib əşyaları. Pasportu-zadı da yerindədi. Axı nə istəyir ondan nəçənniy?

Kişi usanmışdı Qriqoryanın tapşırıqlarından. Əminəni çağırtdırmağı heç onun da xoşuna gəlməmişdi. Odu ki, yenə hövsələsizliklə çımxırdı:
-Vallah bilmirəm. Getsin qoy özü soruşsun ondan, görsün nə istəyir?

Əminə uşağı həmin qadına verib gömrük işçisinin ardınca otağa keçdi. Naçalnikin otağında Qriqoryandan başqa heç kəs yox idi. Qriqoryanın işarəsilə gömrük işçisi könülsüzcə otağı tərk etdi; ikilikdə qaldılar Qriqoryanla Əminə. Bir şey soruşmurdu, bir söz demirdi Qriqoryan, düşünürdü: “Deməli, həmşəriyə ərə getmisən. Deməli, həmşəri pasportu almısan. Deməli, o yana ötüşmək istəyirsən?”

Əminə dik gözlərinə baxırdı Qriqoryanın. Qadının gözlərində bir zərrə qədər qorxu-hürkü yox idi. Əminə qorxunun bütün növlərindən, mərhələlərindən keçmişdi.

-Neynirdin məni?
-Sənədlərini ver, baxım.

Bir kəlmə söz demədən Əminə, kiçik əl çantasından sənədləri çıxardıb nifrətlə onun qarşısına qoydu. Qriqoryan sənədləri o üz-bu üzə çevirib nə isə oxudumu, oxumadımı, yoxladımı, dedi:
-Sənədlərin düz deyil.
-Sənədlərim düzdü, yoldaş Qriqoryan. Sənədlərim düzdü. Atamı, qardaşlarımı, əmilərimi məhv elədiyin bəs eləmədi, evimizə sahibləndiyin bəs eləmədi, indi mənim özümə də sahiblənmək istəyirsən? Budu sənin arzun, məgər mən bilmirəm? Amma itlərə tay olaram, sənə yox. Bunu birdəfəlik bil.
-Sabah gəlib apararsan sənədlərini evinizdən.
-Xeyr, mən sabaha qoymayacağam. Sabaha qalmayacağam. Bu gün gedəcəyəm gəmidə mən. Biletim də, pasportum da, sənədlərim də hazırdı, gömrükdən də keçmişəm. Bil bunu. İndi burdan çıxıb bayırda bir qışqırtı qopardacağam ki, ananın sənə qoyduğu ad da yadından çıxacaq. Məni elə də ölmüş hesab eləmə. Mən bilirəm sənə nə lazımdı. Dedim sənə! Sənin mənə dırnağın da dəyməyəcək. Dəyə bilməyəcək.

Daxilində nifrət tufanı qopmuşdu Əminənin.

Qriqoryan nə düşündüsə, cibinə qoymağa hazırlaşdığı sənədləri qaytarıb Əminənin qarşısına tulladı:
-Rədd ol burdan, ifritə!
-Anandı, bacındı ifritə, nəslindi ifritə, mən deyiləm. Özününkülərin adını mənə qoyma! Onu bil ki, sən mənə qalib gələ bilməmişdin.
-Mən indicə sənin küçüyünü əlindən allam. O, pasporta yazılmayıb. Mələrsən qalarsan; gedərsən balasız.
-Balamı alacaqsan deyirsən?
-Hə, balanı əlindən alaram.
-Alsan də nə olsun? Cavanam, gedərəm, yenə balam olar. Atam, anam, əmilərim, qardaşlarımdan artıq deyil ki... Amma sənə heç bir zaman baş əyməyəcəyəm, Qrişa! Heç bir zaman diz çökməyəcəyəm qarşında, Qriqoryan, bunu yəqin bil. Bunu yəqin bil və məndən əl çək!

Əminə titrəyirdi qəzəbindən; amma biruzə verməməyə çalışırdı. -Tfu sənin əməllərinə, zatına!

Əminə dişlərini qıcadı və bu sözlərlə də sənədlərini götürüb yavaş-yavaş, tələsmədən, aramla çantasının içinə qoydu və bir də «tfu» eləyib kabineti tərk etdi.

Gəmidə çox basırıqdı; oturmağa yer yox idi. Nəinki kayutalar, göyərtələr, hətta gəmi xidmətçilərinin, (matros da demək olmurdu bunlara) kubrikləri belə xıncım-xıncım sürgünlərlə dolu idi. Arvad, uşaq, kişi, cavan, qoca bir-birinə qarışmışdı. Heç kəs şikayət eləmir, heç kəs etiraz eləmirdi. Kimdən şikayət edəcəkdilər? Kimə şikayət edəcəkdilər? Basırıq olsa da, pıçhapıçdan başqa heç nə eşidilmirdi. Bəziləri deyirdi ki, «bizi gəmiyə doldurub Nargin adasına tərəf aparacaqlar. Orda belimizə daş balğayıb dənizin dibinə buraxacaqlar, balıq yemi.» O birilər deyirdi «yox, bala, bizi sürgünə, Sibirə göndərəcəklər, Sibirə! Burdan Türkmənistana keçirdəcəklər, Krasnovodska, ordan da qatarlara doldurub birbaşa Sibirə aparacaqlar.»

Dəqiqəbaşı bir xəbər çıxırdı. Adamlar - dərdli, qüssəli adamlar, faciəli adamlar. Amma yenə də pıçıltı ilə danışırdılar, xəbərləri bir-birinə pıçıltı ilə verirdilər. Ortalıqda üzünün bir tərəfi qırxılmış, bir tərəfi qalmış bir kişi gəzirdi. Vallah, dünyanın başqa vaxtı olsaydı, bəlkə buna gülən də tapılardı. Amma indi heç gülən yox idi. Çünki hamı əvvəla öz dərdinə ağlayırdı. İkincisi bilirdilər ki, kişini dəlləkxanada üzü qırxılan vaxt götürüblər. Üzünün qırxılmağını belə qurtarmağa qoymayıblar. Elə necə var, elə də kişini götürüblər.

Adamların arasından bircə səs gəlirdi. Bu da böyürtü, ögümə səsləri idi. Gəmidə getməyə adət eləməmiş, suda üzməyi bilməyən, daxili parçalanan adamlar. Onların çoxu heç yemək yeməmişdi, yadına da düşməmişdi. Ona görə ki, Bayıl həbsxanasında axırıncı dəfə onlara verilən balandadan savayı yemək vermək heç kəsin yadına düşməmişdi. Gəmidə də heç kəsə yemək vermirdilər. Uşaqlar belə acından ağlamırdı, bəzisi birtəhər analarının köksünə düşüb qalmışdı, o birilər nənələrin dizinin üstündə halsız düşüb qalmışdı, cınqırını da çıxartmayan balacalar, ana döşündən süd əvəzinə kitrə əmən körpələr!

Məşədi Gülsüm nənə bu ögüyənlər içində xüsusilə seçilirdi. Arvad çox qoca idi. Yaşı 90-ı ötmüşdü. Ögüyürdü, bütün bədəni oyulurdu. Sonda bitab halda göyərtəyə sərilib qalmışdı. Yazığı gələnlər birtəhər onu kayutalardan birinə apardılar. Bu kayutada bir neçə qadın var idi. Kişilər onu içəri qoyub gedəndən sonra Məşədi Gülsüm nənə ögümələr arasında bu qadınlardan birinə döndü:
-Qızım, üzümü qibləyə çevirin.

Heç kəsdə iqtidar yox idi ki:
-Ay nənə, gəmidə qibləni hardan tapaq? - desin.
-Yaxşı nənə, yaxşı.

Qadınlar, xüsusilə onların içində Əminə gəlin var idi - Əminə nənəni tanıyırdı, uşağını Gülsüm nənə tutmuşdu. Hiss edirdi ki, qarı dünyasını dəyişir. Ona görə də... Bəlkə ona görə sayıqlayır, sayır-bayır danışır. Yox, qarı bir neçə gün idi ki, heç nə yeməmişdi. Acından ölürdü. Ögüyürdü, amma ağzından su da gəlmirdi. Bir ara ətrafındakı o biri qadınlar dərdlərinə çəkilib aralıda dayanmışdılar. Yerə çökmüşdülər, dizlərini qucaqlayıb oturmuşdular. Təkcə Əminə qarının yanından aralanmırdı, əllərindən tutmuşdu:
-Nənə, - deyirdi, - darıxma, Allah qoysa, indi səhər açılana yəqin ki, bir yana çıxacağıq, özünə gələrsən.
-Yox, ay bala, məndə daha özünə gəlmək söhbəti yoxdu.

Qarı titrək əlini zorla cibinə salıb balaca bir düyünçə çıxartdı. Düyünçəni Əminənin ovcuna basdı:
-Bax, bunuynan məni kəfin-dəfin elətdirərsən, qızım! Allah qarşısında, Allah qarşısında. Mən gedəriyəm, qızım. Bu tayda da, onsuz da, heç kəsim yoxdu. Heç kəs məni gözləmir. Kimə gərəyəm? La İlahə İlləllah, Məhəmmədən Rəsul-İllah, Əliyyən-Vəliyyullah.

Arvad dönə-dönə böyürtülər arasında titrək, ölgün səslə, getdikcə daha da ölgünləşməyə başlayan səslə kəlmeyi-şəhadətini dedi və eləcə başı Əminənin dizi üstündə olduğu halda dünyasını dəyişdi.

Onsuz da onun dünyasını dəyişən vaxtı idi; uzun ömür yaşamışdı, insanlara məhəbbət bağışlamışdı, insanlardan məhəbbət görmüşdü. Amma hər halda belə yox. Belə yox! Onun ruhu gəmidə, indi cansız bədən üstündə çırpınır, Əminənin öz dərdi ilə birlikdə qarının bu cür vəfatına ağlayan başı üstündə sanki özü-özünə: «Allah sənə rəhmət eləsin», deyirdi. Ruh bədənə deyirdi bu sözü. Əminəsə düşünürdü: «Yazıq… Yazıq nənə, səni mən harda, necə kəfin-dəfin eləyəcəyəm ki?…»

Ölüdən qorxan qızlardan biri kayutadan çıxdı, qışqırdı:
-Nənə rəhmətə getdi… Nənə öldü…

Gəmidəkilər gəlib qarını götürdülər. Heç kəsdə etiraz eləmək, heç kəsdə səsini ucaltmaq iqtidarı yox idi. Aclıqdan, kimsəsizlikdən, dərddən, öz taleyini bilməmək qorxusu… 37-ci il uzaqda deyildi. 37-ci il insanların qanında idi, hüceyrələrində idi, bütün varlığında idi. Kimin etiraz eləmək cürəti çatardı? Gəmi xidmətçiləri kapitanın razılığı ilə qarını köhnə bir palaza və özünün götürdüyü düyünçəsinə bürüdülər, əşyaları ilə birlikdə. Gəminin göyərtəsindən birbaşa dənizə endirdilər. «Tulladılar» deməyə dilim gəlmir. Dəfn elədilər Xəzərin sularında, dəfn elədilər Məşədi Gülsüm nənəni. Nə burda vətəndaş idi, nə orda vətəndaş olacaqdı. Doğma torpağında, doğma yurdunda dəfn olunmaq üçün bircə qəbir qədər torpağı belə yox idi, bircə qəbir üçün də yeri yox idi, heç yerdə. Adamların üstünə elə bil su çilənmişdi. Sakitcə dayanıb gəmi ənənələrinə, matrosların qarını dəfn etmək mərasiminə baxırdılar. İçlərində ruhani təbiətli bir nəfər var idi. Əməliyyat boyu yavaş səslə, həzin səslə yasin oxumağa başlamışdı. Allah sənə rəhmət eləsin, Məşədi Gülsüm nənə.

Əminə bir dəstə köçkünlə, bir dəstə sürgünlə birlikdə Təbrizə gəlib çıxmışdı. Burada onları karvansarada yerləşdirmişdilər. Hələ ərini axtarıb tapa bilməmişdi. Əslində əri hələ onu axtarıb tapa bilməmişdi. Buraya gəlib çıxdığını bilirdimi-bilmirdimi, Əminə üçün aydın deyildi. Ona hücrələrdən birində özü kimi bədbəxt bir qadınla - Gülnisəylə bir yer vermişdilər. Burada onlar Əminənin balaca oğluna qulluq edir, əylənir, burada yeyir-içir, yatır və buradan da çıxıb karvansaranın qabağında gözləyirdilər. İntizar içində gözləyirdilər və arabir karvansaranın ətrafında dolaşır, hərdən ətrafdakı evlərdəki qadınlarla görüşür, danışırdılar. Bir dəfə oğlu yatmışdı. Əminə onu rəfiqəsi Gülnisəylə birlikdə qoyub karvansaranın ətrafını gəzirdi. Burda bir karxana vardı - xalça karxanası. Əminə çoxdandı ki, bu binayla maraqlanırdı. Elə bura gələn gündən nə üçünsə bu iri karxana onun nəzərini cəlb eləmişdi. Bəlkə burda əri gələnəcən bir işin ucundan yapışa bildi. Amma cürət eləyib karxanaya girə bilmirdi, aralıdan qapıya nəzarət edirdi. Amma əksər halda buraya gələnlərin xırda uşaqlar və qadınlar olduğunu görəndə, bir dəfə cürətlənib qapıdan içəri boylandı xalça karxanasında arxa sıra cərgəylə bir neçə hana düzülmüşdü. Hanaların orta yarı toxunulu hissəsindən əlvan iplik yumaqları asılmışdı. Nazik, ensiz, kətiləbənzər üstünə köhnə-külə, xırda, bürüşük, yamaqlı döşəkçələr salınmışdı. Bu cındır döşəkçələrin üstündə səhərlər Əminənin gördüyü o uşaqlar əyləşmişdilər. Dizlərinin dibində kirgit, həvə, qayçı vardı. Nazik, incə barmaqları ilə, bu, 5-6 yaşlı uşaqlar xalça toxuyurdular. Nə qədər yumşaq olsa da, hər halda yun ipin cod iplikləri bu uşaqların barmaqlarını ilan kimi yalayırdı. Əminə dəhşətə gəldi. İlahi, bu nədir? Bu yaşda uşaq da işləyərmi? O, qapıdan geri qayıtmaq istədi. Çünki nə qədər qəribə də görünsə, onun ödü ağzına gəlirdi. Onu ögümə tutmuşdu. Balaca fəhlə - xalı toxuyan uşaqların halına yanan ana düşünürdü: «İlahi, birdən, birdən İslamı tapmasam, balam da dünyaya bir balaca ayaq açanda bunlar kimi işləməli olacaq, bu uşaqlar kimi işləməli olacaq mənim balam. Yoox, nə təhər olsa, özümə iş tapmalıyam. Heyif ki, xalça, palaz toxumaq əlimdən gəlmir. Yoxsa elə bu karxananın yiyəsinin yanına gedərdim.» Düşüncələri yarıda qırıldı. Enidən nə olur-olsun, iş tapmaq barəsində xəyala daldı. Bu fikirlərlə də o, qapının divarına söykənib dayandı. Bir qadın yaxınlaşdı ona.

-Qəribsən, bacı?

Çadralı qadın elə incə, elə zərif, elə mehriban bir dillə danışırdı ki, Əminə ixtiyarsız ürəyinə dolan bacı məhəbbətini duydu. Duydu və dedi:
-Bəli, Bakıdan...

Sözünü bitirməmiş qadın dedi:

-Hə... Şurəvisən? Mühacirsən? Deyirəm axı... Bizdə belə şey yoxdu. Belə geyim də yoxdu, belə çarşab da. Bizdə bu çarşaba şurəvilərin, qarabağlıların çarşabı deyirlər.

Əminə bir söz demədi.

-Səni nə narahat eləyib? - deyə qadın soruşdu. - Bu uşaqlar, - yenə qadın ona danışmağa imkan vermədi, - bu uşaqlar burda çalışıb evə, külfətə kömək olur, çörəkpuluna yardım edirlər.

Qadın Əminənin keçirdiyi hissləri anladı. Anladı və gözlərində elə bir kədər, elə bir qüssə göründü ki, Əminə öz halını unudub bu qüssəli gözlərə baxdı.
-İndidən azad olun, iranlılar. Qüssədən azad olun, İranlılar.
-Belədi, mənim bacım. Bizim bu İranzəmində böyüklər qürbətdə, kiçiklər çox ağır zillətdədi. Aləmə təsir elədi ahınız... Eşitmisiz? Əvvəllər sizdə çıxardı «Molla Nəsrəddin». Orda bizim də bir şairimiz var idi - Bayraməli Həmmal. Dərdlərimizi bircə-bircə elə əla deyib ki...

Aləmə təsir elədi ahınız,
Doğdu yenə behcətilə mahınız.
Yadə salır sizləri öz şahınız,
Günbəgün abad olun, iranlılar.
Qüssədən azad olun, iranlılar!

Onlar söhbətləşə-söhbətləşə karvansaraya tərəf gəldilər. Burada Əminəni olduqca qəmgin, bitmiş, bitab rəfiqəsi Gülnisə qarşılayırdı. Amma onunla gələn qadın hələ də rəfiqələrin danışmasına imkan vermədən, dərdli ürəyindəkiləri yenicə tanış olduğu bu qürbətzədəyə ürək vermək üçün sözünə davam edirdi:
-Fikir eləmə, bacı, bu bizim İranın taleyidi. Eşitmiş olarsan bəlkə, Bayraməli Həmmal adlı şairimiz yazıb bu dərdləri, sizin rəhmətlik Mirzə Ələkbər Sabir kimi.

Əlbəttə Əminə də, Gülnisə də Sabiri yaxşı tanıyırdı. Məktəbdə dərsliklərində şəklini görmüşdü, şerlərini oxumuşdular. Bayraməli Həmmalı isə o qədər də yaxşı tanımırdılar. Rəfiqəsi Əminəni görən kimi soruşdu:
-Sənə nə olub, bacım, niyə belə bikefsən?

Əminə hüznlə cavab verdi:
-Heç, belə... Tanış ol, mən bu bacıya odey, bax, o karxananın yanında rast gəldim. Adı Saminə xanımdı. Yaxşı şerlər bilir, gözəl də oxuyur, həm özününküləri, həm bizimkiləri...

Saminənin sinəsi qalxıb-endi. O, indi bu işsiz, sahibsiz, mühacir qadınların halına yanırdı:
-Dövlət başçıları nə fikirləşir, fikirləşsin. Ordakı - orda qalsın, burdakı - burda əylənib qalsın. Biz elə onsuz da əvvəldən can bir qəlbdə dost idik, həmvətən idik. Bizim bütün kişilər arvad-uşağı yiyəsiz qoyub Bakıya, İstanbula gediblər çörək dalınca. Bizi bir-birimizdən kim ayırar? İllərnən kişilərimizin üzünü görə bilmirdik, illərnən, aylarnan. Hərdənbir bir günlük, iki günlük baş götürüb gəlirdilər evə, uşaqların iyini almağa, mənə dəyməyə, bizə dəyməyə. Onda da el təhnəsindən yaxa qurtarmaqçün damların üstünə, evlərin üstünə qırmızı fitə salırdıq. Çünki ərimizin gecələr, bir gecə, iki gecə evə gəldiyini hamı bilmirdi axı. Bir gecənin ər-arvadı olmağımızı qoy kənd-kəsək - hamı bilsin. Sonra hamilə qalana min qara yaxardılar, daşa basardılar, təhnə-təriz altında ölərdilər. Qırmızı fitə... Bu balalarımızın neçəsi o qırmızı fitələrdən doğulub. İllərnən bu dərdi çəkə bilmirdik. Əziz şairimizin bu sözləri bizim üçün virdi-zəban idi:

Bu vilayətə yığıldı nə qədər ki, dərbədər var,

Hamısı səfərdə, ya rəbb, nə kağız, nə bir xəbər var.
Nə babam, nə qardaşım var, bu xərabədə nə ər var,
Ola pasibanım əmmə.
Bibican, bu yer nə yerdir, belə əhli-qürbət istər?

Ərlərimiz, atalarımız, qardaşlarımız, oğullarımız əhli-qürbət olmuşdular hamısı, əhli-qürbət. İndi də qəza sizin başınıza gətirdi bu müsibəti...

Əminədən əvvəl Gülnisə özünü saxlaya bilmədi.

-Bacı, mən də tanıyıram sizin o şairi: «Əfsus ki, nisfani vətən görmədi bir gün», - demişdi. Dərdlərinizi anlatmışdı. Başa düşürük sizi. Amma bizdə də onların günü bir gün kimi keçməmişdi. Elə bilməyin ki, yağ içindəki böyrək kimi kef içində, madamlarnan, sonyalarnan kefdə-damaqda idilər. Onda sizin kişilər qürbətdə idi, indi bizim arvadlar. Mən qarabağlı qızı, o, bakılı qızı, o, şəkili qızı, o, şamaxılı qızı - hərəmiz sevib-seçib vətəndə arvadı-uşağı olduğunu bilmədən onların birinə ərə getmişdik. Bu da bizim axır günümüz. Bu da bizim son günümüz. Son gün deyəndə ki, axırını kim bilir? Hələ axırını kim bilir, bacı? Kənkan idilər bizdə, palçıqçı idilər, amma çoxu dalındakı palanın üstündə yatan, daş körpülər üstə baş girləyən bədbəxt hamballar idi. Gör nə gün olmuşdu ki, şair özü də elə bil ayrı söz tapmayıb, özünə Hammal təxəllüsü seçmişdi. Yadımdadı, bizdə onun bir kitabı çıxmışdı. Bədbəxt iranlı dediyi təbrizli, ərdəbilli, xoylu, miyanəli qardaşlarımızın halını iranlı adıynan gör bir ağlına da gəlməz ki, hansı dillə deyirdi:

Kankanlıq ixtiraın Erlix de anlayarmı?
Meymun nə tövr oynayar, bir filosof qanarmı?
Palçıqdan haftafanı Darvin gəlib yaparmı?
Bu sirri kim açardı iranlı olmasaydı?

Bakı zavodlarında aya kim iş görərdi?
Hər gün, de, yüzlər ilə kimlər düşüb ölərdi?
Kimlər divar dibində qürbətdə can verərdi?
Kim səbr edib durardı iranlı olmasaydı?

Qadınların üçü də ağlayırdı, dinləyən Əminə, Təbriz gözəli Saminə, şer oxuyan Qarabağlı qızı, kim bilir bəlkə də Şamaxılı qızı. O isə sözünə davam eləyib deyirdi:
-Bilirsən, bizdə bir gözəl şair olub. Bir «Məktub yetişmədi» adında hekayət yazıb. O hekayətdə bədbəxt iranlı qardaşlarımızın birinin qazdığı neft quyusunda necə həlak olduğundan danışır. Yoldaşları onun paltarlarına baxanda içindən vətəndə balalarına yetişməmiş bir məktub tapmışdılar, «Məktub yetişmədi». Elə neft quyularında ölənlərin nə qəbri var, nə sayı vardı. Amma iş bundadı ki, sonralar onların bir çoxu üzə çıxdı, o neft həmin mədənlərində işləyənlərin. Elə biri mənim bədbəxt ərim. Başbilet çıxartmadı bədbaxtım özüyçün, urus pasportu. Soruşdum, dedi, nəyimə lazımdı sovet pasportu? Mən onsuz da sovet mədənlərində işləyirəm. Ad-san qazanmışdı, şöhrət qazanmışdı, medallar almışdı, neçə ordenlər almışdı, biri lap ey Lenin ordeni almışdı. Nə olsun? Kim idi onlara orda baxan? Elə sürgün elədilər ki... Elə dalından dəydilər Bakıdan ki... Kimin, nəyin, hansının zavalına gəldiyini bilə də bilmədik, bacı! Bir siz deyilsiz, bir siz dərdli deyilsiz. Biz sizdən betər dərdli olduq. Ata, ana, bacı, qardaş - hamısı o tayda qaldı. Nişanlı, toysuz qızlarımız bu taya sürüldü, adaxlı oğlanlarımız o tayda qaldı. Araz çoxdan millətə sərhəd olmuşdu, çoxdan millətin bağrını yarmışdı, bacım. Çoxdan demişdi millət:

Arazda buz ağladı,
Yanda yarpız ağladı.

Oğlan o tayda qaldı,
Bu tayda qız ağladı.

Biziynən elə gəmidə gələn bir qızın adaxlısı o tayda qaldı. Hicranına, onların ayrılığına yer də ağladı, göy də ağladı, gəmi də ağladı, Xəzər də ağladı, bacı, inan mənə. O şöhrətli ərim bu tayda məni qarşılamalı idi. Amma hayanda itdi-batdı? Qarşılamadı. Harda öldü? Bəlkə elə gəmidə bağrı çatladı, sulara buraxdılar? Bilmədim. İndi budey, Əminə bacımnan ikimiz bir yerdə oturub ər yolu gözləyirik. Qız gözləyən kimi. Güman edirik ki, gələcəklər, bizi tapacaqlar, hardasa yurd-yuva qurub aparacaqlar bizi bu hücrədən, karvansaralardan.

Qadınların üçü də ağlayırdı. Danışan keçmiş, olduqca ziyalı bir ailənin övladı idi. Gülnisə, ağlayan Əminə, Təbriz gözəli Saminə də həmçinin. Onları bir-birinə o taylı-bu taylı qürbətə çevrilmiş doğma vətən torpaqlarının faciəsi bağlayırdı. O gündən sonra hər gün Təbriz gözəli Məşəd Saminə Əminəgilin yanına gəlir, Gülnisədən, əli uşaqlı Əminədən xəbər tuturdu. Arabir imkanı olan bir ərzaqdan-zaddan gətirirdi onlarçün. Ərinə də demişdi:
-Bu qadınlara, bu sahibsizlərə pasiban ol, soraqlaş, eşitsən ərlərinin adını, eşitsən axtarıldıqlarını, yerlərini xəbər ver, - demişdi.

Ərinə bu qadınların faciəsini, bu bacılıqlarının taleyini danışanda əvvəl demişdi:
-Kişi, çiquyam ki, naqoftənəm, behtərəst. Nə danışım sənə ki, danışmamağım ondan yaxşıdı, - demişdi. Amma danışmışdı hər ikisinin taleyini. Hər ikisinin pak, təmiz üzüsulu qadınlar olduğunu demişdi. - Axtar ərlərini, bəlkə Ənzəliyə gedən-gələn oldu, xəbərləş. Soraq göndər, orda tanıyanın-bilənin varsa, - demişdi.

O gündən bu üç bacı - üç bacıydı bu qadınlar - arabir Təbriz gözəli Məşəd Saminə onları evinə dəvət edirdi, qonaq kimi. Sonra da deyirdi ki:
-Qalın bizdə, karvansarada qalmayın. Bir çoxları gələnlərdən əqrəbasını, qohumunu tapıb, onların həyətlərində yerləşib, ya kirayə tutublar, ya ev alıblar. Siz də bizdə qalın, karvansara yaxşı deyil.

Amma Əminə də, Gülnisə də buna razı olmamışdı.
-Saminə bacı, yox, sizə də darısqallıq olar. Elə arabir gəlirik, ev əti yeyir, ev iyi alırıq, bəsdi; eybi yoxdu. Uşaq da, İslamın balası da sizin həyətin uşaqlarını görür, pardaxlanır bir az. Amma qalmaqdan danışma!

Gülnisə də həmin sözü deyirdi:
-Saminə bacı, qoy hələ karvansara sorağı Ənzəlinin, Bakının qulağından getməsin, ərlərimiz bizi axtaranda bu karvansaralarda da axtarsınlar, bəlkə tapıldılar. Hökmülillah, Allah bilir, Allahın hökmüdü bunlar. Amma bircə şeyi bilirəm ki, bu Allahın hökmündə kiminsə namərd, xain, iblis barmağı var. Bu təkcə bizim taleyimiz deyil, Allahın əliynən yazılan taleyimiz deyil, kimdisə, bizim taleyimizlə oyun oynayır.

Əminəylə Gülnisənin yaşadığı karvansara xiyaban qapısı ağzında idi. Ənzəlidən Təbrizə köçürülənlərin çoxusu bu karvansarada yerləşdirilirdi. Bir neçə gündən sonra əlacı, başqa yerdən umudu kəsilənlər, əli iş tutan kişilərin bəzisi karvansaranın yaxınlığında, lap o xalça karxanasının ətrafında balaca, xırda dükanlar açmağa başladılar. Bu dükanlardan birisi «qənnadı» - şirniyyat dükanı idi, ucuzbəsər, bizim yerlərdə balış konfet deyərdilər, amma balış konfetin içində hardasa meyvə əzintisi olurdu. Bu isə yox, yalnız şəkərdəndi: ustanın özünə məlum olan üsulla şəkəri əridib, sonra onu əlləriynən dartır, dartır, dartır, saatlarla evirib-çevirib həmin o balış konfetlərin kəsilə biləcəyi bir şəklə salırdı uzun-uzun lülələrlə. Ətrafdakı uşaqlar, xüsusilə Bakıda başqa şirniyyat görmüş uşaqlar analarından aldıqları qəpik-quruşla gəlib burdan həmin şirniyyatdan alıb yeyirdilər. Bununla çay içənlər də var idi.

Yəni çay var idi ki, içən də ola? Düzdü, müəyyən xeyriyyə təşkilatlar həmin bu köçkünlərə, sürgünlərə ərzaq gətirirdilər, evində xörək bişirib gətirən arvadlar vardı. Nəzir hesabına, ehsan hesabına xörəklər bişirib gətirən xeyriyyəçilər var idi. Amma bütün bunlara baxmayaraq quyunun dibində su olmalı idi. Hər halda bu balaca dükanlarda əli iş tutan kişilər bir növ çax-çux edirdilər ki, ta əllərinə bir qədər pul keçirdib ya kirayə ev tutsunlar, ailələrini köçürsünlər, ya xırdaca bir daxma satın alsınlar. Bundan ötrü çalışırdılar. Amma bunların içində bir dükan xüsusilə diqqəti cəlb edirdi. Bu, Çolaq Əzizin dükanı idi. Bir növ komisyon dükanı idi; yəni adamlar gətirib buraya öz pal-paltarından, ev əşyasından - nəyi vardısa, gətirib qoyurdu və sonra kimlərsə yerlilərdən-zaddan gəlib alırdılar, həmin puldan müəyyən faiz çıxıb qiymətini sahibinə verirdi. Sürgün arvadların ümid yeriydi bu dükan. Sonralar Çolaq Əziz milyonerə çevrilsə də, amma hələlik sürgün arvadların yeganə ümid, pənah yeriydi. Elə Əminə də çarəsizlikdən birinci dəfə buraya müraciət elədi. Buraya müraciət elədə deyəndə, Saminənin müşayiətiynən, Saminəylə birlikdə gedirdi həmin dükana, sirrini ona açmışdı, Saminəylə birlikdə gəlmişdi bura. Əvvəl evdə, evdə deyəndə ki, karvansaranın hücrəsində, Gülnisəylə bir yerdə yaşadığı otaqçada öz boxçasını açdı, içindən gəlinlik örpəyi - zəkiyyə örpəyi çıxartdı. Balasına qarşıdan qılınc kimi gələn qışa pal-paltar almalı idi, yeyib-içməli idilər, özü də, körpəsi də. Odur ki, zəkiyyə örpəyi qoltuğuna vurdu, Saminənin yanına gəldi.
-Bacı, mən bu örpəyi satmaq istəyirəm. Görəsən bu arada-bərədə alan olar?

Saminə örpəyi diqqətlə gözdən keçirtdi. Anladı ki, bu, gəlinin nişan örpəyidi, bəxt örpəyidi, qəlbi sızıldadı. Amma neynəməliydi? Özünün də Əminəyə hər dəfə etdiyi ərzaq yardımından başqa bir şeyə gümanı gəlmirdi, dedi:
-Vallah, bacı, gözəl örpəkdi. Bu aralarda, kasıb-küsub, füqəra yeridi; buralar belə şeyi almağa pul tapmaz. Amma budey, burda sizinkilərdən, sizinən gələnlərdən biri bir dükan açıb, belə malları alır, satır başqalarına, kimlərəsə. Dur, gedək ora, baax orda, deyəsən adı da Əzizdi.

Əminə dərhal anladı. Gəmidə görmüşdü bu Çolaq Əzizi. Çoxlarıynan dilləşir, söhbətləşirdi. Gələndən sonra qulağı da çalmışdı ki, Çolaq Əziz burda dükan açıb, amma nə dükan olmağını bilmirdi. Qərəz ki, qadınlar bir-birinə qoşulub Çolaq Əzizin dükanına gəldilər. Dükan adi taxtalardan, fonerdən düzəldilmiş balaca bir yer idi, piştaxtası var idi, piştaxtanın yanında da bir malları göstərmək üçün yer var idi. Bir neçə kətil də qoymuşdu Çolaq Əziz, gəlib-gedən, bazarlıq eləyib çənə döyənlərçün.

Qadınları görən kimi kimsəsizlərdən birinin nəysə satmaq istədiyini anladı. Alıcıya oxşamırdılar. Soruşdu:
-Nə deyirsiz, ay bacılar, nə gətirmisiz? Utanmayın, gəlin. Nə olacaq, mən də sizin əminiz, mən də sizin dayınız, - bu sözlərlə qarşıladı Çolaq Əziz Əminəni.

Əminə utana-utana yaylığı açdı və içərisindən zəkiyyə örpəyi çıxartdı. Bu ağ, dördkünc, krebdişin örpək idi, künclərinə ağ ipək sapla əl işi gözəl tikmələr tikilmişdi. Ağ, ipək saçağı var idi. Ağ gün üçün hazırlanmış baxt örpəyi idi. Əziz belə örpəkləri Bakıda çox görmüşdü. Bilirdi bunu, tanıyırdı ki, zəkiyyə örpəkdi.
-Ləkəsi-zadı yoxdu, bacı?
-Yox, ay qardaş! Heç örtmüşəm ki?... Bir dəfə-iki dəfə, bilmirəm. Hara gedirdim, örtəm? Elə toy gecəsi başımdan götürüləndi.

Əziz bu sözə etibar eləmədi-elədi, ya nəydisə, hər halda örpəyi götürüb gözü bərabərinə qaldırdı, açdı, əllərini aralayıb, qollarını uzadı, bir az aralıdan baxdı örpəyə. Diqqətlə gözdən keçirdi, büküb piştaxtanın üstünə qoydu. Əlilə sığallayır kimi yastılatdı vıə soruşdu:
-Neçəyə verəcəksən, ay bacı?
-Nə bilim, qardaş, qiymət bilirəm? Sən özün Allah xətrinə...

Məşədi Saminə səbr eləmədi. Çolaq kişinin zıqqılığından narazı qaldı. Görünür, bir neçə dəfə buraya gəlib görmşdü Əzizi, dedi:
-Əyşi, görürsən ki, qət-əcərri şeydi. Bədbəxtin əri gəlib çıxmayıb.
-Gələr çıxar, inşaallah.
-Allah ağzından eşitsin. Amma duadansa, əliuşaqlıdı, zəhmət içindədi. Bax, görginən, qət-əcərri şeydi, nə qiymət qoyursan?

Əziz hələ də diqqətlə örpəyə baxırdı:
-Nə deyirəm ki? Qoysun qalsın, gələn-gedən baxar, qiymətləşərəm, görüm nə verirlər.

Yenə Məşədi Saminə dözmədi:
-Əyşi, yəni özün bilmirsən ki, bunun qiyməti nə olar? Heç olmasa, bir ağızarası desənə bir söz.

Yenə Çolaq Əziz ağız süründürməsi cavab verdi:
-Baxaram da, indi, nə olacaq. At olmayacaq, dəvə olmayacaq. Sabah bir gələr, baxaram, deyərəm.

Qadınların əlacı kəsildi. Örpəyi Əzizdə qoyub dükanı tərk etdilər. Dükandan bir azacıq aralanan kimi Məşədi Saminə hirsli-hirsli dedi:
-Elə zıqqı kişidi, incimə, sən Allah. Düzdü siznən gələnlərdəndi; amma namərddi, bir köpüklük adama oxşamır.

Çarəsiz Əminə dedi:
-Bacı, elə bilirsən biznən gələnlərin hamısı yaxşı adamdı, seçmədi? Heç içində nacinsi yoxdu?

Yenə də Saminə hirsini yeyə bilməmişdi.
-Düzdü, mən başa düşürəm. Alverçinin ata-anası olmaz, qohum-əqrəbası olmaz. Amma hər halda gərək başa düşə də ordan özüynən birgə gələnlərin vəziyyəini.
-Vallah, nə bilim, bəlkə başa düşəcək?
-Allah Kərimdi.
-Məşədi bacı, sən Allah, sənə zəhmət də olsa, mən onun yanına tək getmək istəmirəm. Sabah əlin ev işindən qurtaranda zəhmət çək, gəl, bir yerdə gedək onun yanına. Uşağı yenə bacıya tapşırıb gedəcəyəm.
-Yaxşı, gələrəm, nə vaxtbazlıqdı? Qurbandı sənə mənim vaxtım. Elə evin yer-yığışını eləyən kimi gələrəm, bir yerdə gedərik. Onun öhdəsindən yenə gəlsəm, mən gələrəm. Sənin nəm-nümüvə, o, boğazuvu kəsəcək.
-Nə deyim vallah.

Onlar ayrıldılar. Əminə öz otaqçalarına Gülnisənin yatmış İslama nəzarət elədiyi evə tərəf, Məşədi Saminə də öz həyətinə doğru yollandı.

Əslində Xiyaban-qapısı ətrafında bazar olmamalıydı. Yox idi də əvvəlindən. Düzdü, ətrafdakı karvansaralar bəzən dolardı, karvanlar gələrdi haçansa. Amma indi şimaldan gələn karvanların arası kəsilmişdi, çoxdan idi ki, bu karvansarada karvansaralıq demək olar ki, qalmamışdı. Amma hər halda sürgünlər buraya yerləşdiriləndən, bu ətrafda xırda dükanlar açılandan bəri Xiyaban-qapısı ətrafı bir növ bazara çevrilmişdi, canlanmışdı. Buraya saysız-hesabsız tabaqçılar gədir, cürbəcür meyvəcat, cürbəcür şirniyyat satanlar gəlirdi. Səhər tezdən sələb satanların səsini eşidirdin:
-Səəələb, səələb...

Ya bir təndirdə, közdə bişirilmiş ağ çuğunduru, qənd-şəkər çuğundurunu başında gəzdirən tabaqçı qışqırırdı:
-Ləbu sineyi-məlhəm.

Bu sürgünlərdə səhərdən-axşamacan ösgürəkdən boğulanlar olsa da, gəmidə soyuqlayanlar olsa da, sinə məlhəmi ləbi almağa kar hardaydı. Odur ki, sələb satan, ləbu satanların bazarı o qədər də yaxşı getmirdi; işləri o qədər də xeyirli deyildi. Buraya dilənçilər də gəlirdi və ümumiyyətlə, burada dilənçi çox idi. Biri xüsusilə nəzəri cəlb eləyirdi. Biri deyəndə ki, yəni «ikimərtəbə dilənçi» deyərdilər ona. Altdakının ayaqları sağlam idi, üstdəkinin gözləri. Altdakı yeriyə bildiyi üçün ayaqları olmayanı - gözlünü öz çiyinlərinə almışdı. Yuxarıdakının gözləri, aşağıdakının ayaqları bu iki dilənçini gəzdirirdi. Və heç yerdə tayı-bərabəri olmayan bir üsulla bu iki dilənçi gəzib dolaşır və oraya-buraya sürgün olunmuş bədbəxtlər «özündən yuxarıya baxma, özündən aşağıya bax» məsəlindən çıxış eləyir, «zəngliynən zəng döymür», öz bədbəxtliklərinin qarşısında bu bədbəxtlərin həyatını daha dəhşətli hesab edirdilər. Buralarda, karvansaranın bir tərəfində lap Bakı küçələrində olduğu kimi - Həmşəri palanında olduğu kimi, 10-12 yaşında oğlan uşaqları, yeniyetmələr divarın dibində oturub arabir meyxana deyirdilər. Bu meyxanalar sadə, bəsit, bəzən gülməli olduğu üçün nəzər-diqqəti cəlb eləyirdi. Böyüklər də hətta ara-sıra dayanıb qulaq asırdılar.

Mən nə deyim sənün gözüvə-qaşuva,
Soyuq su tökərəm isti aşuva,
Şairliyin dəysin sənin başuva…

Belə-belə atmacalar nəzərləri cəlb eləyirdi. Bəzən ayaq tuturdular.

Ay can alan candı, Saray bağları
Bağı-gülüstandı, Saray bağları.

Qocalar öz aralarında danışırdılar:

-Hardadı indi saray, a bala? Qaldı, qaldı gözünə qurban olduğum o tayda. Əl çatmaz, ün yetməz...

Yerlilərdən biri deyirdi:
-Saray burda, nə qədər istəyirsən…

Sürgün deyirdi:
-Yox qardaş, bu saray o saraydan döyül.

Uşaqlar dinləyə-dinləyə susur, daha meyxananı davam etdirmirdilər. Qoca sürgün kişinin gözləri yaşla dolurdu. Bunu görən Təbrizli qardaş deyirdi:
-Uçurtsun Allah onu; evini yıxsın Allah, necə ki, yıxdı. O boyda Nikolayı endirdi taxtdan.
-Bə nə bimişdin? Sən İmam Rzaya top atarsan, Allah qəbul eləyər onu? Allah da baxar durar? Allah səninçün qarğa döyül ki, göz çıxarda. Gec elər, güc elər. Geci daha güclü olar. Elə bu Sovetdən də gözüm su içmirdi əvəldən. O da elə Nikolayın yoluynan yeriyir. Bundan o yanası yoxdu.

Sürgün kişi başını tərpətməklə "hə" deyirdi. Amma ürəyinin harasındasa 37-ci il tərpənirdi. Hətta burda - sürgündə, Təbrizdə, bu karvansaranın böyründə belə sovet hökuməti əleyhinə danışıla bilən bir söz onu qorxudurdu.

-Birdən eşidərlər, İlahi, burdan hara sürgün eləyərlər? Sibirə sürgün eləyərlər? Buralar heç olmasa, bir az istidi. Uşaq-muşaq birtəhər dolanır. Öz elimiz, öz adamlarımız, öz dilimizin içidi. Sibirə sürgün… Lənətə gəlsin belə dünyanı. Dünyanın çox ağır vaxtına düşdük. Can balalarım, - deyə o, bir az əvvəl meyxana deyən uşaqlara baxıb düşünürdü, - can balalarım, bədbəxt balalarım, bu yaşınızda sürgün, bu yaşınızda qürbət, bu yaşınızda möhtaclıq. Allah özü qorusun sizi, ay mənim balalarım, Allah özü qorusun.

Gülnisə də eşitmişdi. Əminəyə də demişdi. Demişdi ki, Təbriz xanımları çox şux, şən insanlardı. Musiqini, rəqsi sevərlər. Təbrizli evində həmişə qaval olar. Ayrı musiqi aləti olmasa da, o qavalı çala-çala, o qavalı dınqıldada-dınqıldada Təbriz gözəlləri elə havalar oxuyur ki… Günlərin bir günündə belə də oldu. Yəni bunun şahidi oldu hər iki rəfiqə.

Hamama getməyə hazırlaşırdılar. Hazırlaşırdılar deyəndə ki, xırım-xırdalarını qoltuqlarına vurub, pal-paltarlarını boxçaya yığıb yaxındakı hamama yollandılar. Uzaqdan görünürdü: Hamamın qabağından qırmızı fitə asılmışdı. Bu o demək idi ki, bu gün hamam qadınlar üçün işləyir. Onlar həmin hamama doğru gedirdilər. Birdən qulaqlarına darvazalardan birinin dalından qaval səsi gəldi. Çoxdan musiqiyə, mahnıya, nəğməyə, muğama həsrət Gülnisə Qarabağın bu gözəl səsli qızı, bu ziyalı qızı ayaq saxladı, Əminənin də dirsəyindən tutub saxladı.
-Dayan, - deyə pıçıldadı, - dayan bir qulaq asaq, görək nə oxuyur?

Darvazanın o üzündən kədərli bir səs, maraqlıdı ki, qəzəl deyildi, elə bil bugünkü həyatı: Təbrizin, bütünlüklə Güney Azərbaycan xalqlarının Ərdəbil, Miyanə, Sulduz, Tufarqan, Məşkin, Şəbüstər - bu şəhərlərin qürbətdə olan kişilərindən birinin gəlini öz millətinin, öz bacılarının taleyini oxuyurdu muğam üstə.

Təzkirəsin aldı ələ,
Canıma saldı vəlvələ,
Yarım gedib, nə vaxt gələ
Qəmli könül fəryad elə.

Sənin ilə könlüm xoşdu,
Necə görüm yerin boşdu?
Yarın qəfəsdə bir quşdu,
Tez gəl, onu azad elə.

Əmoğlu can, səni Tarı,
Dön, bir də bax mənə sarı!
Yıxıldı könlüm divarı,
Gəl-gəl, onu abad elə.

Ümid gözəl şeydi. Bu səsdə bir ümid var idi. Amma Əminə nədənsə birdən ətrafa baxındı. Darvazaya tərəf gələn, onlara təəccüblə baxan bir kişi gördü. Tez Gülnisənin dirsəyindən dartdı.
-Bacı, evlərinə gələn var. Gəl gedək, bacı, gəl gedək.

Onlar yavaş-yavaş darvazadan ayrıldılar. Qapının açılıb-örtülməsi ilə içəridəki səs də kəsildi. Əminə birdən dönüb baxıb gördü ki, Gülnisənin gözlərindən o mahnıdakı kədər dolu yaşlar tökülür. Elə həmin gün xəbər çıxdı ki, Tehranda partlayış olub. Bunu hamamdakı arvadlar da pıçhapıçla danışırdılar; qışqıranı da var idi. Hamamın dairə səkisinin üstündə balaca xalçalar salınmış, boxçalar qoyulmuşdu. Gülnisəylə Əminənin boxçaların altına salınmaq üçün xalça olmadığından yalvar-yaxarla hamamçı xanıma təhvil verdilər.

-Eybi yoxdu, eybi yoxdu, bacı, başa düşürəm, sürgünə gəlmisiz, o taylısız. Eybi yoxdu, qoyun qalsın məndə, çıxanda götürərsiz.

Yuyundular, geyinib çıxdılar. Küçədə artıq hiss olunurdu ki, adam adama dəyir, söz gəzir.
-Tehranda partlayış olub. Hərbi bazadamı, hərbi zavoddamı…

Tehranda hərbi zavod nə gəzirdi? Hərbi hissələrin birindəmi, partlayış olub. Deyirdilər, silah anbarında olub partlayış. Deyirdilər əsləhə anbarında olub partlayış. Adamlar, xüsusilə, mühacir kişilər bir-birinə qarışmışdı. Qorxurdular. Və bu qorxu səhəri günü özünü göstərdi. Bütün Təbrizdə, Miyanada, Ərdəbildə, başqa yerlərdə olan sürgünlərin gözə dəyimlilərini, gözə görünənlərini yığıb İranın cənubuna, o ilan mələyən düzlərə, ərəblərin daha çox məskun olduğu yerlərə sürgün elədilər, köçürtdülər, bir sürgündən o biri sürgünə. Halbuki deyilənlər əsla doğru deyildi. Uydururdular: deyirdilər guya bolşeviklər partlatdırıb, deyirdilər guya şurəvilər partlatdırıb. Bu partlayışı köçüb gələnlər İrana ziyan vurmaq üçün qurublar. Hamı da bilirdi ki, sürgünlərin, bolşevik deyilənlərin, şurəvi deyilən bu bədbəxtlərin heç birinin nə partlayışla, nə bu bina ilə heç bir əlaqəsi yoxdu. Amma məlum mənbələrdə bilirdilər ki, bu partlayış, İranın hakim dairələrini, xüsusilə şah və onun vüzərasını, məiyyətini, yaxınlarını qorxuya salmaq, onları, hardasa, almanlardan uzaqlaşdırmaq məqsədi daşıyır. Dünyanın hər yerindən müharibənin - dünya müharibəsinin iyi gəlirdi. Avropa artıq almanlar tərəfindən fəth olunmuşdu. İranın daxilində də azadxanlar baş qaldırmağa başlamışdı. Bunların hamısında şurəvi barmağının - sovetlərin əli olduğunu bilənlər yaxşı bilirdi. Belə lazım idi sovetlərə. Belə lazım idi, çünki Hitlerin Sovet İttifaqını fəth etmək xəyalı dünyanın anlayan şəxsiyyətlərinə məlum idi və sovetlər heç cür öz böyük cənub sərhədlərini alman nəzarəti altında qoya bilməzdilər. Bütün siyasət buna bağlı idi. Bu məntiqdən şübhələnən İran hakim dairələri İrana sürgün olunanların heç birisinə Araz boyu kəndlərdə yerləşmək imkanı vermədi. Buralarda qohum-əqrəbası, tanışı olanlar belə öz əqrəbası yanında yaşaya bilmədi. Əminəynən Gülnisənin vəziyyəti pis idi. Heç birisinin ərinin sorağı çıxmamışdı.

Günlərin birində qapılarına Baxış kişi gəlib çıxdı. Baxış kişi dostu, qonşusu İslamın övrətinin burada olduğunu öyrənmişdi. Gəlmişdi ki, ona başsağlığı versin, İslam sarıdan.
-Gözləmə, İslamı, bacı, - deyəcəkdi, - sənin dalıncan, bu yana keçdiyini bilməyib bədbəxt oğlu, sənin dalıncan o taya sərhəddən qaçaq keçmək istəyib və elə bu taydaca vurulub.

Belə deyəcəkdi. Deyəcəkdi: «Allah rəhmət eləsin». Deyəcəkdi: «məhəbbətinin, öz adını qoyduğu balasının və sənin məhəbbətinin qurbanı oldu», belə deyəcəkdi. Amma deyə bilmədi. Qadınların vəziyyətini, nigaran gözlərindəki fəryadı duyunca dedi:
-Əminə bacı, gəlmişəm səni də - bizi sürgün eləyirlər Əhvaza - gəlmişəm səni də özümüzlə aparaq. İslam qardaşa da xəbər göndərəcəyəm, bilsin ki, bizim yanımızdasan, sizdən nigaran qalmasın. Gəlib elə bizim yanımızdan birbaşa özü götürüb aparsın sizi.

Belə dedi və Əminəni, onunla birlikdə Gülnisəni də - hər ikisini götürüb öz uşaqları ilə birlikdə Cənuba apardı.

Baxış kişi işin əslini yaxşı bilirdi. Belə faciələr tək-tək olmamışdı. Bir çox bölünən, sərhəd balğanandan sonra ayrı düşən ailələrin faciəsiydi İslamın başına gələn. O aydan yuxarı Ənzəlidə hər gələn gəmini qarşılamış, Əminədən soraq tuta bilməmişdi. Dönə-dönə qonsulluğa müraciəti də cavabsız qalmışdı. Nəhayət özü, gizlicə sərhədi keçmək qərarına gəlmişdi. Gəlmişdi...

İslam kişi sərhədçi məntəqəsindən aralı dayansa da, Arazın sarı lilli, bulanıq suyunun axarını seyr edirdi. Elə bil ki, çayın axar sularının hər lilli damlası onun qanlı, bulanıq göz yaşları idi. Balası qalmışdı o tayda. İlahi, axı sevdiyi xanımı, gülü, sevgilisi qalmışdı o tayda. Burdan o

yana qaçıb gedənlərin başına nələr gətirildiyini eşidirdi. Buna baxmayaraq kişinin gecəli-gündüzlü fikri qovulduğu üzə keçmək idi. Bircə dəqiqə görəydi?

-Arazı ayırdılar, - deyirdi,
Qumunan qayırdılar
Mən sizdən ayrılmazdım,
Zülmünən ayırdılar.

Ayırmışdılar zülümnən, ayırmışdılar. Atalar ağlamaz. Ər igidlər, kişilər ağlamaz. Amma İslamın göz yaşları bu saat Arazdan da coşğun axırdı. Qanlı göz yaşları Arazın lilli suyundan da bulanıq idi. İntəhası o sarıydı, bu qırmızı. Dərdi, dünyası o üzdə qalmışdı. Sevinci, məhəbbəti - Kəbutəri, balası - nəyi vardısa, insan fərəhi - nəyi vardısa, o tayda qalmışdı, o tayda.

Bircə bu lilli suları keçə bilsəydi...

...Açılan iki güllə bu arzuya, bu həsrətə son qoydu. Heç bilinmədi ki, o tayınmı, bu tayınmı gülləsi sərdi onu iki bölünmüş, amma «neytral zona» deyilən torpağa... Allah sənə və sizə rəhmət eləsin, məhəbbət qurbanları!..

Məscidin içərisində şübhəsiz, basırığ idi, amma ətrafında da xeyli adam özünə yer eləmişdi. Burda bacarıqlı kişilər palçıqdan manqal, kürə düzəltmişdilər. Tapılan çır-çırpı ilə burda manqalları alışdırır, kürələrdə Cəmiyyəti-Xeyriyyənin bu biçarələr üçün pay gətirdiyi ərzaqdan nə isə bir şey bişirirdilər. Bu palçıq kürələri gördükcə, bu palçıq kürələrində əlləşdikcə Gülnisə öz-özünə pıçıldayırdı:

Palçıqdan aftafanı Darvin gəlib yaparmı?
Bu sirri kim açardı, iranlı olmasaydı?

Manqal onun yaşadığı Bakıda artıq çoxdan muzeyə verilmişdi. İndi Bakıda pilətə var idi - neft pilətəsi, gur-gur pilətə, pilətədə hazırlayırdılar yeməyi. Burda isə onlar yenidən 30-40 il, 50 il qabağa qayıtmışdılar, manqal tüstülədirdilər, kürə qızardırdılar və bu kürənin üstünə iki balaca mil qoyub, millərin üstündən tapdıqları balaca qazançada, ya tavada nə isə yumurtadan-zaddan, bir şey bişirirdilər.

Baxış kişi əvvəl onları Ərdəbilə aparmaq istəmişdi. Deyirdi ki:
-Ata-babam hardansa Ərdəbildən olub. Bəlkə bir uzaq-yaxın qohumdan-zaddan tapdım.

Amma sonra fikrini dəyişdi. Qulağı çaldı ki, Ərdəbildə 41 məscid var. Hamısının da içi dolu, həyəti doludu. - Hara gedirəm? - deyə düşündü, getmədi. Onsuz da Ənzəlidə gəmidən düşən kimi onların hamısını, bütün gəmidən düşənləri aparıb böyük, nəhəng Nobel parkı vardı, o parka yığmışdılar. Orda yüksək bir kürsünün üstündən bir məmur adları, familiyaları çağırırdı, gəmidən düşənləri çağırırdı. Soruşurdu adlarını, yerlərinin adını, hansı kənddənsən, hansı şəhərdənsən? Və təzkirə verirdilər, gedirdilər həmin kəndlərə, həmin şəhərlərə getmək istəyənlər. Bəzilərinin o yerlərdə heç kəsi qalmamışdı. Buna baxmayaraq yenə də… Amma Araz boyuna yox, Tehrana yox. Elə ona görə də Baxış kişi burdaca - məscidin yanında bir ev, balaca bir daxma kirələdi. Həyət sahibi bu daxmanı onlara demək olar ki, pulsuz verirdi. Onsuz da yol pulu kimi Nobel parkında onlara verilən 3 tümənlə heç yerə gedib çıxa bilməyəcəkdilər.

Hər cümə axşamı gedib Nəzmiyyədə qeyd olunmalı idilər. Bilinməliydi ki, bunlar qaçmayıblar, başqa bir yerə getməyiblər. Hər cümə axşamınkı qeydiyyat demək olar ki, çox ağır keçirdi,

təhqiramiz keçirdi. Bu «mühacir» adı taxılmış adamlar doğma torpaqlarında qərib idilər, hicrətdəydilər. Qərəz ki, həyətdə palçıq kürənin üstündə köhnə bir çaydanda, bunu da onlara ev sahibəsi vermişdi, çay qoyurdu Gülnisə. Baxış kişi həyətə girdi, çaydanı gördü.
-Eh, - dərindən bir ah çəkdi, - Gülnisə bacı, simavər çayıyçün burnumun ucu göynəyir. Nə olaydı, bir simavər olaydı, həmin o kürədəki qızarmış kömürdən tökəydin o simavərə, bir az keçəydi, dızıltısı qulağımda əməlli-başlı bir hava çalaydı. Oturaydım böyründə, tökəydim piyalələrə, fincanlara simavər çayını. Nolar ki, qənd yandırıb çay eləyirsən? Qənd əvəzinə, şirni əvəzinə möyücnən içirik çayı, kişmişnən içirik… Eh, bacı…

Yaşmaqlanmış Gülnisə bu həsrət mahnısını eşitdikcə gözləri dolurdu, bir söz demirdi. Ürəyində deyirdi:
-Allah ürəyindəkiləri yetirsin, Baxış qardaş. Allah sən namusda, sən qeyrətdə kişiləri millətə çox görməsin, Baxış qardaş. Söznən danışırsan dilnən deyirsən, amma sözündə, səsində bir yanıqlı həsrət mahnısı səslənir, Baxış qardaş. Allah tezliklə sənin də o taydan balalarının sorağını gətirsin. Qovuşasan sən balalarına, məniynən Əminə yazıq da külfətlərimizə, baş yoldaşımıza.

Qərəz, dünyanın işini bilmək olmaz. Çaynik qaynadı. Əminə Gülnisədən əvvəl cəld çayniki qaldırıb yandırdığı bir dişləm qəndi balaca çaydan olmadığından elə iri çaydanın içinə atdı. Döşünə bağladığı döşlük əvəzi köhnə dəsmalla çaynikin o yan-bu yanını sildi. Yay idi, həyətdəki tut ağacının kölgəsində bir süfrə düzəldirdilər. Arvadlar süfrəyə bir az əvvəl bişirdikləri kələm dolmasını qoymuşdular. Üstünə vurmağa turşu-şirin olmamışdı, elə-belə kələm dolması. Baxış kişi dərdi başa düşürdü. Qoltuğunda gətirdiyi səngəyi süfrəyə qoydu. Qadınlara ürək-dirək vermək üçün zarafata keçdi:

Yedin kələm dolması,
Çıxdı babovun ombası.

Heç süfrə yığılmamışdı ki, darvaza döyüldü. Qadınlar dönüb darvazaya tərəf baxdılar, gözlərində nigarançılıq, həsrət. Baxış kişi son tikəsini ağzına qoyub ayağa qalxdı. Evdə kişi olanda qapıya qadın getməz. Baxış kişi çuxasını düzəldə-düzəldə qapıya getdi. Darvazanı açdı. Tanımadığı bir adam idi.
-Bağışlayın, Baxış kişi…
-Baxış kişi mənəm.
-Qardaş, deyirlər, bizim ev əhli sizdədi.
-Hə, yəqin Gülnisə bacını deyirsən. Çünki Əminə bacının ərini tanıyıram.

Bu söhbətdə Gülnisə özünü darvazaya yetirdi.
-Rəşid…

Rəşid darvazadan içəri girdi. Baxışdılar. Baxışları qucaqlaşdı, qol-boyun oldu. Hər iki tərəfdən Baxış kişi, Əminə, onlardan sonra ev sahibi həsrətli ər-arvadı dövrəyə almışdılar. Bu iki mühacirin, didərginin qovuşması çoxdan bəri Gülnisəni sevən, bacı kimi əzizləyən Əminəni elə kövrəltmişdi ki... Bir tərəfdən ağlayır, o biri tərəfdən sevinirdi. Ürəyində bir ümid çırağı yanmışdı. Bir gün bəlkə İslam da beləcə qapını döyəcək və onu - Əminəsini və balasını götürüb gedəcəkdi. Bir gözündə həsrət, nigarançılıq, bir gözündə sevinc Əminə özünün gözəl, şirin dilli, gözəl səsli, sevimli rəfiqəsinə məhəbbət hissilə baxırdı.
-Şükür sənə, Xudaya, - deyə düşünürdü, - heç olmasa o, öz ömür yoldaşına, öz baş yoldaşına qovuşa bildi. Allah bütün mühacirlərə, Allah bütün sürgünlərə qismət eləsin. Bütün yiyəsiz qalan qadınlara, arvadlara, uşaqlara qismət eləsin Allah, böyük Allah, əlinin üstündə əli olmayan böyük Allah, gözə görünməyən böyük Allah özü xilas eləsin hamını beləcə.

Əminə hələ də İslamın başına nə gəldiyini bilmirdi. Baxış kişi faciəni ona danışmamış, acımışdı. «Zaman keçər, İslamın yoxluğuna adət edər. Onda...» - düşünürdü Baxış.

Qız özünü yaman unutmuşdu. Fikri, xəyalı yalnız onun yanında idi, onun yanında. Məgər Səfər onunla bir can deyildi? Canın yarısı orda qalmışdısa, Əsmər neynəyə bilərdi? Gəmiyə mindilər. Gəmidə gördükləri nəzərinə də gəlmirdi. Harda qaldılar, neynədilər? Fərqində deyildi. Camaat danışırdı ki, «bizi aparıb Nargin adasında dənizin dibinə tullayacaqlar». Başqaları deyirdi ki, «yox, Sibirə sürgün eləyəcəklər». Bunların heç birisi eyninə də gəlmirdi Əsmərin. Bəlkə heç eşitmirdi də. Bircə şeyi fikrləşirdi:
-Səfər, sənsiz mən necə olacağam?

Söhbətlər o qədər pıçıltı ilə yavaş-yavaş gedirdi ki! Adamlarda bir qorxu - 37-nin qorxusu elə yer eləmişdi ki, demək olar ki, Əsmərin bu pıçıltıları eşitməməyi də bəlkə təbii idi. Heç kayutaya da keçmədi. Yəni kayutada yer də yox idi. Amma hər halda kayutaya keçə bilərdi. Göyərtədə bir küncə sıxılıb oturmuş, dizlərini qucaqlamışdı. Ətrafında nə baş verdiyindən, kimin neynədiyindən xəbəri yox idi. Əlbəttə, Nargin söhbəti getdikcə uzaqlaşırdı. İndi adamlar yalnız gəminin Krasnovodska - Türkmənistan sahillərinə çatacağını, orda başlarına Sibir bəlasının gələcəyini düşünürdülər. Gecəni səhərə qədər belə keçdi.

Bir neçə dəfə anası, tanış-biliş, qohum-əqrəba, Əsmərin yanına gəldi, amma qız elə dizlərini qucaqlayıb bükülüb oturmuşdu. Yerindən tərpənmirdi; heç kəsi eşitmirdi. Nə su istəyirdi, nə çörək istəyirdi. Yadına heç nə düşmürdü, Səfərdən başqa. Ağlında, ürəyində, qanında, hüceyrələrində heç nə yox idi. Yalnız Səfər var idi. Öz-özünə düşünürdü. Ürəyində Səfərə məktub yazırdı: «Əzizim, mehribanım, nə deyə bilərəm sənə, Səfər? Gedirik. Sən onu bil ki, mən səndən başqa heç kimin haqqında belə düşünmürəm. Elə bilmə ki, qürbət ellərdə, yad ölkələrdə səni unudacağam. Qəbrimin üstündə bir qarış ot da bitsə, Səfər, səni unutmayacağam, unuda bilməyəcəyəm. Bilirəm ki, sən də məni elə istəyirən. Amma sənə bir sözüm var. Bu sözümü eşit, Səfər. Bacara bilsən, heç olmasa, sənsə məni unut. Bacara bilsən, başqasına evlən, göz bəbəyim! Oğlun-uşağın olar. Qızın olsa, mənim adımı verərsən. Mənim ətrimi ondan alarsan - balandan. Səfər, Səfər, göz yaşlarını görəndə yandı ürəyim. Səni gözüyaşlı görə bilmirdim. Qollarımda, əllərimdə, saçlarımda əllərinin təmasını duyuram, Səfər. İstərdim ki, bu hisslər məni heç bir vaxt tərk etməsin.»

Səhər açılırdı. Artıq adamlar Krasnovodska deyil, İrana gəldiklərini anladılar. Uzaqdan bayrağı gördülər - İran bayrağını, Ənzəli körpüsünün üstündə ucalan İran bayrağını gördülər və kişilərin bir çoxunun sinəsindən bir «urra» səsi qopdu. Bu «urra» Sibirdən ayrılmaq, Sibirdən xilas olmaq, bəlalardan xilas olmaq kimi gəlirdi onlara. Hamısı elə düşünürdü ki, azadlığa çıxıblar, azadlığa çıxacaqlar, Sibirdən xilas olublar. Gəmidən düşdükləri İran körpüsündə, İran gömrüyündə keçirtdikləri əziyyət də bu gecəkilərin üstünə gəldi. Əlbəttə, körpüdə bəziləri öz əzizlərini, qohum-əqrəbasını qarşılayırdı, bilənlər var idi. Əvvəlcədən gələn kişilərdən bəzisi arvad-uşağını qarşılayırdı burda. Bunların içində Baxış kişi də vardı. Arvad-uşağını neçə gün idi ki, körpüdə gözətləyir, Bakıdan gələn gəmilərə ümidlə baxırdı. Nəhayət ki, bu gün baxtı işlədi. Ailəsinə qovuşdu.

Gömrük yoxlaması bitəndən sonra mühacirləri yığıb bir sürü kimi, böyük bir dəstə kimi Nobel parkına apardılar. Nobel parkında hərə bir kətilin, hərə bir taxta oturacağın üstündə əyləşib, ailəliklə baş-başa verdilər. Burada artıq Cəmiyyəti-Xeyriyyə əmələ gəlmişdi. Əvvəldən gələnlərin təsirilə, köməyilə. Cəmiyyəti-Xeyriyyənin nümayəndələri gətirib burada - parkda gecələməli olanlara bir parça çörək, su, çay - çay gətirən də var idi - verirdilər. Səhərdən saylama başlandı. Bir hündür kətilin üstünə çıxmış məmur bir-bir adamları çağırırdı. Dünəndən bəri, Bakıdan çıxdığından bəri dilinə heç bir şey vurmayan, büzüşüb, dizlərini qucaqlayıb oturan Əsmərin də atasını çağırdılar.

-Kişi, hardansan?
-İndi heç yerdən, ay bala! Ulularım vaxtilə Ərdəbildən olub. Ərdəbil tərəfdə bir Qışlaq kəndi var idi, ordan idilər. Dədəmin yanında neft mədənlərinə getmişdim, körpə vaxtında.
-Yaxşı kişi, al sənin kağızuvi, bu da sənə 3 tümən yol pulu. Gedirsən burdan birbaşa dədənin kəndinə.

Əsmər bunları da eşitmirdi, bunlara da biganə idi. Gecəni burada - Ənzəli məscidinin həyətində, hücrəsində keçirtdilər. Yenə də Əsmər hamıya laqeyddi. Öz düşüncələrinə dalmışdı: «Yanıram, Səfər, yanıram. Sənsiz yaşamaq mənə qismət olmayacaq. Bu son məktubumu sənə çatdıran olsaydı... Bu son məktubumu oxuya bilsəydin... Axtarıb tapa da bilməyəcəksən məni, Səfər. Bu dərd mənimlə torpağa gedəcək. Sənsiz yaşaya bilməyəcəyəm.»

Gecə düşmüşdü. Qız ürəyində yazdığı bu məktubun kağıza köçmədiyini və heç bir zaman Səfərə çatmayacağını bilmirdi, duymurdu, anlamırdı, başa düşmək belə istəmirdi. Ona elə gəlirdi ki, yazır və bu yazdıqlarını Səfər oxuyacaq və onun sədaqətini başa düşəcək, biləcək. Biləcək ki, Əsmər onsuz yaşamadı, yaşaya bilməzdi. Qız qalxdı. Dörd bir tərəfinə nəzər saldı. İki gündən bəri əzab içində, yorğunluq içində, az qala şüurunu itirmiş adamlar məscidin həyətində yatmışdılar, içərisində yatmışdılar. Məscidin dəhlizində bir çıraq yanırdı. Qız yaxınlaşdı, çırağı götürdü, həyətin adamdan xali bir yerinə keçdi. Neynədiyini özü də düşünmürdü. O zamanlar Bakıda dəb düşmüş bir vasitəyə əl atdı. Çırağın neftini üstünə səpdi və közərməkdə olan fitili ilə canına od vurdu. Od vurdu! Bədəni alışdıqca, əvvəlcədən bəlkə də yanan ürəyi bu istini heç hiss eləmirdi. Amma bütün bədəni alovlanıb şam kimi yanmağa başlayanda, «Səfər» qışqırdı, «ana» qışqırdı, «ata» qışqırdı, fəryad elədi. Bütün məscid camaatı, yəni məsciddə gecələyənlər, həyətdə gecələyənlər bu hayqırtıdan ayağa qalxdılar. Meydanın ortasında, həyətin ortasında nəhəng bir məşəl kimi alovlanan qızı gördülər. Anası da, atası da gözlərilə Əsməri axtarıb tapmayanda anladılar, hər ikisi başına döyüb ağlamağa başladılar. Bu nəhəng məşəli söndürmək mümkün deyildi. Sonacan, məhəbbətinin sonunacan yanmalı idi. Yandı da. Közərib külə dönmüş, külə dönməkdə olan qız, həyətin ortasında böyrü üstə düşmüşdü. Adamlar dövrəsinə yığılmışdılar. Ata ilə ananın, bacı-qardaşının faciəsinə, başlarına döyüb ağlamaqlarına baxır, onların da içində ağlayan vardı, onların da içində yanan vardı. Kimi deyirdi: -«bəxtəvər, qurtardı bundan sonrakı əzablardan». Kimi deyirdi: - «yazıq, özünü o dünyadan da elədi, bu dünyadan da. Hər iki dünyadan elədi öznü yazıq. Canı çox ağrılıymış. Yoxsa canına belə qəsd eləyə bilməzdi.»

Baxış kişi artıq bir nəfər azalmış ailəsi ilə birlikdə sərgərdan qalmışdı. Qıza namaz qılan da olmadı, qıza kəfən də tapılmadı. Ananın böyük boxçasına bükdülər. Qəbristanın qırağında qəbir qazıb dəfn elədilər. Dini-İslam cana qəsdi qadağan eləyirdi. Amma hətta ən qatı dindarlar belə Əsmərin faciəsinə hayıfsılanırdı.

Əsmərin ürəyində yazdığı məktub Səfərə çatmadı, «məktub yetişmədi», əlbəttə. Amma bir neçə aylar sonra Baxış kişi o taya xəbər göndərə bildi. Xəbər göndərə bildi ki, «Zibeydə bacı, başın sağ olsun, Əsmər əlimizdən getdi. Oğlunu, bacara bilsən, soyut. Nişanından azaddı, Allah xoşbəxt eləsin balanı, mənimkiynən xoşbəxt ola bilmədi. Bəlkə başqa birisiynən xoşbəxt oldu...»

Bəziləri Baxış kişini danlayırdı:
-Əyşi, bu nədi? İslamın da külfətini özünə yük eləmisən. Bu ağır, çətin macalda özünün bir gün-dirriyin var ki, onlara da yiyə durmusan?

Bir başqası deyirdi:
-Əgər İslamın sağ olmağına ümid olsaydı, yenə də bir şeydi; dərd yarıydı.

Bu söz-söhbətlərə bəzən hətta Ağanisənin də dilsiz etirazına zahirdə bir-iki cavabı vardı Baxış kişinin:
-Ay bala, deyərlər qonşu haqqı ata haqqı kimi, ana haqqı kimi, Allah haqqıdı. Qonşudu, keçmək olmur, eləmişəm, noolar, yaxın qonşu olmuşuq, bala kimi isnişmişəm hər ikisinə, balam bilmişəm.

Ürəyində isə Baxış kişi düşünürdü: «Bilirəm, bilirəm ki, İslam bir də o dünyadan dönüb, gəlib külfət aparmayacaq, hamısını bilirəm. Amma özümlə də bacara bilmirəm. Bu bədbəxtimdən sonra - Əsmər balamdan sonra mehrimi salacağam buna. Salacağam deyəndə ki, elə əvvəldən Əsmərnən yaxın qonşu olanda, dost idilər, mehriban idilər. Bir-birinə can deyib-can eşidirdilər. İndi elə bilərəm ki, Əsmər balamın yadigarıdı. Elə bilərəm ki, Əsmər balamdı. Balası da nəvəmdi. Qismət olmadı Səfərə. Bəlkə baba olacaqdım, Allah bilən məsləhətdi. Elə indi, elə billəm ki, Əsmərdi Əminə. Balası da nəvəmdi.»

Kişi belə düşünürdü. Başqa çarəsi yox idi. Çətin çağıdı. Doğrudan da camaat öz külfətinin, öz ailəsinin dərdini çəkdiyi, neynəyəcəyini bilmədiyi bir dövrdə başqa birisinin də ailəsini öz üstünə yük eləmək zor iş idi, ağlasığmaz məsələ idi. Amma bu çətinliyə Baxış kişi dözürdü. Özü götürmüşdü üstünə, nə şikayətlənməyə, nə deyinməyə ixtiyarı yox idi, yəni heç istəyi də yox idi. Allahdan gələn qismət bilirdi bunu. Belə bir etiraz olsa-olsa, bəlkə də Ağanisədə, bəlkə də balalarında, o birisi balalırnda - oğlunda, qızında olardı, onda yox. Onlar da ki, hələ balacaydılar. Atanın dediyinə nə sözləri ola bilərdi? Ata külfətin başıdı; nə desə, nə eləsə, özü bilərdi. Etiraz nədi? Baxış kişi doğrudan da Əminəni Allah qarşısında Əsmər yerinə görürdü, Əsmər yerinə götürmüşdü boynuna, Əsmər əvəzi.

Elə bu günlərin birində, ən ağır, ən yoxsul günlərinin birində Baxış kişinin gözü qabağında qeyri adi bir hadisə baş verdi. Qarşısına bir zabit çıxmışdı. İran zabiti. Boylu-buxunlu, mütənasib bədənli. Birdən ona elə gəldi ki, İran zabiti paltarındakı bu adam Bakıda həmişə həyətlərinə uşaqlarıyçün süd apardığı, o beşinci mərtəbəyə həmişə həvəslə düşüb-çıxdığı generalı görür. General Mustafa ilə qəfildən üz-üzə gələndə və Baxış kişi heyrətindən ağzı açıla donub qaldığı bir vaxtda Mustafanın iri, qara gözlərində nə isə oxudu. Nə isə oxudu və anladı ki, onu tanımamalıdır. Gördüyünü, tanıdığını əvvəllərdən bir-birinə yaxın olduğunu büruzə verməməlidir. Donub qaldı.

Zabitsə elə bil daxili bir əzab keçirdərək gözlərini başqa uzaq səmtə çevirdi və ardınca gələn adyutantına nə isə dedi. Uzaqlaşdılar bir-birindən. Salamsız-kəlamsız uzaqlaşdılar. Baxış kişi isə yerindəcə qaldı. Mustafa gedəndən, xeyli uzaqlaşıb keçəndən sonra Baxış kişi yoluna düzəldi, evlərinə tərəf yol aldı. Amma ürəyində bir həyəcan, bir qarma-qarışıqlıq əmələ gəlmişdi. Gəlmişdi. Onu general Mustafaya oxşatdı. Belə düşündü: Səhv etmişəm yəqin. Generalın burda nəyşi var? İranda, burda. Heç inanılası deyil. O, məni tanımadı, o, məni tanımadı. Hardan tanıyaydı? Harda, haçan görmüşdü? Amma mən... Amma mən, aman Allah adam-adama necə oxşuyur eyyy...

Adam-adama oxşamırdı burda. Ona görə ki, Baxış Baxış kişiydi, Mustafa da Mustafa.

Mustafa Baxış kişini tanımışdı. Biruzə verə bilməzdi. Uzun illər balalarına süd daşıyıb o mərtəbələrə... Mustafa düşünürdü: Balalarımın ana südü olmayanda Baxış kişinin qızıl inəyinin südü köməyimizə gəlib, o südün umuduna böyüyürdülər. Kişi deyirdi: Qorxma, vallah, bizi yaradan Allaha and olsun təmiz süddü. Nigaran qalma. Bir qram da su vurulmur böyrünə. Arvad elə Allah adamıdı ki, mənnən də beş-betər. O, satılıb, vedrənin dibində qalan südü də yaxalayıb südə qatmaz; haramdı, kişi, halal malımıza haram qatmaram. Onun sözü olmasın, balalarun sənün gül kimi təmiz, halal böyüyəcəklər. Qorxub eləmə, ürəyini buz kimi

saxla - deyərdi Baxış kişi. Generalın bu yadından çıxmazdı heç. Düşünürdü: «Bu ağır zamanda, bu çətin günlərdə, doğma vətəninin qürbətə çevrildiyi vaxtda nəylə kömək eləyə bilərəm ona? Görəsən nəyə ehtiyacı var? Özüm... Yox... Gərək burdakı yoldaşlardan soruşam, tapşıram öyrənsinlər dərdini, ehtiyacını. Gözümə çox qəmli göründü. Mühacirlərin hamısı bir dərddədi. Amma deyəsən Baxışın ayrı bəlası da var...»

Mustafa Əsmərin faciəsindən xəbərsizdi. Dostlarından biri mətbuatda çalışırdı. Arabir görüşürdülər. Mustafa xahişini ona deyəndə böyük məmnuniyyətlə razılıq verdi. Heç bir gün keçməmiş xəbər gətirdi ki, Baxışın bədbəxt qızı məscidin həyətində özünü yandırıb. Arvadı Ağanisə də kişinin apardığı kənddə dayana bilməyib. Külfətini saxlaya bilməyib. Qayıdıb gəlib. Öz dərdi özünə azmış kimi qonşuları İslamın külfətini də öz yanına alıb; göy məscidin dalındakı həyətlərdən birində otaq krayələyib orda qalır. İslam isə sərhəd bərkiyəndən sonra bu taya gələ bilməyən arvadı ilə uşağını gətirməkçün gizlincə sərhədi keçmək istəyib; o taylı-bu taylı sərhədçilərin gülləsinə məruz qalıb. Dörd özü, iki də İslamın ailəsinin yükünü çiyninə götürən Baxış kişi İslamın ölüm xəbərini heç kimə deməyib. Mustafa dostundan xahiş etdi:
-Dostum, - dedi, - arabir «Cəmiyyəti-xeyriyyə»lərin əli, adıyla onlara əl tut, bax bu pulu da götür, ərzaqdan-filandan aldır verdir onlara. Ev sahibinin də kirayə haqqını təkə-tək ödə. Arabir mənə də xəbər ver, görüm vəziyyətləri necədi? İşləri nə yerdədi?

Beləliklə də Baxış kişinin qaranlıq taleyində Allah bir işıq ucu göstərdi ona.

Bir gün Baxış şəhəri dolanıb bir iş tapa bilməyib əliboş, üzüqara, əli ətəyindən uzun evə dönəndə gördü ki, həyətdə xeyli canlanma var. Əminə də, Ağanisə də, elə uşaqlar da nə isə bir xörək hazırlayırlar, tüstülənən manqalın başına fırlanırlar, kürədə çay qoyublar. İçəri girdi. Həyətə girən kimi soruşdu:
-Ay Ağanisə, a Qafur qızı, kimin yolun kəsmisən?
-Yol kəsməmişəm, ay Baxış, Allah haqqı, o xeyrat cəmiyyətindən bir oğlan gətirmişdi - oğlan uşağı.
-Ay arvad, di öyrən axı, Xeyriyyə cəmiyyəti, Cəmiyyəti-Xeyriyyə.
-Nə bilim, ay Baxış, savadsız arvadam, mən nə bilim xeyriyyədi, xeyratdı? Öyümdə bişməyib, qonşudan gəlməyib. Harda görmüşəm biləm? Nə idisə, bir oğlan uşağıydı, iki səbət şey gətirdi. Dedi ki, bunu sizə göndəriblər Cəmiyyəti-Xeyriyyədən. İçində heç olmasa bir həftəlik, azı deyirəm a, hələ bir ehtiyatla dolansan, bəlkə bir iki həftəlik ərzaq var.
-Allah razı olsun göndərəndən. O birisi qonşulara da göndərdilər?
-Vallah bilmirəm, heç birisindən soruşmamışam. Ancaq oğlan yerli-yataqlı sənin adını dedi, ondan sonra külfətin sayını dedi, dedi ki, Cəmiyyəti-Xeyriyyədəndi. Ayrı qonşu adı çəkmədi vallah.
-Hə, - Baxış fikrə getdi, - əgər qonşulara da gəlməyibsə, onda səhv eləməmişəm. Gördüyüm elə Mustafaymış. Bəs neyçün, neyçün mənə tanışlıq vermədi? Neyçün İran paltarındaydı, İran zabiti? Görünür burda nəsə bir hikmət var. Əlhökmülillah. Allah bilən məsləhətdi. Hər halda, sağ olsun. Allah amanatı. Yaxşı insandı, bunsuz da. Elə axıracan da yaxşı insan yaxşı qalır. Dünya yaxşılar üstündə bərqərardı, Rəbbim. Çox şükür sənə, çox şükür yaratdığına. Ağır günümdə özün onun əliynən ruzi verirsən bizə. Min şükür sənə, min-min şükür - düşünürdü kişi.

Baxış kişi nə biləydi? Onun kəşfiyyat, əkskəşfiyyat əməllərindən xəbəri yox idi. İranda nələr törəyir? Avropada nələr törəyir? Hitler deyilən o qansız kimdi? Stalin nə düşünür, nə tədbir görür? Sovetlərə almanın hücumu olacaq-olmayacaq, Hitler gələcək-gəlməyəcək? Baxış kişi bunları bilmirdi. Əsmərin alovu yandırmışdı ata ürəyini. Ayrı heç nəyə qabil deyildi.

Avropada isə... Avropa artıq faşist caynağında idi. Avropa bir Allaha xidmət eləyirdi - Hitler! Avropa bir sərkərdəyə qulaq asırdı, barmağı göstərən tərəfə cumurdu - Hitler! Avropa bir

nəfərin dediyini deyirdi, Avropa bir fərdin dediyini deyirdi - Hitler. Hitlerlə gülür, Hitlerlə coşur, Hitlerlə haqqırırdı - hayl, hayl, hayl. Onun «Mayn kamp» əsəri əllərdə gəzirdi. Qabaqcıl ziyalıların çoxu Avropanı tərk etmişdi. Əksəri İngiltərədə, Amerikada, hətta Afrikaya belə keçənləri də var idi. Hitlerizmin tapdağı altında, Hitler soldatlarının təpiklərinin səsi, ritmi altında yaşamaq mümkün deyildi. Yaranan ölüm lagerləri, ölüm kürələri, yaranan ölüm sobaları, boş qalmış evlər, yetim qalmış uşaqlar, dul qalmış gəlinlər, ağlar qalmış analar. Bu idi Avropa. Bu gözləyirdi Rusiyanı. Stalin və Rusiya bundan xilas olmaq üçün SSRİ sərhədlərini möhkəmləndirməyə çalışırdı. Dünya üzərində ölüm mələyi qara qanadlarını açıb süzür, ölüm yayırdı və Rusiya və SSRİ bu faciədən az əzab çəkmək üçün, ya heç əzab çəkməmək üçün öz cənub sərhədlərini bərkidir, buradan Hitler xəfiyyələrini, Hitlerçiləri qovub çıxartmağa, rədd etməyə çalışırdı. Bu siyasətin qurbanı idi Azərbaycan türkləri, bu siyasətin! Buradan həmşərilərin, pasport qeydiyyatında olmadığı, vətəndaşlığı qəbul eləmədiyi siyasəti altında Rusiya Cənuba külli miqdarda kəşfiyyatçı keçirtdi. O kəşfiyyatçıların içərisində, əlbəttə, o zamankı respublikanın kəşfiyyat idarələrinin adamları, inanılmış, II Dünya savaşında xüsusi şöhrət qazanmış, etibar qazanmış şəxslər var idi. Mustafa da beləl追ərindən idi. Amma Mustafanın, bütün hərbi sirlərə vaqif olan və onu şüşədən su sızmayan kimi qəlbindən, varlığından, gözlərindən sızdırmayan Mustafanın ürəyində bir guşə vardı ki, o guşədə əsl insan məhəbbəti, qardaşının məhəbbəti, türk qardaşının, öz qardaşının, doğma yurdunun başına gətirilən bəlaların qurbanı olanların məhəbbəti yaşayırdı. Elə buna görə də Mustafa dostuna Baxış kişini izləyib tapdırdı. İndi artıq gizli yollarla Baxış kişiyə əl uzadır, yardım verirdi. Amma elə bir ustalıq, elə bir ciddiyyətlə qoruyurdu bu sirri ki, bircə an da olsaydı, rəhbərlik, SSRİ-nin nümayəndələri, hətta ona da nəzarət eləyən nüməyandələri duysaydı, bir an da Mustafa İranda duruş gətirməz, Cənubda qala bilməzdi. Halbuki Mustafa burada təkcə vəzifəsini yerinə yetirmək deyil, eyni zamanda güneyli qardaşlarının həyatına yetik olmaq, onların həyatını öyrənmək, hardasa gərək olsa, onlara da yardım etmək fikrindəydi.

Kərim əmi səhər-səhər işə getməzdən xeyli əvvəl qalxdı. Saatı yoxudu; zavodların fit səsindən işə gedəcəyi vaxtı təyin edirdi. Və bu gün son həftəni bir-iki günüydü ki, çox vacib bir işlə məşğul idi, Allah qarşısında, vicdanı qarşısında bu işi yerinə yetirməli idi. Arıq, uzun boylu bir kişiydi Kərim əmi. Artıq yaşı çoxdan bəlkə də yetmişi ötmüşdü. Başında üç-dörd dənə dəngül-düngül tük qalmışdı. Bu tükləri hər səhər işə getməzdən əvvəl həyətdə, balaca cib güzgüsünə baxa-baxa kiçik darağıyla diqqətlə, dönə-dönə, səylə başının daha çox daz qalmış tərəfinə darayırdı. Hər səhər olduğu kimi bu sabah da saç əməliyyatını yerinə yetirib, səliqəli, qəşəng geyimi ilə, çox zəngin olmasa da, çox zərif, qəşəng geyimində həyətə çıxdı. Balaca güzgünü yenidən əlinə alıb o üç-dörd telini saçının daz yerlərinə yaymağa çalışdı. Xeyli əlləşdi bunun üstündə və nəhayət bir şey alınmadığını görüb şlyapasını başına qoydu, pencəyinin yaxasını düymələyib, küçəyə çıxdı. O, bir-bir evləri gəzirdi, dankom idi. Dankom o zaman Evlər idarəsini əvəz eləyən ev komitələrinə deyilirdi. Vəzifəsi nəzarət eləmək, qeydiyyatsız yaşayanları üzə çıxarmaq, yaxud onlara anlatmaq ki, qeydiyyatdan keçsinlər, pasport dəyişdirilməsində, yeni pasport alınmasında adamlar onsuz keçinmirdi. Gənclər üçün hər hansı sənəd alınması da onun vəzifəsiydi. Sənədləri o hazırlayırdı. Odur ki, məhəllədə bütün kişiləri - uşaqlı-böyüklü, ailə sahiblərini tanıyırdı. Bir-bir bu gün də dünənki kimi bir-bir o taylı qardaşların qapılarına yaxınlaşır, yavaşcadan ailə başçısını səsləyib, həyətə çağırır, bir küncə çəkib deyirdi:

-Baxış kişi, pasport al, sovet pasportu al. Qardaş, mənim sözümü eşitginən. Nə deyirəm, bilirəm nə deyirəm sənə. Sovet pasportu al.

-Eeeh, ay Kərim kişi, ay qardaş, axı mənim şurəvi başbiliti nəyimə gərəkdi, heç başbilit nəyimə gərəkdi? Qoca kişiyəm, işim yox, idarədə işləmirəm, naçalnik döyüləm, bir şey döyüləm. Gedirəm töylələrə, inəyin südünü sağıram, gətirib paylayıram qapı-qapı. Hamı da tanıyır, hamı da hörmət eləyir. Çox sağ ol, dediyinə görə.

-Nə bilim, özün bilən yaxşıdı. Amma hər halda gərək məsləhətimə qulaq asaydın.

Ordan sağollaşıb Hüseynəli kişinin qapısını döyürdü.
-Hüseynəli, ay Hüseynəli...

Hüseynəli:
-Ay xoş gördük, sabahın xeyir, Kərim kişi, nə əcəb səndən belə tezdən heç itnən qurd seçilməzdən qalxmısan yerindən?
-Vacib sözüm var idi sənə, Hüseynəli. Məsləhət görürəm ki, İran pasportunu dəyişdir, sovet pasportu al.
-Kərim kişi, yoxsa işin az düşüb, sənəd doldurmaq istəyirsən? Dokument hazırlmağa darıxmısan? - deyə Hüseynəli zarafata salırdı.
-Yox, Hüseynəli, zarafata salma. Mən nə dediyimi bilirəm. Məsləhətimə qulaq assan, yaxşı olar. Neynək, onsuz da yaşadığın yerdi buralar də...
-Hə, neynək, neynək, çalışaram. Görək də, bu bir-iki aya, hələ qoy özümə gəlim, bir balaca iş-güc var, uşağın xeyir işi-zadı var. Qoy görüm, onları qurtarım, ondan sonra, Allah qoysa, düşünərik.
-Nə deyirəm, özün bil. Amma hər halda qulaq assaydın...
-Qulaq asıram, vallah, qulaq asıram, Kərim kişi. Sənin sözün mənim yanımda Quran ayəsi kimi bir şeydi. Nigaran qalma, dəyişdirəcəyəm, dəyişdirəcəyəm, bir-iki ay möhlət ver mənə.
-Mənim möhlətimnən deyil, özün bilən yaxşıdı.

Burdan Kərim kişi əslən bakılı olan, amma bu yaxınlarda, bu yaxınlarda deyəndə ki, bir neçə il bundan əvvəl oğlu əsgər getməsin deyə, ailəsinə İran pasportu düzəldən Vəli kişinin qapısını döydü.
-Vəli, ay Vəli...
-Ay sabahın xeyir, ay xoş gördük səni, Kərim kişi. Nə darıxmısan, nolub? Nə xəbərdi belə səhər tezdən?
-Yox, darıxmağına, darıxmamışam. Vəli, bax, haqqı-salam haqqı, Allah haqqı, mən bilirəm sən niyə pasportunu dəyişdirdin İran pasportuna; amma indi keçib. Tərslik eləmə, indi heç olmasa pasportlar dəyişdirilir. Sən də pasportunu dəyişdir. Bakılı babasan, neynirsən İran pasportunu? Uşağının əsgər getməyinə görə elədin, onda elədin, amma indi...
-Amması nədi, ay qardaş, nə təfavütü var? Bu qədər burda iranlı var, biri də artıq mən olum.
-Nə deyirəm ki, özün bilərsən.

Beləliklə, Kərim kişi məhəllədə o taylı qardaşların, yaxud ümumiyyətlə, pasportu o taylı olanların hamısının bircə-bircə qapısını döydü.

Zaman gəldi, Vəli kişi böyük müsibətlə doğmaca, yerlicə, qədim bakılı olan Vəli kişi iranlı, həmşəri adıyla tutulub Bayıla salındı. Burada nəyi ona sübut elədilər, nə dedilər, nə danışdılar, heç kəs bilmədi. Ailəsini də, özünü də bir gün gəmiyə mindirib heç bir qohumu, əqrəbası olmayan, «tanımadığı bir məmləkət» deyərdim ona, İrana saldılar yola, Ənzəliyə. Kərim kişinin fəaliyyəti o günlərdə çox böyük idi. Əgər ona qulaq assaydılar, əgər qulaq assaydılar. Amma yox. Deyəsən heç qulaq assaydılar, pasportları dəyişsəydilər də, dillərindən, təhər-tövürlərindən məhəllədə «zelyonnı» dedikləri milis müvəkkili də (əslində onun familiyası Zelyonkin idi, camaat ona zelyonnı deyirdi), hə, həmin bu zelyonnı da, o qara geymiş Nora da, Qrişanın, Qriqoryanın bu yerlərdə daimi qulaqçısı olan Nora da bir-bir iranlıları tanıyırdı və onların hamısı onsuz da lazımi siyasət qurbanı olan sovet hökumətinə, Rusiyaya gərək olan siyasətin qurbanı olacaqdılar. Onsuz da yola salınacaqdılar. Pasport dəyişməyin də bir əhəmiyyəti yox idi. Amma hər halda Kərim kişi öz vicdani vəzifəsini yerinə yetirmişdi. Sovet qanunlarının getdikcə möhkəmləndiyini görürdü. Ağıllı kişiydi... Hər halda... Bəlkə də hardansa duymuşdu, ya eşitmişdi, bilmişdi ki, iranlılar yola salınacaq. Ona görə də bir-bir qapıları gəzib hamısını, əsas məqsədi demədən, əsas məsələni açmadan, 37-ci il

uzaqda deyildi axı, necə deyə bilərdi bildiklərini? Özünü də təhlükəyə sala bilərdi. Odur ki, əsas səbəbini demədən «pasportunuzu dəyişin, sovet pasportu alın», deyirdi.

Onun xüsusilə diqqətindən yayınmayan, xüsusi diqqət yetirdiyi adam Kəbutər idi, Əlihüseynin ikinci arvadı Kəbutər. Kəbutər əslən şirvanlıydı, Şirvan mahalındandı. Birinci bəxtindən iki övladı olmuşdu - bir qızı, bir oğlu. Amma tezliklə kişi vəfat etmişdi və dul Əlihüseyn bu dul qadına elçi düşüb iki balasıynan qəbul eləmişdi. Qəbul eləmişdi və özü iranlı olduğu üçün arvadına da İran pasportu almışdı, düzəltmişdi. Bu hadisədən Kəbutərin bəlası hamıdan betər idi. Birinci ərindən olan oğluynan qızı böyük baldızının yanında qalırdı. Baldızı uşaqları ona verməmişdi, özü saxlayırdı qardaşı balalarını. Əlihüseyndən də bu yaxınlarda bir oğlu olmuşdu. Əlihüseynin tutulduğundan sonra, yola düşmək vaxtı çatanda, Kəbutər Ruzigar xanımın yanına gəldi:
-Ruzigar bacı, canım sənə qurban, - dedi.
-Noolub, ay qız?
-Nə olacaq? Bilirsən ki, Əlihüseyni apardılar.
-Bilirəm, eşitmişəm, a bədbaxt.
-İndi mən də iranlı arvadlarına qoşulub getmək istəyirəm.
-Ay kül ağluva olsun, hara gedirsən? Nə bilirsən Əlihüseyn hardadı? Hardan tapacaqsan onu orda? Orda kimin-kimsən var?
-Ruzigar bacı, o iki balamı görə bilmirəm. O iki balamın dağı sinəmdədi, yandırır məni. Birini də mənə göstərmirlər. Haqlıdı, baldızım gerçəkdən haqlıdı. Gərək elə millətimin, elimin, camaatımın qaydasıycan, saçımın birini ağ, birini qara hörəydim. Oturaydım, balalarımı saxlayaydım. Əri neynirdim? Təzədən uşaq doğmağı neynirdim?
-Nəynən saxlayacaqdın, ay bədbaxtın qızı? Ərin sənə kürül-kürül pullar qoyub rəhmətə getmişdi?
-Hər nə idisə, gedərdim işləyərdim. İndi şura hökuməti arvadlara iş verir, deyirlər. Gedərdim işləyərdim. Jenotdellərdən xahiş eləyərdim. İndiki ağlım onda olsaydı...
-Heç indiki ağlın da bir şey deyil, ondakı ağlın da bir şey olmayıb.
-Nə isə, Ruzigar bacı, səndən xahiş eləyirəm. Bax, Əlihüseynin kəndi, kəndinin adını bilirəm, əqrəbasını da bilirəm, ordadı. Bax bu kəndin adını yazmışam, Əlihüseynin əqrəbasından da bir-ikisinin adını bilirəm; yazmışam, verirəm sənə. Əgər işdi, zaman gələr, balalarım böyüyürlər. O böyüyüm - oğlum, üzüm ayağının altında olsun, bacı, oğul deyirəm, birdən işdi imkanın oldu, onu yanına çağırarsan, bu kəndin adını verərsən, deyərsən ki, bədbəxt anan ordadı, sizdən ötəri yana-yana getdi, çarəsi olmadı. Göz dağı olmuşdunuz ona, davam gətirə bilmədi. Bu birisini də yetim qoyub, bu yetimnən də birlikdə burda qala bilmədi. Ruzigar bacı, qurbanın olum, ayağının altında ölüm, bax bu kəndin adı, bu Əlihüseynin əqrəbasının adı, yazmışam.

Kəbutər bu sözləri hönkürtüylə deyir, gözlərini silə də bilmirdi.

Ruzigar xanım kağızı aldı, qatladı. Qatlaya-qatlaya dolmuş gözlərinin yaşını yaylığının ucu ilə silə-silə dedi:
-Nigaran olma. Gözüm üstlərində olar, vallah. Deyərəm, danışaram bildiyimi səndən onlara.
-Qız bir az sərtdi, Ruzigar bacı. Qız bibisindən tökdüklərini yaxşı yığıb. Məni tanımaq da istəmir, görmək də istəmir. Haqqı da var. Amma oğlan... Oğlanın mənə məhəbbəti çoxdu, Ruzigar bacı. Rəhmətlik atası kimi ürəyi yumşaqdı, torpağı sanı yaşasın.
-Hə, - Ruzigar dedi, - Allah rəhmət eləsin. Balasını da Allah torpağı sanı yaşatsın, xoşbəxt eləsin. Qalan ömrünü ona bağışlasın.
-Eh, Ruzigar bacı, ömrü qalsaydı, özü yaşayardı. Nəsə, can sənin, can balalarım əmanəti, muğayat ol onlardan, Ruzigar bacı. Bilmək olmaz dünyanın işini, bir də gördün, məktub yazmaq mümkün oldu, yazaram sənə. İncimәzsən ki?

Onlar bilmirdilər ki, az sonra nə məktub yazmaq olacaq, nə göndərmək. Heç xaricdə (Xaricdə!!!) qohumun olduğunu da gizlədəcəksən. Deyə, dilinə gətirə bilməyəcəksən.

37-ci il uzaqda deyildi. Ruzigarın ürəyi titrədi. Xarici ölkədən məktub almaq... Amma yenə də Kəbutərin sınıq könlünü qırmaq istəmədi. Uzun illərin qonşusu...
-Hə, neynək, baxarıq da, Allah Kərimdi.
-Hə, belə.

Amma bütün bu söhbətlərin heç bir nəticəsi olmadı, sonu olmadı. Kəbutər körpəsilə birlikdə gəmidən düşdü. Körpünün kənarında oturmuşdu. Birdən hamı dağılışıb gedənə yaxın ona bir kişi yaxınlaşdı:
-Bacı, kimlərdənsən bəs sən? Qabağa çıxan olmadı? Yerin-yurdun, ərin yoxu? Nəçisən?

Kəbutər bir ümidlə dedi:
-Şəbüstərdən, Allah verənlərin nəslindən. Xudabaxışın oğlu Əlihüseynin külfətiyəm.
-Bıy, nə danışırsan, bacı? Nə yaxşı oldu. Hüseynəli mənim doğmaca əmim oğludu. Xudabaxış kişi eşitmişdi ki, köçürdürlər sizləri. Özü də elə buralara gələcəkdi. Qocaya mən yaxşıca kömək elərəm. Sizi götürüb apararam Şəbüstərə.

Qəlbinin dərinliklərində nəsə bir etiraz əlaməti var idi. Bir hiss sanki onu saxlayırdı. Amma başqa bir ümidi yoxudu.
-Qardaş, sən Həzrət Abbas, doğru deyirsən?
-Bıy, ay bacı, Həzrət Abbasa mənim canım qurbandı. Əlbəttə ki, doğru deyirəm. Hüseynəli hələ buralarda görünməyib. Mən elə bir neçə gündü onu gözləyirdim, güdürdüm ki, bəlkə gələr, kömək eləyərəm. Xudabaxış əmi mənə özü tapşırmışdı. İndi sənə rast gəlmişəm, apararam səni, tapşıraram qaynatana, qaynanana. O vaxtacan Hüseynəli də gələr çıxar.

Beləliklə də Kəbutər tanımadığı o naməlum kişiyə qoşulub yola düşdü. Ondan sonra Kəbutəri gördüm, eşitdim deyən olmadı. Harda idi? Kim idi onu aparan? Balasıynan birlikdə yoxa çıxdı Kəbutər. Böyük İranın hansı kəndində, hansı nöqtəsindəydi, bilən olmadı.

Sonralar bir neçə dəfə onun əvvəlki ömür yoldaşından olan oğlu Əbdüləli Ruzigar xanımın yanına gəlib anasını soruşurdu, soraqlaşırdı. Tarixdə, millətin taleyində hava yumşalana bənzəyəndə, xüsusilə dünya savaşı günlərində Əbdüləli tanıyan-bilənlə İrandan xəbər tuturdu, soraqlaşırdı. Anasından soraq bilmək istəyirdi. Ruzigar xanım anasının qoyub getdiyi o balaca kağız parçasını Əbdüləliyə vermişdi. Müharibə günlərində Əbdüləlini əsgər apardılar. Elə qatarla cəbhə xəttinə yaxınlaşanda, qatardan düşmüşdü, sən demə geri çəkilən düşmən bu yerləri minalayıbmış, Əbdüləlinin ayağı minaya dəydi, parçalandı. Yoldaşları onun cibindən bir parça kağız tapdılar. «Şəbüstər, Allah verənlər nəsli, Xudabaxışın oğlu Hüseynəlinin külfətiyəm» yazılmışdı bu bir parça kağızda.

Ruzigar xanım uzun illər sonrayacan Kəbutəri də, onun oğlunu da xatırlayırdı. Hər ikisi məktub yazmağa söz vermişdilər. Amma eyni taleli oldular, anaynan bala. Ruzigar xanım nə ondan soraq tuta bildi, nə bundan. Nə ondan məktub ala bildi, nə bundan. Amma ürəyində bədbəxt Kəbutərin qara taleyi acı bir hiss kimi ilişib qalmışdı. Zaman-zaman Ruzigar xanımın yadına düşürdü. Zaman-zaman Ruzigar xanım qəlbində bir ağı deyib oxşayırdı onların hər ikisini, ananı da, balanı da. Ruzigar xanımın qəlbində neçə belə talesizin məzarı qazılmışdı? Kim bilir! Çoxlarına ana olmuş, nənə olmuş Ruzigar xanım o məzarları qəlbində ziyarət eləyirdi. Qəlbində su damladır, dən səpirdi quşlar üçün o məzarların üstünə. Axı elə Kəbutər özü də göyərçin deməkdi, uçdu, getdi. Amma Ruzigar xanımın qəlbində ömrünün sonunacan yaşadı, Kəbutər də, oğlu da. Dərbədər Kəbutərin yeganə qızı, bibisinin yanında yaşayan Gövhər də heç ev olmadı. Acı xasiyyətindən yaxınlaşan olmadı qıza. Gənc yaşından o da

vərəmdən öldü. Beləliklə, Kəbutərin nəsli birdəfəlik yox oldu. Birdəfəlik. Böyük siyasətin kiçik qurbanlarından biri. Xəzərin sahilindəki qumluqların zərrəsindən biri, dənəciyindən biri, biriydi Kəbutər. Nə qədər Kəbutərləri məhv etdi o böyük siyasət? O böyük siyasətin qurbanları, adsız, dilsizdi, etiraza gücü, iqtidarı olmayan zərrələrdi, Xəzərin qum zərrələri. Yaxşı demişdi Pünhan, Pünhan Səda qızımız:

Xəzərin suları şor,
Yorğanım, döşəyim qor.
Səbəbini milləti
Dərbədər salandan sor.

Baxış kişi bazara çıxmışdı. Yolüstü birdən Hüseynbala açıqlığından lap yaxşı tanıdığı qonşusu Hüseynəliyə rast gəldi.
-Ya Allah, ya Allah.

Görüşdülər, öpüşüb-qucaqlaşdılar. Bir an hər ikisi boğazını göz yaşı boğduğundan, qəhər boğduğundan, gözlərini göz yaşı tutduğundan dillənə, danışa bilmədilər. Qarşı-qarşıya dayanıb hər iki kişi xəcalət içində bir-birinə baxırdı, narahat idilər. Çox narahat idilər. Desinlər, qürbətdi, axı qürbət deyildi. Desinlər, yad yerdi, yad deyildi. Hamısı öz dillərində danışan, doğmaca vətəndaşlar idi. Qohum-əqrəbaları belə var idi bu yerlərdə. Amma hər halda burada o köçənlərdən, sürgün olunanlardan hansı bir-birinə rast gəlirdisə, beləcə ağlaşıb dururdu. İndi də Baxışla Hüseynəli kişi həmin vəziyyətdə dayanıb durmuşdular. Bir qədər özlərinə gəldikdən sonra, yaylıqları ilə gözlərini, ağız-burnunu siləndən sonra, bir qədər udqunub boğazlarının qəhərini açdıqdan sonra sözə başladılar. Baxış soruşdu:
-Hüseynəli qardaş, nə təhərdi işlərin? Necəsən, neyniyirsən?
-Eh, Baxış qardaş, neyniyəcəyəm? Uşaqları bir yana işə düzəldə bilmirəm. Ərəb əlifbasını bilmirlər. Orda urus əlifbasıycan oxuyublar. Burda da ki, nə latın, nə kiril əlifbası işə keçir, qalmışam belə. Məcbur olmuşam, böyük gədəni, böyük nökərçüvi qoymuşam burda «Məktəbi-əkabir» deyilən böyüklər üçün açılmış axşam məktəbinə. Bir qədər yaxşı oxudu, əla keçdi. Bir neçə həftə oxudu da. Amma məlum oldu ki, bizim uşaqlar hesabı, fizikanı, bir neçə belə fənni burdakılardan yaxşı bilir. Ona görə də az qala məktəbdən qovacaqdılar uşağı.
-Neynəmək olar, qardaş? Məsəl var, palaza bürün, elnən sürün. Bu elin əlifbası başqadı. Deyir burda gecələr cavanlarçün, oxuya bilməyənlərçün ayrı təzə məktəblər açıblar. Yəni bizimkilərçün yox ey, özlərinin yaşlılarıyçün, «Məktəbi-əkabir» deyirlər adına, bizdəki o gecə məktəbləri kimi.
-Hə də... Elə mən də bayaqdan sənə onu deyirəm da... Eşitmirsən məni?...

Baxış özü də hiss etmədən «bizdəki» dedi. Bizdəki, yəni qoyub gəldiyi o torpaqdakı axşam məktəblərini xatırladı.
-Hə, deyirəm «Məktəbi-əkabir» açıblar. Yəni bizimçün açmayıblar ey, elə əvvəldən özlərində «Məktəbi-əkabir» olub yaşlılarçün. Deyirəm uşaqları düzəldək ora, axşamlar gedib oxusunlar, ərəb əlifbasını öyrənsinlər.
-Hə, yaxşı fikirdi. Elə mən də sənə onu deyirəm - təkrar etdi Hüseynəli və sözünə davam etdi:
-Mənim özümdə day can qalmayıb. Mənim oxuyan vaxtım çoxdan keçib. Bir də heç yaşım ötməsəydi də, o yanvar gecəsində, o soyuq gecədə bizi ki, yerimizdən qalxızdılar, məni də, qardaşımı da, apardılar saldılar Bayıl həbsxanasına. Altı ay, qardaş, altı ay o həbsxanada qardaşımnan birgə elə qaldım ki... Cəhənnəm əzabı çəkdik. Qışın günü, yaxşı geyimim yox, qalın geyimim yox, soyuqladım, indi də belim elə olub ki, sarı su saxlaya bilmirəm. Heç yerdə oturmağa üzüm yoxdu. Xeyir-şərdən olmuşam. Nə qonaq gedə bilirəm, nə bir yana gedib çıxa bilirəm. Elə işdən-gücdən güclə onu-bunu eləyirəm. Nə isə.
-Ay yazıq. Yox, mən Bayıldan keçməmişəm. Məni elə küçədən, o Sovet küçəsindən tutan kimi aparıb basdılar gəmiyə. Birbaş Ənzəliyə gəldim mən.

-Hə, sən məndən xoşbəxt çıxmısan. O Bayılın sifətini görməmisən.
-Bəs qardaşın necə oldu? O da gəldi səniynən?
-Yox ey, nə deyirsən qardaş? Qardaşım elə Bayıl həbsxanasında fövt oldu.
-Allah rəhmət eləsin.
-Allah sənin də ölənlərinə rəhmət eləsin. Elə o altı ayı iki qardaş baş-başa, çiyin-çiyinə, diz-dizə oturub bircə şeyi fikirləşirdux: Görən bizi niyə tutublar? Niyə gətiriblər bu həbsxanaya, Bayıl həbsxanasına? Biz kimə neynəmişdux? Günahımız nədi? Bunu başa düşmürdux, bilmirdux ki, bizi İrana sürgün eləyəcəklər.
-Day demə. Bə indi hardan gəlirdin?
-Rəştə getmişdim.
-Nə əcəb?
-Dedilər Rəşt konsulxanasına ərizə versən, o yanda qalan külfətinnən, əqrəbandan xəbər tuta bilərsən. Axı mənim, arvad-uşaq qaldı o tayda, məni elə həbsxanadan bu yana sürdülər deyin, arvad-uşaqdan heç xəbərim yoxdu. Bilmədim necə oldular. Neçə vaxtdı burda - Ənzəlidə aradım-axtardım ki, bəlkə bizsiz köçürdüb gətiriblər üzü bəri. Bir soraq tuta bilmədim. Getdim Rəştə, konsulxanaya, urus konsulxanasına, ərizə verdim ki, bəlkə bir bu taydan xəbər tuta bildim.
-Əcəb eləmisən ərizə verməkdə. Amma sənə bir söz deyim ki, çox da ərizəyə arxayın olma. Çünki deyirlər bu yaxınlarda orda təzə qanun çıxıb. Əvvəl axı arvad-uşağa izin verirdilər, gəlsinlər, kim istəyirsə. İndi deyir, o sərhədi elə bərkidiblər ki, day heç kimə icazə vermirlər, izin vermirlər. Qalan o yanda qaldı, gələn bu yana gəldi.
-Eh, day neynim, qardaş? Nə olacaq-olacaq. O bir olan Allah şahiddi ki, dünyadan əlim elə üzülüb, əlim elə üzülüb, day zəncirim qırılıb. Bundan beləsinə, istəyir qoydular gəldi, qoymadılar gəldi. Hərdən bir fikirləşirəm ki, qaçaqçı tapa bilməsəm, yavaş-yavaş gecələrnən gedim Araz tərəfə, bəlkə keçə biləm o taya.
-Yooox, heç o fikrə düşmə. O taya keçmək istəyəni ya bəri yankilər vurur, ya o yankilər. Hələ ki, keçə bilənin sorağını eşitməmişəm. Nəsə, Allah Kərimdi, Allah Kərimdi.
-Kərim Allahın quyusu elə dərindi ki, vallah, düşən bizim kimi qulzuma düşür.
-Düzdü, O Bakıda bir gün görməmişdik. Amma hər halda işləyirdik, köç-külfət, yer-yurd olmuşduq. İndi nə cəhənnimligik, nə cənnətlik.

Baxış kişi sözbəti bir az zarafata salmaq istədi ki, kişinin qardaş ölmüynən, arvad-uşağın o tayda qalması zülümüynən qəhərlənən boğazı bəlkə udquna, özünə gələ, gülümsünə bəlkə; dedi:
-Deyirəm, biz öləndən soora indi o dünyada ki, olluq ha, bizi cənnətə qoyacaqlar, ya cəhənnəmə? Mən bilən, hansının qapısına getsək, deyəcəklər, çevir arabanı, bala, o yana, atının başını vur, keçginən o birisi tərəfə, sən buralıq deyilsən, mühacirsən, burda da deyəcəklər, mühacirsən, şurəvisən, orda deyəcəklər, həmşərisən, iranlısan. Görəsən dünyada bizim bir öz torpağımız var?

Zarafat eləmək istədi, amma bundan bir şey çıxmadı. Zarafatın özündə də bir həzinlik, bir kədər vardı. Hüseynəli dedi:
-Eh, ay qardaş, bizə qəbir qazımaq üçün bir parça torpaq da qoymayıbmış Allah. Taleyimizə bu yazılıbmış əzəl gündən. Deyir

Fələk coşdu çağladı,
Qəlbimə daş bağladı,
Mənə bir baxt yazdı ki,
Göylər belə ağladı.

Yenidən ikisinin də gözü doldu, yenidən ikisi də ağlar vəziyyətə düşdü. Amma daha sağollaşmağa da imkanları yox idi. Əllərinin ovuclarıyla bir-birinin çiyninə bir şappıltıynan vurub aralandılar. Hər ikisi o birisi əlilə gözlərinin yaşını silirdi.

Nə qədər böyük bir həqiqət var idi bu son mükalimədə. Allah qəbir qədər də torpaq, qəbri belə qazılmaq üçün torpaq yazmamışdı bu millətin taleyinə. Məşədi Gülsüm nənə dənizin dibində, Xəzərin dibində dəfn olundu. Dəfn olundu? Hə. Qəbri də qalmadı bu dünyada. Baxış kişi, Hüseynəli kişi - hər ikisi quruda, torpaqda yarandıqları yerə dönmək üçün qəbir qədər yer istəyirdilər. Tapa bilmirdilər. Nə o tayda, nə bu tayda. Nə orda vətəndaş idilər, nə burda. Nə orda yurddaş idilər, nə burda.

Belə, oxucum! Yadından çıxartma, yadından çıxartma ki, xalqının taleyində, millətinin taleyində bir 38-ci il olub. Heç faciəsiylə 37-dən geri qalmayan 38-ci il olub millətimizin taleyində. Bu da tarixdi. Özü də elə bir tarixdi, elə bir faciədi ki, bənzəri heç bir millətdə yoxdu. Bölünən millətlər var dünyada. Almaniya bölünmüşdü, aşdı o divardan. Koreya bölünmüşdü, çırpınır, atmaq istəyir çiynindən. Belələri var. Biz onların içində ikiqat talesiz millətik. Bir var bölünmüşdük - Araz yarmışdı sinəmizi, Arazdan keçmişdik, xəncər yarasından. «Ana balasından ayrı düşəndə mələr», demişdik. O mələrtidən bu 38-in mələrtisi daha faciəli oldu. Millətin doğma torpağında vətəndaşlıq hüququ olmadı. Nəticəsində də pənahəndə olub qaldı. Və bu faciəni dünyaya çatdıran da yoxdu. Və bu faciəyə - 38-ci il faciəsinə abidə qoyan da yoxdu, 37-dən çox yazılıb, 38-dən yox, abidə qoyan da yoxdu.

Necə ad qoyublar bu millətə? O taya sürüləndə «həmşəri», o tayda «mühacir». Bir on il keçməmiş bu taya sürülənlər və ya keçməyə məcbur olanlar bura qayıdanda "pənahəndə"! Bu məcburi mühacirətlər vaxtı nə qədər itkin, pərən-pərən düşdü ailələr. Nə qədər illərin zəhməti bahasına başa gələn ev-eşik dağıldı. Mal-madar, qarılar demişkən şəpir-şüpür itib-batdı. Təzəcə qızdırılan ocaqlar yenidən söndü. Təzəcə tikilən evlər yiyəsiz qaldı…

Qayıdan, artıq hər şeyi və vətəndaşlığını da, doğma torpağında doğmalığını da itirənlər içindən etiraz səsi ucaltmaq istəyənlər: a) tutulub Sibir lagerlərinə sürgün edildi: nazir-şair Məhəmməd Biriya kimi, cavan həkim Xudaşahi kimi. Yenə sayım, atam-qardaşım, bacım-övladım mənim, nə qədər sayım? Məgər hamısını bircə-bircə tanımırsan? Məgər ürəyindən axan qanı qaraldan o dərdlər deyil? b) Avariya - qəza yolu ilə məhv edildi, aradan götürüldü. Yenə də və niyə sayım axı? v) Turist kimi, ya müxtəlif bəhanələrlə xarici ölkələrə keçib ikinci - ikiqat mühacirətə məcbur oldu. Dili, yurdu üçün həsrətlə can verib, yad torpaqlara əmanət tapşırıldı. Almas İldırım kimi…

Azərbaycan, mənim tacım-taxtım oyyy…
Açılarmı kor olası baxtım oyyy… Açılmadı!

Füzuliyə layiq fəryad idi bu! Hansı millətin belə fəryadı olub və kar qulaqlar eşidib onu?

Oxucum! Mənim də fəryadımdır bu əsər… Və səndən başqa eşidən olacaqmı?

Daha nə vaxta qədər oynayacaqlar taleyi ilə bizim millətin - bu cəfakeş olduğu qədər də dözümlü, inanclı, mehriban millətin?

Sənsə inanma, əsrlər təlqininin əyninə geydirdiyi o bəlalı, o yırpanmış, o lənətə gəlmiş İNAM geyməsini çıxar at əynindən. Heç kəsə, heç kimə, heç nəyə imkan vermə ki, bir də o qəflət donunu əyninə geydirib sənə bu zülmləri rəva görə bilsin.

Beləcə, mənim istəkli oxucum! böyüklərinin unutmağa başladığı, gənc nəslin yerli-dibli xəbəri olmadığı bir tarix səhifəsi, millətin taleyindən bir tarix səhifəsi. Sənə çatdırmaq istədiyim bu idi! Sənə çatdırmaq istədiyim bu idi. Yaxşı vərəqlə tarixini. Yaxşı vərəqlə tarixini, əzizim! Burada mənə elə gəlir ki... Yox, təkcə mənə elə gəlmir, elə həqiqətən belədi, o tarixin səhifələrində təbəssümdən çox göz yaşları var. Mənim qəlbimdəki abidəni qəlbinə köçürtmə təkcə. Qoy elə bir abidə ucalsın ki, - səbəbini milləti didərgin salandan sor, - deyə fəryad etsin.

---

*Mənbə: AZERİ.org, 2003*
*Veb üçün hazırlayanlar: Arzu Ağayeva, Gülnar Aydəmirova*
*Veb master: Ülviyyə Məmmədova*